Ulu öndərimiz çıxışlarında qeyd etmişdir ki, müəllimlərin 5-10 il bundan əvvəlki səviyyəsi ilə bu günün yüksək təhsilini təmin etmək olmaz. O, müəllimin öz üzərində daim işləməsinin, elmi-texniki nailiyyətlərdən xəbərdar olmasının vacibliyini xüsusilə yurğulayırdı. Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq gənc nəslə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı, ölkədə əhalinin rifahının yüksəldilməsi, hər bir şəxsin fərdi həyatının yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olmasını təmin edir, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Gənc nəslin mənəvi cəhətdən zəngin, milli-bəşəri dəyərlərə cavab verən şəxsiyyət kimi formalaşması təhsil islahatının əsas istiqamətlərindəndir. Milli dövlətçilik təcrübəsi və müasir dövr üçün siyasi, sosial-iqtisadi və mədəni siyasətinin strateji və perspektiv baxımdan əhəmiy-

yəti haqqında maraqlı faktlar söylənir. Tanınmış şəxsiyyətlərin sanballı fikirləri ilə əsaslandırılan inkişaf istiqamətləri ixtisasartırma sahəsində çalışan müəllimlərin yüksək elmi-nəzəri hazırlığını, həyati və tarixi faktlara istinadını təmin etmişdir. Pedaqoq V.P.Bespalko yazır: "Yaxşı, elmi əsaslandırılmış təlim-tərbiyə texnologiyası pedaqoji ustalıq deməkdir."

Şərq fəlsəfi-pedaqoji fikrini özündə ehtiva edən klassik pedaqoqların pozitiv görüşlərinə, elmi dəlillərə istinad edən, tədrisdə yeni təlim texnologiyalarının tətbiqinə əsaslanan, milli-əxlaqi dəyərlərə stimul verən, XXI əsr insan şəxsiyyətinin intellektual səviyyəsinin yüksəldilməsi sahəsində inkişaf etmiş dövlətlərlə müqayisəli təhlili ixtisasartırma sahəsində çalışan müəllimlərin mühazirələrində öz əksini tapmışdır. Bu problemə təlim-tərbiyə aspektində diqqət yetirsək görərik ki, orta əsrlərdən didaktika sahəsində alimlərin (N.Tusi, A.Disterveq, Y.A.Komenski, K.D.Uşinski və b.) maraqlı tədqiqatları, orijinal fikirləri mövcud olmuşdur.

Təlim yalnız öyrədən tərəfindən təhsil səviyyəsinin yüksəldilməsilə məhdudlaşmır, həm də şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.Təlim, tarixən başlıca vəzifəsi olan öyrətmə prosesi ilə yanaşı, tərbiyələndirmə və inkişafetdirmə vəzifələrini də yerinə yetirir.

Cəmiyyətdə tərbiyənin və təhsilin məqsədyönlü təsirinin rolu artdığına görə, o, uşaqların psixi inkişafının ən ümumi, zəruri təşkili forması kimi çıxış etməyə başlayır.

Orta məktəbdə şagirdlərin təlim-tərbiyəsində qarşılaşdığımız nöqsanlar müəllimin pedaqoji hazırlığının aşağı səviyyədə olmasından irəli gəlir. Bütün bunların qarşısını almaq üçün müəllim hazırlığı ilə bağlı problemləri aradan qaldırmaq lazım gəlir. Pedaqoji kadrların hazırlanmasında təkcə elmi-nəzəri deyil, praktik-psixoloji baxımdan da tədrisin genişləndirilməsi tələb olunur.

"Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bu proseslərin daha sürətlə getməsinə və görülən işlərin səmərəliliyinin artırılmasına zəmin yaratmışdır. Bu konsepsiyaya uyğun olaraq şəxsiyyətə hərtərəfli bilik və bacarıqların aşılanması məqsədilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin hər bir fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək şəxsiyyətə çevirir

Görkəmli pedaqoq alimlərimizdən M.Mehdizadə, M.Muradxanov, H.Kazımov, Ə.Ağayev və digərləri belə hesab edirlər ki, müəllim əvvəlcə uşağa öyrənməyi öyrətməli, sonra isə bu işin görülməsini onun özünə tapşırmalıdır. Məlumdur ki, hər hansı metodika şagirdi düşündürəcək, yaxşı pedaqoq isə onu irəliyə aparmalıdır. Məşhur Çin filosofu Konfutsi demişdir: "Alicənab müəllim şagirdi irəliyə aparır, arxasınca dartmır." Deməli, təlim inkişafın önündə getməlidir.

İbtidai təhsilin əhəmiyyəti ondadır ki, o, ilk növbədə cəmiyyət uçün milli-mənəvi dəyərləri özündə formalaşdıran, vətənini, xalqını sevən, bilikli, bacarıqlı vətəndaşlar yetişdirir, ən zəif oxuyan şagirdlərlə də təlim prosesində optimal variantların seçilməsinə nail olmaq üçün onlarda müstəqil mühakimə yürütmək qabiliyyətni inkişaf etdirilməsində fəal və interaktiv təlimin səmərəli tətbiqi ilə keyfiyyətli təhsil öz nəticəsini göstərir.

Təlim prosesində düşündürücü mühit yaradan, şagird şəxsiyyətinin toxunulmazlığını təmin edən müəllimin şəxsi keyfiyyətləri yeni insanın formalaşmasına xidmət etməlidir. Sosial-pedaqoji əsaslara söykənən yeni təlimin mərkəzində şagird şəxsiyyəti, onun cəmiyyətə münasibəti durur.Təhsil cəmiyyətin milli-mənəvi dəyərlərinin yaranması, inkişafı və qorunmasına xidmət etməli, gələcək nəsillərə ötürülməsində vasitə olmalıdır.

Əgər biz məktəbi sadəcə təlim vasitəsi kimi deyil, həm də tərbiyə ocağı kimi qoruyub saxlamaq istəyiriksə, ilk növbədə milli, mənəvi, mədəni mühiti qorumaq haqqında düşünməliyik. Təhsil bütövlükdə milli ideologiyanın tərkib hissəsinə çevrilməlidir.

Milli-mənəvi, ümumbəşəri dəyərlər birlikdə bütün vətəndaşların, xüsusən gənclərin əxlaq kodeksini təşkil etməlidir. Tərbiyə millilik, vətənpərvərlik ruhunda aparılmalıdır. Ona görə də humanitar fənlər induktiv, texniki fənlər deduktiv yolla tədris olunmalı, təhsilin istiqaməti mənəvi dəyərlərin aşılanmasına yönəlməlidir. Odur ki, təlimdə informativ deyil, problemli metodların tətbiqi məqsədəuyğundur.

**ədəbiyyat**


1. Quliyev R. Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası. Bakı, 1995.
2. Kərimov Y. Təlim metodları. Bakı: 2009
3. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru. Bakı, 1998
4. Nəzərov A. Müasir dövrün təhsil problemləri (mühazirə xülasəsi). (Dərs vəsaiti). Bakı, 2011.



**Успешные результаты в образовании – это духовные ценности общества.**

**резюме**

В статье говорится об успехах в области успешного претворения реформы образования, также новый взгляд на образование, и об условиях обеспечения продуктивности образования на современном этапе. Так же говорится о формировании личности молодого поколения в духе морально-национальных ценностей.



**Successful results is the volue of moral society**

**summary**

There is spoken about successes got in the area of carrying out successfully of the educational reform, as well looking at the education newly and conditions secure provide efficient of the education in the modern stage in the article.There is spoken about forminq in there in the spirit of national spiritual costs of the younq qeneration in the article too.


# DİAQNOSTİK VƏ FORMATİV QİYMƏTLƏNDİRMƏNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ


**Təranə İsmayılova,**
ARTPİ-nin böyük elmi işçisi, fəlsəfə doktoru proqramı üzrə doktorant
**e:mail: teraneler@mail.ru**





**açar sözlər:** diaqnostik qiymətləndirmə, formativ qiymətləndirmə, keyfiyyət, özünüqiymətləndirmə, qrup işlərinin qiymətləndirilməsi, rubrikalar

**ключевые слова:** диагностическое оценивание, формативное оценивание, качество, самооценивание, оценивание групповой работы, рубрики

**key words:** diagnostic assessment, formative assessment, quality, self-assessment, evaluation of group work, categories


Bütün dövrlərdə şagirdlərin bilik, bacarıq və vərdişlərini qiymətləndirmək üçün müxtəlif vasitə, metod və priyomlar mövcud olmuşdur.

Təhsildə qiymətləndirmə şagirdlərin mənimsəmə səviyyələrini, rast gəldikləri çətinlikləri aşkara çıxarmaq üçün vasitədir. Yəni, şagirdin insani keyfiyyətləri deyil, onun fəaliyyəti qiymətləndirilməlidir. Qiymətləndirmə ilk növbədə şagirddə müsbət emosiya yaratmalıdır. Təlimdə müəllim şagirdin səhvlərini deyil, nailiyyətlərini vurgulamalı, cəzadan çox dəstək verməyə çalışmalıdır.

Hazırda təhsil sistemində "qiymət", "qiymətləndirmə" və "qiymət vermə" kimi anlayışlar eyni cür izah olunur, lakin araşdırarkən onların fərqli olduqları aşkara çıxır.

**Qiymət** – şagirdin təlim fəaliyyətinin, təlim məqsədlərinə müvafiq göstəricilərinin yazılı, həmçinin rəqəm, simvol, jest və mimika ilə ifadəsidir. Şagirdlərin tədris prosesində müsbət nəticələr əldə etmələri üçün müasir qiymətləndirmə aşağıdakı meyarlara cavab verməlidir: prosesin bütün iştirakçılarına ( şagirdlər, müəllim, idarəedənlər, valideynlər) aydın, variativ, çoxtərkibli, çoxvasitəli, obyektiv, adekvat olmalıdır.

**Qiymətləndirmə** tədris prosesində şagirdin idraki fəaliyyətinin izlənməsi və tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə şagird haqqında informasiyanın toplanması prosesidir.

**Qiymətvermə** prosesində müəllimlə şagird arasında əks əlaqə yaranır.

Qiymətləndirmə məqsədyönlü olmalıdır. Məqsədyönlü qiymətləndirmə prioritetləri müəyyən etməyə, qərarlar qəbul etməyə və onu reallaşdırmağa kömək edir. Məqsədlər nə qədər dəqiq olarsa, qiymətləndirmə bir o qədər keyfiyyətli, obyektiv olar.

Yeni fənn proqramları (kurikulumları) tətbiq olunan siniflərdə məktəbdaxili qiymətləndirmənin üç növündən istifadə olunur: diaqnostik, formativ və summativ.

**Diaqnostik qiymətləndirmə** şagirdin ilkin bilik və bacarıqlarının verilən qiymətləndirilməsidir. Qiymətləndirmənin bu növü müəllimə şagirdləri tanımağa, onların potensial imkanlarını, səviyyələrini, ehtiyaclarını müəyyənləşdirməyə imkan verir. Diaqnostik qiymətləndirmə fənn üzrə şagirdin qavrama səviyyəsinin ilkin göstəricisidir. Bu qiymətləndirmənin əsas məqsədi şagirdlərin öyrənmə prosesində qarşılaşdıqları problemləri tez müəyyən etmək və onun həlli istiqamətində planlaşdırma aparmaqdır**.** Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə (sinif və formativ qiymətləndirmə jurnallarında) qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır. Nəticələr barədə valideynlər, sinif rəhbəri və müəllimlər məlumatlandırılırlar.

**Formativ qiymətləndirmə** formalaşdıran qiymətləndirmədir. Bu qiymətləndirmə şagirdi dərs prosesində fasiləsiz müşahidə etməyə imkan yaradır, şagirdin irəliləmə və geriləməsinin müəyyənləşdirilməsində müəllimə yol göstərir. Formativ qiymətləndirmə müəllimə şagirdin irəliləmə prosesini izləməyə, geriləmə zamanı isə bunu vaxtında aşkara çıxarmağa və qarşısını almağa, şagirdin öz məsuliyyətini dərk etməsinə şərait yaradır. Formativ qiymətləndirmə sayəsində şagird gündəlik qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır. Bu qiymətləndirmə şagirdin problemlərini aradan qaldırmaq və onu istiqamətləndirmək üçün aparılır.

Formativ qiymətləndirmə şagirdin fərdi kompetensiyalarına görə aparılarkən daha səmərəli olur. Ənənəvi qiymətləndirmə zamanı şagirdi digər şagirdə, sinfin səviyyəsinə nəzərən qiymətləndirmək mümkün olurdu. Formativ qiymətləndirmə zamanı isə meyarlar elə müəyyənləşdirilməlidir ki, hər bir şagirdin bilik və bacarıqlarına uyğun gəlsin. Müəyyənləşdirilmiş meyarlar aydın ifadə olunmalı, şagird və valideyn üçün mümkünsüz görünməməlidir.Təhsil naziri M. Cabbarov cənablarının imzaladığı təlimata əsasən, yeni fənn proqramlarının (kurikulumların) tətbiq olunduğu siniflərdə formativ qiymətləndirmə rubriklər üzrə aparılır. **Rubrik** xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir: 1. Mən nəyi qiymətləndirməliyəm? (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyyətlər). 2. Aşağı, orta və yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar? Rubrik fəaliyyət və ya nəticəni artan keyfiyyət kontiniumunda təsvir edir. Rubriklər qiymətləndirmənin ardıcıl, obyektiv və etibarlı olmasına imkan verir, tədrisin səmərəliliyi ilə əlaqədar müəllimləri faydalı məlumatlarla təmin edir.

Rubriklər hazırlayarkən müəllimlər bir neçə məsələni nəzərə almalıdırlar:

- Şagirdin anlayacağı, qısa sadə dildən istifadə edilməlidir.
- Müqayisəli və ya normativ dildən fərqli olaraq deskriptiv dildən istifadə edilməlidir. *Pis, orta, kafi, yaxşı* və ya *əla* kimi qeyri-müəyyən deskriptorlardan uzaq olmaq lazımdır.
- Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə aydın ifadə edilməlidir.
- Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalı, onlar üst-üstə düşməməlidir.

- Şkala şagird nailiyyətlərini tam əhatə etməlidir.
- Təsvirlərin məzmununa görə nailiyyət səviyyələri tərtib edilməlidir.
- Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır. (Bir aspekt üzrə "4" qiyməti digər aspekt üzrə "4" qiyməti ilə müqayisə oluna bilməlidir.)
- Əvvəlcə "ən yüksək", sonra isə "ən aşağı" səviyyə təsvir edilərsə, "aralıq" səviyyələrin təsvir edilməsi asan olar.
- Ən yüksək səviyyə yüksək tələbkarlığa malik, real olmalıdır.
- Ən aşağı səviyyə yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

Bu gün bir çox müəllimləri düşündürən məsələlərdən biri də kiçik qruplarla iş prosesində formativ qiymətləndirmənin aparılmasıdır. Qrup formasında aparılan dərslərdə əsas məqsəd yalnız nəticəni qiymətləndirmək deyil, həm də şagirdlərin fəal və ya qeyri-fəal olmasını müəyyən etməkdir. Qrupda işləmək bacarığı çox mühüm bir fəaliyyətdir. Şagirdlərdə bu bacarığın formalaşması çox əhəmiyyətlidir.

Qrup işinin təşkili zamanı müəllim bir neçə məsələni əvvəlcədən şagirdlərin diqqətinə çatdırmalı və müzakirə etməlidir:

– qrup işinin məqsədi və öyrəniləcək mövzu;

– qiymətləndirmə meyarları;

– Qiymətləndirmə kim tərəfindən həyata keçiriləcək (özünüqiymətləndirmə, müəllim tərəfindən, şagirdlər tərəfindən, müəllim-şagird birliyi tərəfindən, xüsusi komissiya tərəfindən və s.) ?

– tapşırığın həllinə verilən vaxt və s.

Qrup üzvləri öz aralarında vəzifə bölgüsü aparmalıdırlar. Təqdimat zamanı kimin vəzifəsinin öhdəsindən gəlib-gəlmədiyi aşkara çıxır.

Müəllim əvvəlcədən meyarlar cədvəli hazırlayır və şagirdləri meyrarlarla tanış edir. Meyarlar cədvəlini aşağıdakı kimi hazırlamaq olar:

| **meyarlar / qruplar** | **əməkdaşlıq (qrup daxilində vəzifə bölgüsünə əməl etmək)** | **davranış (digər qruplara işləməyə mane olmamaq)** | **tapşırığın cavabını izah və təqdim etmək** | **digər qrupları dinləmək, sual vermək və əlavələr etmək** | **yekun** |
|---|---|---|---|---|---|
| **I** | | | | | |
| **II** | | | | | |
| **III** | | | | | |
| **IV** | | | | | |

Cədvəldə göstərilən meyarların hamısı eyni vaxtda qiymətləndirilmir. Tapşırıq qruplara paylanıb, vaxt elan olunduqdan sonra müəllim əməkdaşlıq və davranış sütunlarına + və ya – işarəsini qoyur. 3-cü və 4-cü meyarlar isə qrup nümayəndələrinin təqdimatı zamanı qiymətləndirilir. Təqdimatdan sonra qrupların işləri və əldə olunmuş nəticələr müzakirə edilir. Sonra müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

1. Qrupların işində hansı müsbət tərəfləri gördünüz?
2. Tapşırıqların həlli prosesində hansı çətinliklərlə qarşılaşdınız?
3. Bu çətinlikləri necə aradan qaldırdınız?

Birinci suala verilən cavablardan müəllim qruplarla işin müsbət və mənfi tərəflərini görə bilir, 2-ci və 3-cü sualların cavabları isə yaranmış problemləri və onların həlli yollarını şagirdlərlə birlikdə müəyyənləşdirməyə imkan yaradır. Qruplarla işlərin nəticəsi müəllimə qərar qəbul etməyəimkan verir: əgər nəticə müsbətdirsə, müəllim mövzunun öyrədilməsinə davam edir,

əgər nəticə səhvdirsə, müəllim əlavə tapşırıqlar verir. Bu zaman müəllimin təlim formasını dəyişməsi məsləhətdir. O, əlavə tapşırıqları fərdi və ya cütlərlə iş formasında verə bilər.

Qruplarla iş zamanı müəllim şagirdlərin fərdi fəaliyyətlərini də müşahidə etməli və qiymətləndirməlidir. Bunun üçün qrup işinin meyarlarından əlavə, qrupdakı şagirdlərin fərdi qiymətləndirmə meyarları da hazırlanmalıdır. Müəllim bu gün Könülü, Yusifi, Əlini, Elmiri müşahidə etmək üçün meyarlar cədvəli müəyyənləşdirir.

| **şagirdin adı** | **Könül** | **Yusif** | **Əli** | **Elmir** |
|---|---|---|---|---|
| **Qrup daxilində vəzifə bölgüsündə iştirak edir, öz vəzifələrini müəyyənləşdirir.** | + | + | + | + |
| **İdeyalar irəli sürür.** | - | + | + | + |
| **Qrupdaxili müzakirələrdə fəal iştirak edir.** | + | + | + | + |
| **Qrupun digər üzvlərinə kömək edir.** | - | - | + | + |
| **Müzakirəyə diqqətlə qulaq asır və suallar verir.** | | | | |
| **Müzakirə aparmağı bacarır, etirazını nəzakətlə bildirir, mübahisə yaranarkən razılığa gəlir.** | | | | |
| **Diqqətini verilmiş tapşırığa yönəldir və yerinə yetirir.** | | | | |
| **ümumi bal** | | | | |

Müəllim qrupların işlərini müşahidə edir. Fəaliyyətlərini öyrənməyi nəzərdə tutduğu şagirdləri daha dəqiq izləyib, cədvəldə qeyd edir. Qrup formasında aparılan dərslərdə müəllim əvvəlcədən şagirdlərin nəzərinə çatdırır ki, yekun qiymətləndirmə hər bir qrup üzvünün fərdi fəaliyyətindən asılıdır.

Qruplarla aparılan dərslərdə şagirdlərin özlərini qiymətləndirmələri də əsas məsələlərdəndir. Özünüqiymətləndirmə şagirdin öz fəaliyyətinin zəif və güclü cəhətləri haqqında informasiyanın təhlilinə yönəlmiş bir prosesdir. Müəllim şagirdlərə öz bilik və bacarıqlarını obyektiv qiymətləndirməyi öyrətməlidir. Özünüqiymətləndirmə bacarıqları şagirdlərdə öz işlərini müxtəlif meyarlarla qiymətləndirərkən yaranır. Bu zaman belə bir cədvəldən istifadə etmək mümkündür:

**şagirdin adı və familiyası_______________ tarix__________ sinif_______**

Tapşırığı yerinə yetirərkən nə kimi fəaliyyəti göstərdin? Meyarları diqqətlə oxu və variantlardan birini işarələ.

1. Mən məlumatı aydınlaşdırmaq və dəqiqləşdirmək üçün suallar verdim.
   a) heç vaxt b) ara bir c) tez-tez
2. Mən tapşırığın həllinə kömək edəcək fikirləri dedim.
   a) heç vaxt b) ara bir c) tez-tez
3. Qrup üzvlərinin fikirlərini dinlədim.
   a) heç vaxt b) ara bir c) tez-tez
4. Qrup üzvlərinin fikirlərini şərh etdim.
   a) heç vaxt b) ara bir c) tez-tez
5. Müzakirəyə qoşulmayan qrup üzvlərini müzakirəyə cəlb etdim.
   a) heç vaxt b) ara bir b) tez-tez
6. Qrupda mənə həvalə olunan vəzifəni icra etdim.
   a) heç vaxt b) ara bir c) tez-tez

7. Qrup işində ən çox xoşuma gələn cəhət ____________________
8. Qrup işində ən çox mənə çətin gələn cəhət __________________
9. Növbəti qrup işi üçün təklif edirəm ki, __________________

Özünüqiymətləndirmə cədvəli müəllim üçün hər bir şagird haqqında məlumat bazası rolunu oynayır. Bu cədvəl doldurulduqdan sonra şagird də öz fəaliyyəti haqqında müəyyən qənaətə gəlir. Özünüqiymətləndirmə təkcə öz işini qiymətləndirmək üçün deyil, həm də şagirdlərin qarşısında duran problemləri müəyyənləşdirən və onların həlli yollarını tapmağa kömək edən bir vasitədir.


**ədəbiyyat**

1. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
2. Azərbaycan Respublikasının təhsil haqqında Qanunu .
3. Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014.
4. Шакиров Р. Х., Буркитова А. А., Дудкина О. И. Оценивание учебных достижений учащихся. Бишкек 2012.
5. Бардин К.В. Как научить детей учиться. Москва, 1987.



**Влияние диагностического и формативного оценивания на качества образования**

**резюме**

В статье объясняется диагностическое и формативное оценивание, их особенности, формы, методы качественных и количественных показателей. В статье также объясняется правил подготовки рубрик, работы в команде и индивидуальной оценивание учащихся. Отмечается, что самооценивание помогает ученикам видит своих сильных и слабых сторон.



**Effect of diagnostic and formative assessment on the quality of education**

**summary**

The article explains diagnostic and formative assessment, their characteristics, forms, methods of qualitative and quantitative indicators. The article also explains the rules for the columns, team work and individual student assessment. Self-assessment helps students see their strengths and weaknesses. In this article, these issues were clarified


# İNTEQRATİV TƏLİMİN DİDAKTİK ƏSASLARI


**Məmməd Kazımov,**
ARTPİ, təhsilin idarə olunması və iqtisadiyyatı
şöbəsinin aparıcı elmi işçisi, pedaqogika üzrə
fəlsəfə doktoru, dosent
*e-mail:* memmedkazim@mail.ru





**açar sözlər:** didaktik yanaşma , inteqrativ təlim, müasir məktəb, fəndaxili mövzuların əlaqəli tədrisi, inteqrativ təlim xüsusiyyətləri, uyğun mövzular, məntiqi nəticə

**ключевые слова:** дидактический подход, интегративное обучения, современная школа, взаимосвязанных обучения внутрипредметных тем, принципов интегративных обучений, одинаковые темы, логические результаты

**key words:** didactics approach, integrative learning, modern school, intracurriculum learning objects, principles of integrative learning the same topics, logical results


Respublikada təhsil islahatının uğurla həyata keçirildiyi bir dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi, səriştəli və öz ixtisasının mahir bilicisi olan müəllim kadrları hazırlığının yeniləşdirilməsi, yaradıcı təfəkkürə malik pedaqoji kadr hazırlığının həyata keçirilməsi təhsilin ən vacib məsələlərindən biridir. Bu məqsədlə yeni təlim texnologiyaları ilə yanaşı, təhsildə inteqrativ təlimin tətbiqi də xüsusi əhəmiyyət kəsb edir. İnteqrativ təlim təhsil islahatının əsas prinsiplərindən biri olub, fənlərin məzmunu və strategiyasının hazırlanmasına istiqamət verir. İnteqrasiya təlim prosesində baş verən dəyişik-

liklər haqqında şagirdlərdə araşdırma aparmaq, nəticə çıxarmaq, qarşıya çıxan problemləri vaxtında həll etmək bacarığı formalaşdırır. O, eyni zamanda müəllim olacaq tələbələrin məntiqi təfəkkürünün inkişafında, bir-birinə yaxın fənlər haqqında öyrəndikləri anlayışların dərinləşdirilməsində və mövzuların öyrənilməsinə kompleks yanaşmada əsaslı rol oynayır. Fənlərarası əlaqə, fəndaxili mövzuların bir-birini tamamlaması inteqrativ təlimi təmin edir. Fənlərarası inteqrasiyanın yaradılmasında, fənlərin dərindən öyrənilməsi və tətbiqində didaktik irsin təsiri və imkanları danılmazdır. "Didaktika" yunan sözü *(didaktikos)* olub, mənası "ibrətamiz" deməkdir. Elmi didaktikanın banisi, çex alimi Yan Amos Komenski yeni metodla işləyən ilk məktəbin layihəsini hazırlamış, dərs haqqında yeni pedaqoji təfəkkürü dünyaya bəyan etmiş, orta ümumtəhsil məktəblərində təlim nəzəriyyəsinin əsasını qoymuşdur.

Y.A.Komenskinin **pansofiya** ideyası sinif şəraitində, müəllimin rəhbərliyi altında hamıya hər şeyi öyrətməyə üstünlük verirdi. Beləliklə, elmi pedaqogikanın, onun nəzəriyyəsinin əsası qoyuldu. Y.A.Komenski tərəfindən əsası qoyulan elmi diaqnostika əsasında pedaqogika yaradılmışdır. Bu görkəmli alimin didaktika sahəsində yaratdığı elmi istiqamətlər pedaqogikada böyük uğurla tətbiq edilir.

Didaktika sahəsində böyük tədqiqatlar aparmış, ensiklopedik düşüncəyə malik, görkəmli nəzəriyyəçi, "rus pedaqogikasının atası" adlandırılan K.D.Uşinski didaktika sahəsinə mühüm yeniliklər gətirmişdir.

K.D. Uşinskinin didaktik irsi pedaqogika elmi üçün xüsusi maraq doğurur və müasir məktəbin bir sıra praktik vəzifələrinin həllində xüsusi əhəmiyyətə malikdir. O, pedaqoji nəzəriyyəni yaratmaq vəzifəsini qarşısına məqsəd qoymuş və buna nail olmuşdur. K.D. Uşinski əsas vəzifəni müəllimlərə hazır istiqamət verməkdə deyil, onları şüurlu yaradıcı fəaliyyətə yönəltməkdə görürdü. O qeyd edirdi ki, didaktikanın ciddi elmi araşdırmalara ehtiyacı var və onun bir çox elmlərlə (sosiologiya, psixologiya, fəlsəfə, məntiq, incəsənət) əlaqəli şəkildə öyrənilməsi vacibdir. Ümumiyyətlə, müasir təlimdə hər hansı bir fənnin dərindən mənimsənilməsi üçün digər fənlərlə əlaqəli şəkildə tədris edilməsi müsbət nəticə verir. Pedaqogikanın psixologiya, fiziologiya, məntiq və s. fənlərlə əlaqəli öyrənilməsi onun dərindən mənimsənilməsinə müsbət təsir göstərir. Orta ixtisas təhsilli müəllim hazırlığında texnologiyanın öyrənilməsi zamanı təbiət fənlərinə, o cümlədən, tarıx, kimya, biologiya, fizika, coğrafiya fənlərinə müraciət edilməsi vacib şərtdir. Bu zaman fənnin dərindən öyrənilməsi üçün geniş imkanlar yaranır.

Qeyd etmək lazımdır ki, pedaqogika və didaktikanın öyrənilməsində fiziologiyanın da müəyyən əhəmiyyəti vardır. Belə ki, fiziologiyanı öyrənməklə fərdin fiziki inkişafına müsbət təsir göstərən imkanların nəzərə alınması üçün şərait yaranır.

Ümumiyyətlə, orta ixtisas təhsili müəssisələrinin aşağı kurslarında didaktikanın tətbiqi zəifdir. Didaktikanın tətbiqində əsas məqsəd " Fənni yaxşı öyrən, yaxşı dərk elə, və onu aydın şərh etməyi bacar!" tələbini yerinə yetirməkdir. Tələbələr öyrəndikləri fənni, həmin fənnin digər fənlərlə inteqrasiya imkanlarını dəqiq öyrənməlidirlər.

Fənlərin inteqrativ təliminin təmin olunması prosesində aşağıdakı prinsiplərinə vacibdir:

– müvafiqlik prinsipi;

–əyanilik prinsipi;

–müqayisə prinsipi;

–mənimsənilmiş biliklərin möhkəmləndirilməsi prinsipi;

–məntiqi nəticəyə gəlmə prinsipi.

Müvafiqlik, əsasən, təlim yükünün şagirdin fiziki və əqli imkanlarına uyğun olmasını tələb edir. Təlimin başlanma vaxtı ilə əlaqədar məsələyə kompleks yanaşma tələb olunur. Təlimə tez və ya gec başlamağın elə bir əhəmiyyəti olmasa da, şagird ona verilən tapşırığı düzgün dərk etməli, qarşıya çıxan çətinliklərin öhdəsindən vaxtında gəlməyi bacarmalıdır. K.D. Uşinski bu barədə yazırdı: "Müəllimin əsas məqsədi dərsin mənimsənilməsi prosesində inkişafı nə sürətlən-

dirmək, nə də ləngitməkdir, bəlkə də ona sağlam ruhi qida verməkdir. Öyrənən verilən tapşırığı indi başa düşmürsə, az sonra başa düşər”.

Şagirdin öz gücünə inamını itirməsi uzun müddət onun öyrənmə, qavrama, məntiqi nəticə çıxarma qabiliyyətlərinə mənfi təsir göstərə bilər.

İnteqrativ təlim zamanı şagirdlərin fənnin tələblərini anlaya bilmələri üçün uyğun mövzulardan istifadə olunması və onları müqayisə etmək əsas şərtdir. Bu zaman tədris olunan fənlə inteqrasiyaya cəlb olunan fənlər arasında sistemli əlaqə yaradılmalıdır. Bu əlaqə mövzu haqqında əlavə materialların toplanmasına düzgün istiqamət verməlidir.

Əyanilik didaktikanın əsas prinsiplərindən biridir. Öyrənəni fəallaşdırmaq, onu müstəqil düşünüb, tədqiqat aparmağa təhrik etmək, təlimi mövcud obrazlar üzərində qurmaq və onların qavrama qabiliyyətini zənginləşdirmək lazımdır. Tələbə hər hansı mövzu ətrafında danışırsa, onu istiqamətləndirmək lazımdır ki, bu mövzu ilə inteqrasiyaya cəlb olunan digər fənlərlə əlaqə yaratmağı bacarsın. Belə olduqda fənnin dərindən öyrənilməsi asanlaşar və təsəvvür genişlənər.

K.D.Uşinskiyə görə, əyanilik öyrənənin məntiqi təfəkkürünün işə salınması üçün başlıca vasitədir. O qeyd edirdi ki, öyrənənləri düzgün müşahidə etməyə alışdırmaq və onların qavrama qabiliyyətlərini inkişaf etdirmək lazımdır.

Didaktikanın əsas prinsiplərindən olan müqayisəyə geniş yer verilməlidir. Şagirdlər kollektiv şəkildə müqayisə edilən obyektlər arasında oxşar və fərqli cəhətləri müəyyən etməlidirlər. K.D. Uşinski qeyd edir ki, müqayisə hər cür anlamın və hər cür təfəkkürün əsasıdır. Dünyada baş verən bütün hadisələr bir-biri ilə müqayisə prosesində aydınlaşdırılır.

Şagirdlərin mənimsədikləri biliklərin möhkəmləndirilməsi üçün müxtəlif metodlardan istifadə olunur. Bunun üçün ən geniş yayılan metod mövzunun həyatla əlaqələndirilməsi və təkrarlanmasıdır . Bu metod uşaqlarda hər hansı mövzu haqqında fikir yürütmək və izah etmək qabiliyyətlərini formalaşdırır. Şagirdlər mövzunu sinifdə, müəllimin nəzarəti altında öyrənir, dialoq qurur, qazandıqları bilikləri möhkəmləndirirlər. Müəllim mövzu haqqında əlavə sual verərkən hər bir şagird müzakirədə yaxından iştirak edir, öz münasibətini bildirir. Beləliklə, mövzu sinifdə inteqrativ yolla izah edilir. Mövzu haqqında ümumiləşdirilmiş fikir yaranır və o, şagirdlər tərəfindən mənimsənilir .

Fənnin tədrisində əsas amillərdən biri də məntiqə əsaslanma və öyrənilən mövzu haqqında məntiqi nəticə çıxara bilmək bacarığıdır. Bu proses görkəmli pedaqoq alimlər (K.D. Uşinski, Y.Ş. Kərimov, A.N. Abbasov, F.A. Rüstəmov, Ə.Ə.Ağayev) tərəfindən də yüksək qiymətləndirilmişdir.

Şagirdlərdə mühakiməedici assosiasiya və müşahidə qabiliyyətlərini inkişaf etdirmək üçün onların bilik ehtiyatlarının artırılması əsas şərt hesab olunur. Şagirdin marağı həmişə fəal olmalı, fəaliyyət növləri növbələşdirilməlidir. Bu proses zehni yorğunluğu aradan qaldırır və təlimə yeni təfəkkürlə yanaşmağa istiqamət verir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hər hansı bir fənnin (texnologiya, təbiət fənləri, fundamental fənlər) tədrisi didaktik cəhətdən düzgün qurularsa, nizam-intizam problemi həll olunar, şagirdlərdə qazandıqları biliyi tətbiq etmək marağı formalaşar. Bu nöqteyi-nəzərdən təlimin qarşısında bir neçə vəzifə durur:

- şagirdin əqli inkişafı üçün tələb olunan başlıca vəzifələri müəyyənləşdirmək;
- şagirdlərin mövzunu mənimsəmələri üçün müəllimin izahı və problemin həllinə müstəqil yanaşma imkanı yaratmaq;
- təcrübi metodlardan istifadəni genişləndirmək;
- qabaqcıl təcrübəni öyrənmək və tətbiqində didaktikanın tələblərindən geniş istifadə etmək.

Bütün bunlar düşünülmüş və məhsuldar məktəb təliminin təminatıdır və didaktikanın qarşıya qoyduğu vəzifələrin əsasını təşkil edir.

K.D. Uşinski bununla əlaqədar ideyasını şərh edərək göstərirdi ki, didaktikanın əsas prinsipi qaydanın özü deyil, onun elmi cəhətdən əsaslandırılması və tətbiqidir. Didaktik qayda mexaniki deyil, şüurlu tətbiq edildikdə praktik cəhətdən nəticəyönümlü və faydalı ola bilər.

ABŞ-ın tanınmış nəzəriyyəçi alimi Con Dyui hesab edir ki, elmdən həyata və həyatdan digər elmə yol axtarmaqla fənlərin təlimində inteqrasiyaya nail olmaq mümkündür. Odur ki, didaktik prinsipləri tətbiq etməklə fənlər arasında əlaqə yaratmağın əsas açarı həmin fənni həyatla əlaqələndirib, orada qoyulan problemin digər fənlə əlaqəsini aşkar etməkdir. İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə yaradır və birinin digərindən asılılığının dərinləşməsinə xidmət edir. İnteqrativ təlimin köməyi ilə şagirdlər mövzular arasında qarşılıqlı əlaqəni başa düşür və öyrəndiklərini təcrübədə tətbiq edirlər. Fənlərarası, yaxud fəndaxili inteqrasiyanın hansı səviyyədə yaradılması hələ də elmi müzakirə mövzusu olaraq qalır. Bunun üçün inteqrasiyanın nəzəri şəkildə irəli sürdüyü arqumentlərə istinad etmək lazımdır. Aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, inteqrativ təlimin nəticələri qeyri-inteqrativ təlimin nəticələri ilə müqayisədə nəzərə çarpacaq dərəcədə yüksək olur. Fənlərarası inteqrasiya bir neçə yolla həyata keçirilir:

- qazanılan bilik və bacarıqların inteqrasiyası;
- bir fənn çərçivəsində bir neçə mövzunun inteqrativ yolla öyrədilməsi;
- iki və daha çox fənnin bir-biri ilə inteqrasiyası;
- fəndaxili mövzuların öyrədilməsi və əlaqələndirilməsində sərbəst inteqrasiyanın həyata keçirilməsi.

Bunları nəzərə alaraq, fənləri birləşdirməklə inteqrasiya prosesi həyata keçirilərkən müxtəlif metodlardan istifadə olunur. Bir neçə fənnin qarşılıqlı inteqrasiyası prosesində aşağıda göstərilən tələblər ardıcıl yerinə yetirilir:

- fənnin tədrisində yeni pedaqoji texnologiyalara və inteqrativ təlim metodlarına əsaslanma;
- verilən mövzuya uyğun fənlərarası və fəndaxili seçmələrə əsaslanma;
- təqdim olunan inteqrativ təlim layihələrinin tətbiqinə əsaslanma;
- digər tədris şərtlərini və tələblərini nəzərə almaqla tədris prosesinin düzgün təşkilinə və qurulmasına əsaslanma;
- təqdim olunan mövzulara digər fənlərdəki müvafiq mövzuların seçilməsinə və bacarıqlara əsaslanma.

Bu göstərilənlər sxemlə belə verilir:



Bunlarla yanaşı, inteqrativ kurikulumlar haqqında bəzi nəzəri arqumentlər də irəli sürülmüşdür ki, bunlar didaktik prinsiplərin əsasını təşkil edir. Birinci arqument ondan ibarətdir ki, gerçək həyat inteqrasiyalı şəkildə mövcuddur. İnsan həyatını ayrı-ayrı fraqmentlər şəklində təsəvvür etmək mümkün deyil. Təbiidir ki, həyatda problemlərin həllinə nail olmaq üçün bir və ya iki fənn üzrə biliklər kifayət etmir. Əldə edilən bilik və bacarıqların inteqrativ tətbiqinə ehtiyac vardır. Tədqiqatlar göstərir ki, insan tam bilikləri daha asan qavrayır və yadda saxlayır. Ona görə şagirdə elə biliklər verilməlidir ki, bu biliklərdə ətraf aləmin qarşılıqlı əlaqədə olması əks edilsin .

Fənlərarası inteqrasiyanın fənlərin öyrənilməsinə müsbət təsiri aşağıdakılardır:

1. İnteqrasiyanın tətbiqi şagirdlərin təlim vaxtına qənaət edir və fənlərin öyrənilməsinə şərait yaradır.
2. İnteqrasiya şagirdlərdə ətraf aləm haqqında tam təsəvvür və sərbəst düşünmə qabiliyyəti formalaşdırır.
3. İnteqrasiya bir fənnin digər fənlə əlaqələndirilməsi üçün ümumi dərketmə müstəvisinin yaradılmasına xidmət göstərir.
4. İnteqrasiya iki və daha artıq fənni elə uyğunlaşdırır ki, ayrı-ayrı fənlərdəki mövzular paralel tədris olunsun.
5. İki və daha artıq fənnin inteqrasiyası fənlərin uyğunluğuna əsaslanır, məsələn, texnologiya fənni təbiət fənləri ilə inteqrasiya edilir. Bu zaman inteqrasiyanın mövzulara, şagirdlər tərəfindən irəli sürülən təqdimatlara və digər mənbələrə əsaslanmaq kimi müxtəlif metodlarından istifadə vacib şərtlərdəndir.

Göstərilənlərə əsasən belə bir nəticəyə gəlmək olar ki, inteqrativ təlimin keyfiyyəti fənlərarası inteqrasiyanın quruluşundan, müvafiq mövzuların seçilməsindən, müəllimin pedaqoji və metodik səriştəliliyindən, fənlərin öyrənilməsinə müsbət təsir edən müxtəlif amillərdən asılıdır.

**ədəbiyyat**


1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
3. Kərimov Y.Ş. Seçilmiş əsərləri. IX cild. Bakı: Kövsər, 2013.
4. Kərimov Y.Ş. Təhsilin aktual problemləri. Bakı: Mütərcim, 2007.
5. Kazımov M.S. Orta ixtisas təhsilinin məzmununa yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
6. Mehrabov A. O.Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim,2010.
7. Овчарова Р.В. Справочная книга социального педагога. Москва, 2001.
8. Ушинский К.Д. Избранные педагогические произведения. Москва: Просвещение, 1968.
9. Хуторский А.В. Педагогическая инноватика: методология, теория, практика. Научное издание. Москва, 2009


**Дидактические основы внутрипредметного и межпредметного интегративного обучения**


**резюме**

В статье говорится о роли интегративного обучения, о влиянии и возможностях дидактики в построении межпредметных связей на научной основе. В статье также говорится о соблюдении дидактических принципов, раскрываются методические элементы творческого подхода для своевременного выполнения студентами заданий при интегративном обучении. В статье предлагается проводить интегративное обучение таким образом, чтобы соответствующие темы из разных предметов преподавались одновременно, чтобы у учащихся в процессе интегративного обучения формировались исследовательские наклонности.


**Didactic principles of integration intracurriculum and between the subject**

**summary**

The article discusses the role of integrated education and the impact and opportunities of didactics in building on a scientific basis between subject links. The article also refers to compliance with the interactive learning didactic principles disclosed methodological elements of a creative approach to the timely implementation of student assignments. The article proposes to conduct an integrative training so that relevant topics from different subjects taught simultaneously to students in the process of integrative learning formed research tendencies.

# Müəllim olacaq tələbə şəxsiyyətinin formalaşmasında pedaqoji təcrübənin rolu

**Vaqif Kərimov,**
ARTPİ-nin müəllim hazırlığı və kurikulum şöbəsinin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru,
**E-mail:** k.vagif@rambler.ru

**Səadət Həsənova,**
ARTPİ-nin elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail : saadat hasanova @rambler.ru.



**açar sözlər :** tələbə, şəxsiyyət formalaşdırmaq, müəllim hazırlığı, təlim prosesi, təhsilin əsasları , metod və priyomlar, pedaqoji təcrübə

**ключевые слова:** студент, формировать личность, подготовка учителя, процесс обучения, основы образования, методы и приемы, педагогическая практика

**key words:** students, to form personality,, teacher training, the training process, through education, methods and techniques, teaching practice



Tələbə şəxsiyyətinin formalaşmasında , müəllim kimi yetişməsində pedaqoji təcrübənin rolu əvəzedilməzdir. Pedaqoji təcrübə iki mənada şərh olunur:

- tələbələri öyrədənlərin mühazirə və seminarlarında onlara respublikamızın, həmçinin xarici dövlətlərin təhsil ocaqlarında təcrübənin təşkili haqqında məlumat verməları;
- tələbələrin ümumtəhsil məktəblərində bilavasitə təcrübə keçmələri

Pedaqoji təcrübə tələbinin pedaqoji, psixoloji,metodik hazırlığının qarantıdır. Tələbənin qazandığı nəzəri bilikləri pedaqoji təcrübə zamanı dərinləşir, bacarıqları möhkəmlənir, peşələri ilə əlaqədar yeni bacarıqlar formalaşır. Pedaqoji təcrübə tələbədə müəllimlik üçün zəruri olan bir çox keyfiyyətləri inkişaf etdirir. Tələbədə yeniliyə maraq artır, bu istiqamətdə axtarışlar, təşəbbüskarlıq, müstəqillik, yaradıcı-lıq, tənqidi düşünmək qabiliyyəti inkişaf edir.

Pedaqoji təcrübə tələbələrdə gələcək peşələrinə məhəbbət tərbiyə edir, pedaqogi-ka, psixologiya, metodika üzrə nəzəri bilikləri məktəb təcrübəsi ilə əlaqələndirməyə imkan verir. Tələbələr tədrisin vəziyyətini qabaqcıl müəllimlərin iş təcrübəsini, geniş yayılmaqda olan innaovasiyaları öyrənir, onları təhlil edirlər. Beləliklə, onlarda analitik-təhlili təfəkkür formalaşır, özünütəhsili, özünütəkmilləşdirməyi təmin edir.

Təhsil sistemi həmişəcəmiyyətdə baş verən dəyişiklikləri, onnun tələblərini əks etdirməi, yerinə yetirməlidir. Məktəb daha dinamik, çevik olmalı, durğunluğa , şablona qarşı mübarizə aparmalıdır. Bu yalnız nəzəriyyə ilə təcrübənin birgə səyi, yaradıcı fəaliyyəti ilə təmin edilə bilər.

Xarici təcrübə, yenilik adı ilə məktəblərimizə gətirilən hər hansı texnologiya və proqrama çox ehtiyatla yanaşmaq tələb olunur. Məktəblərə verilən demokratiya, müstəqillik hər hansı yeniliyə can atmağı, onu sınaqdan keçirməyi, bu prosesdə şagirdlərin və valideynlərin istəklərini də nəzərə almağı tələb edir.

Bu gün ingilis dili bilən, lakin pedaqogikadan xəbərsiz adamların qeyri-elmi təcrübələri baş alıb gedir. Belələri unudurlar ki, məktəbimizin bugünkü durumuna, yerli şəraitimizə, milli mentalitetimizə uyğun gəlməyən iş tərzinin köçürülməsi yaxşı nəticə verə bilməz. Belə təcrübələr nəinki təhsilə uğur gətirmir, əksinə olanı da vurub dağıdır.

K.D.Uşinski haqlı olaraq demişdir ki, heç bir təcrübə köçürülmür. Köçürülən ideyadır. Deməli xarii ölkələrdə diqqəti cəlb edən hər hansı təcrübə mükəmməl öyrənilməli, təhlil olunmalı, bizim şəraitdə onu tətbiqi qaydası işlənməli, özününküləşdirilməli, dar dairədə sınaqdan keçirilməli, yalnız özünü doörultduqdan , bəyənildikdən sonra onun kütləvi tətbiqinə başlanmalıdır.

Pedaqoji ixtisas üzrə təhsil alan tələbələr ən geci II kursdan etibarən ümumtəhsil məktəblərinə baş çəkməli oradakı təlim və tərbiyə prosesi ilə tanış olmalıdır.

Pedaqoji təhsil alan gənclərin tanış olmayan kollektivə düşmələri onların həmin şəraiti necə qəbul etmələrindən asılı olur. Kollektivə yenicə daxil olmuşgənc , kollektivin fəaliyyətini öyrənir, nələri qəbul etməli, nələrdən yan keçməli olduğunu müəyyənləşdirir .Təcrübəli müəllimlərlə tanış olub bəzi yenilikləri necə qəbul etmələri ilə əlaqədar öyrəndikləri onun inkişafına təsir göstərir. Bu məqsədlə başa çatdirdığı orta və ya ali ixtisas məktəblərində əldə etdiyi bilik və bacarıqları saf-çürük edir, nələri təcrübəyə gətirməyin vacibliyini müəyyənləşdirir. O, yenilikləri müvafiq şəraitdə nümayiş etdirir, müəllimlərin fikrini bilməyə çalışır. Bir müddətdən sonra yenilikləri ilə diqqəti cəlb edən müəllim qabaqcıl , yaradıcı , ustad müəllim olmağın yollarını axtarır.

Müəllim, əsasən, pedaqoji təcrübə prosesində yetişir. Xarici ölkələrdə pedaqoji təhsil verən ali məktəblərin binasında azsinifli ümumtəhsil məktəbinin də fəaliyyət göstərməsinin şahidi olmuşuq. Belə şəraitdə tələbəlik təcrübəsinin təşkili, müəllimlərin isə ali məktəbin mühazirə və seminar məşğələlərində iştirakı asanlıqla təşkil edilir. Tələbə nə qədər yüksək nəzəri məlumata yiyələnsə də , məktəbdə təcrübə aparmazsa , bilavaçsitə dərs deməzsə, müəllimlik peşəsinə yiyələnə bilməz.

Bölmə iclaslarında rayon üzrə qabaqcıl sinif müəllimlərinin təcrübəsi ümumiləşdirilərək müzakirə olunmalı və bəyənilən təcrübənin yayılması məsləhət görülməlidir. Pedaqoji təcrübəyə çox vaxt ayrılmalıdır. Pedaqoji təcübədə hər bir tələbənin dediyi dərs geniş müzakirə olunmalı və qiymətləndirilməlidir. Müzakirədə tələbənin yoldaşları, sinif müəllimi , təcrübəyə rəhbərlik edən metodist-alim iştirak etməlidir. Hər bir dərsin təhlili tələbəyə dərs deməyin sirlərini öyrədir. Təəssüf ki, bəəzən metodist-müəllim tələbəni sinif müəəliminə təhvil verməklə kjifayətlənir . Nəticədə onlar kifayət qədər praktik vərdişlərə yiyələnə bilmirlər.

Bütün magistrantlar həm nəzəri, həm də əməlli cəhətdən müəllimlik fəaliyyətinə hazırlanmalıdırlar.

Magistratura pilləsində müəllimlik fəaliyyətin hazırlığın əsas forması pedaqoji praktikadır.

Magistrantların pedaqoji praktikası bakalavr pilləsində müxtəlif formalarda təşkil oluna bilər :

- müəllimin seminar məşğələlərinin müşahidə edilməsi;
- müəllimin praktik və laborator məşələlərinin müşahidə edilməsi;
- müəllimin mühazirəsinin dinlənilməsi;
- müəllimin keçirdiyi zaçot və imtahanlarda müşahidəçi kimi iştirak etmək.

Xarici ölkələrin təcrübəsi göstərir ki, məzunlar təyinat üzrə bir il dərs dedikdən sonra məktəb kollektivinin rəyinə əsasən müvafiq qaydada attestasiyadan keçirilməli və onlara bakalavr səviyyəsində diplom verilməlidir.

Pedaqoq şəxsi təcrübəsində sınağın nəticəsini təhlil etməklə, buraxılmış səhvləri düzəltməklə çox şeyi anlamalı, biliyi gümanla birləşdirməlidir.

Bəzi müəllimlər şəxsi pedaqoji fəaliyyət çərçivəsindən çıxmalı olurlar.Onların qarşısında öz təcrübələrini ümumiləşdirərək vəzifəsi (auiditoriyada öz təcrübəsindən danışmaq, məqalə yazmaq), yaxud, həmkarının, müəllim kollektivinin təcrübəsini ümumiləşdirmək vəzifəsi qoyulanda yoxlamaq, tətbiq etmək, nəticə çıxarmaq istədikdə o, fəaliyyətə-tədqiqatçılığa qoşulur. Geniş müəllim kütləsini bu işə qoşmadan təhsil sisteminin təkmilləşdirilməsini təmin etmək olmaz.

Özünü təhsilləndirmə pedaqoji ustalığa yiyələnməyin əsasıdır. Adətən, müəllimlərin metodik səviyyələrinin yüksəldilməsi üçün müxtəlif nəzəri və praktik xarakterli mühazirələr, seminar və konfranslar təşkil olunur. Qabaqcıl məktəblərdə açıq dərslər təşkil edilir, qabaqcıl təcrübə mübadiləsi gedir, müəllimlərin pedaqoji ustalığının artırılması istiqamətində iş gedir. Bununla belə, pedaqoji ustalığın artırılması üzrə işdə kitabla ünsiyyəti , pedaqoji-psixoloji mütaliəni heç şey əvəz edə bilməz.

Tələbələri müəllimlik fəaliyyətinə elə hazlırlamaq lazımdır ki, onlar işləyərkən şagirdlərin həyata hazırlanmaları sahəsindəki problemləri müvəffəqiyyətlə yerinə yetirə bilsinlər: şagirdlərin fizioloji-psixoloji sağlamlığını gözləsin, iradi, emosional və intellektual inkişafını təmin etsinlər. Bu, yalnız şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla mümkündür. Bunlar , ümumiyyətlə , məktəbdə təhsil-tərbiyə şəraitinin yaradılması, əsasən, pedaqoji təcrübənin qoyuluşundan asılıdır.Bütün bunlar göstərir ki, pedaqoji təcrübədə yaradıcılıq potensialını inkişaf etdirmək üçün tələbələri elmi-tədqiqata qoşmaq son dərəcə vacibdir. Prof. F.Rüstəmov və T.Dadaşova yazırlar:

"Pedaqoji praktikada yaradıcılıq potensialını inkişaf etdirmək məqsədilə tələbəni **elmi-tədqiqat** işinə cəlb etmək lazımdır, çünki müasir məktəbin tələb etdiyi tədqiqatçı, yaradıcı, yenilikçi müəllimi ali məktəbdə təhsil illərində xüsusən də pedaqoji praktika müddətində hazırlanması lazımdır".

İnteqrasiyanın imkanlarının yaradılması,tələbənin məktəb həyatı və məktəbdə baş verən proseslərlə daha ətraflı tanış ola bilməsi üçün yaxşı olar ki, pedaqoji təcrübə ikinci kursdan başlayaraq semestlər üzrə aşağıdakı kimi həyata keçirilsin: üçüncü, dördüncü və altıncı semestrlərdə bir həftə (30 saat), beşinci semestrdə üç həftə (90saat), səkkizinci semestrdə fasiləsiz olaraq 12 həftə (380saat). Daha məqsədəuyğun olar ki, üçüncü, dördüncü və altıncı semestrlərdə həftədə bir gün, beşinci semestrdə isə həftədə iki gün məktəb günü kimi ayrılsın. Bu günlər tələbələrə məktəb şəraitində "Təhsilin əsasları" fənni tədris olunsun ki, (üçüncü, dördüncü, altıncı semestrlərdə həftədə 4 saat , beşinci semestrdə isə həftədə 6 saat) və pedaqoji təcrübə (üçüncü, dördüncü və altıncı semestrlərdə həftədə 2 saat, beşinci semestrdə isə 6 saat) həyata keçirilsin. Yeni kurikulumda pedaqoji təcrübənin müddətinin ən azı 18 həftəyə qədər artırılması nəzərdə tutulmuş, praktik müəllim hazırlığını təmin edən fənlərin sayı artırılmış və müəllim hazırlığına yeni yanaşmaları əks etdirən "Təhsilin əsasları" adlı yeni fənnin tədrisi planlaşdırılmışdır. Artıq eksperiment şəklində tədrisinə başlanılmış "Təhsilin əsasları" fənninin III, IV və VI semestrlərdə 60 saat , V semestrdə 90 saat olmaqla, III-IV semestrlərdə tədris edilməsi nəzərdə tutulmuşdur.

Pedaqoji təcrübənin VIII semesterdə 12 həftə ərzində fasiləsiz olaraq həyata keçirilən mərhələsi yekun mərhələdir və onun əsas məqsədi təcrübəçi tələbə tərəfindən onun gələcəkdə tam ştatlı müəllim və sinif rəhbəri kimi fəaliyyət göstərə bilməsi üçün bilik, bacarıq və vərdişlərin əldə edilməsidir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasının təhsil haqqında Qanunu. Bakı: Təhsil, 2009.
2. Kərimov Y.Ş. Müəllimlik müqəddəs peşədir. Bakı: "Məktəbəqədər və ibtidai təhsil", 2014, № 3.
3. Ушинский К.Д. Собрание сочинений. 2 том. Москва-Ленинград : издательство АПН РСФСР, 1948.
4. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika (ali məktəblər üçün dərs vəsaiti). Bakı: Renessans, 2000.
5. Abbasov A.N. və başqaları . Müəllim hazırlığına yeni yanaşmalar, Bakı : Mütərcim, 2012 .
6. Kazımov N.M. Məktəb pedaqogikası (ali məktəblər üçün dərslik). Bakı: Çaşıoğlu , 2002.
7. Kazımzadə A., Əlizadə H. Müəllim hazırlığına yeni yanaşmalar . ( "Təhsilin əsasları" fənninin pedaqoji təcrübə ilə inteqrasiyası ). "Azərbaycan müəllimi" qəzeti , 2010-cu il , № 09.



**Роль педагогической практики в формирования студенческой личности – будущего педагога**

**резюме**

В статье рассказывается о том, что будущий педагог должен формироваться изучая все аспекты отраслей современного образования. Он должен присвоить все формы, средства, методы и приемы учебного процесса. Будущий педагог должен интересоваться организацией внеклассных, внешкольных мероприятий и использовать в этом помощь родителей.

В статье так же отмечается, что будущий педагог должен знать особенности организации обучения в малокомплектных школах, присвоить секреты инклюзивного обучения, уметь работать в школах малочисленных народов и должен владеть школьной практикой.



**The role of teaching practice in the formation of student individual – the future teacher**

**summary**

The article explains that future educator should be formed to examine all aspects of modern education sectors. He shall assign all the forms, means, methods and techniques of the educational process. Future teachers must intereslvatsya organization of extra-curricular, extracurricular activities, and use it entirely help of parents.

The article also notes that a future teacher should know the features of the organization of training in small schools, to assign the secrets of inclusive education, to be able to work in schools and Indigenous peoples should own school practice.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARLA TƏLİMİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**Laləzar Cəfərova,**
ARTPİ-nin məktəbəqədər təhsilin
kurikulumu şöbəsinin müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent



**açar sözlər:** məktəbəqədər təhsil, təlim, pedaqoji proses, inteqrativ təlim
**ключевые слова:** дошкольное образование, обучение, педагогический процесс, интегративное обучение
**key words:** preschool education, teaching, pedagogical process, teaching integrative

Bu yaxınlaradək təhsilin məqsədi böyüməkdə olan nəslin cəmiyyət üçün hazırlanması idi. Cəmiyyətin inkişafı ləng gedirdi. Onu sürətləndirmək lazım idi, lakin demək olar ki, əsaslı bir iş görülməmişdi.

Müasir təhsil sistemi gənc nəslin tərbiyəsi qarşısında yeni tələblər qoyur. **B**u gün cəmiyyətin həyatında fəal iştirak edən şəxsiyyət kimi formalaşmaq üçün uşaq daim yaradıcı fəallıq göstərməli, öz fərdi bacarıqlarını inkişaf etdirməli, təkmilləşdirməlidir.

Müstəqil Azərbaycan Respublikası təhsil sisteminin dünyanın qabaqcıl təhsil sistemlərinə inteqrasiyası üçün mühüm dəyişikliklər, islahatlar aparır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müasir dövrdə cəmiyyət üçün müstəqil düşünən, inkişaf etmiş yaradıcı şəxsiyyət formalaşdırılmalıdır. Azərbaycan təhsilinin qarşısında duran mühüm vəzifələrdən biri mütərəqqi dünyagörüşlü, yüksək mədəniyyətli, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünmə qabiliyyətinə malik, vətənpərvər şəxsiyyət yetişdirməkdir. Hazırda müasir təhsil prosesinə yanaşma prinsipləri dəyişib. Müasir dövrün tələblərinə görə, təhsil humanist, şəxsiyyətyönümlü, inkişafyönümlü olmalıdır. Bu gün təhsil sisteminin nəzəri və texnoloji əsaslarına yenidən baxılması üçün şərait yaranmışdır. Cəmiyyətdə gedən dəyişikliklərlə əlaqədar onun üzvlərinə tələblər də yeniləşib.

Müasir gənclər aşağıdakıları bacarmalıdırlar:

- özünü və hərəkətlərini müstəqil və obyektiv qiymətləndirməyi;
- ətraf aləmi dərk etməyi;
- özünə, digər insanlara, ictimai qruplara, cəmiyyətə münasibətdə müstəqil, düzgün qərarlar qəbul etməyi.

İndi pedaqoji fəaliyyətdə uşağın fərdi inkişafının dəyərliliyini qəbul edən ən təbii yanaşma şəxsiyyətyönümlü yanaşmadır. Uşaqlarda ətraf aləmin dərk edilməsinə marağın yaradılması təlimin rolunu dəyişir, müstəqil dərketməyə hazırlığı inkişaf etdirir. Uşağa düşünməyi və müstəqil bilik əldə etməyi öyrətmək müasir təhsilin pedaqoji məqsədidir.

Məktəbəqədər müəssisələrdə işləyən, ümumiyyətlə, uşaqlaqlarla məşğul olan pedaqoq öz işini müvafiq pedaqoji sistemə uyğun qurmalıdır. Müasir təhsil sistemində pedaqoji prosesə yeni yanaşmalar tətbiq edilir. Bu sahədə rus alimlərindən prof. V.P.Bespalko idraki fəaliyyətin

idarə edilməsinin təşkili əsasında yaradılmış pedaqoji texnologiyaların təsnifatını vermişdir. Pedaqoji sistemdə uşağın pedaqoji prosesdə mövqeyi və böyüklər tərəfindən ona münasibət vacibdir.

*Müasir uşaq bağçalarının vəzifəsi aşağıdakılardır:*

- uşaqların fiziki, psixi və mənəvi sağlamlıqlarının qorunmasının təmin edilməsi;
- emosional əmin-amanlığın təmin edilməsi;
- intellektual inkişafın təmin edilməsi;
- uşağın iradi inkişafın təmin edilməsi;
- uşaq şəxsiyyətinin formalaşdırılması, onun yaradıcılıq imkanlarının inkişaf etdirilməsi üçün şəraitin yaradılması;
- uşağın erkən ehtiyaclarının müəyyənləşdirilməsi, ona müvafiq xüsusi (inklüziv) təhsil xidmətlərinin göstərilməsi;
- uşağın məktəbə hazırlanması;
- məktəbəqədər müəssisələrdə uşağın təhlükəsizliyinin təmin edilməsi;
- uşaqlarda sağlam həyat tərzi formalaşdıran bacarıq və vərdişlərin yaradılması.
- uşağın sosiallaşması.

Qeyd etmək lazımdır ki, təlim prosesində uşaqların inkişafına mənfi təsir göstərən faktorlar da mövcuddur:

- təlim prosesinin intensivləşdirilməsi (təlim yükünün süni surətdə artırıl-ması);
- məktəbəqədər müəssisələrdə tətbiq edilən metodika və texnologiyaların uşaqların yaşına, təlim imkanlarına uyğun olmaması;
- nəticələrini nəzərə alınmadan təlim fəaliyyətinin (səmərəsiz) təşkili.
- Təlim prosesində uşaq şəxsiyyətinin harmonik inkişafının təminatına istiqamətlənmiş kompleks ölçülər mövcuddur:
- oyun prosesində uşaqların erkən təlimi və inkişafı;
- kompleks diaqnostikadan istifadə (uşağın inkişaf imkanlarının, yaşa uyğun, fərdi bacarıqlarının müəyyənləşməsi);
- təlim prosesinə uyğun, çevik yanaşmanın həyata keçirilməsi;
- uşağın hərtərəfli inkişafı üçün inkişafetdirici mühitin yaradılması;
- təlim prosesində və təlimdən kənar vaxtlarda müsbət emosional mikroiqlimin yaradılması.

Belə təlim prosesi uşaq şəxsiyyətinin öz-özünə realizəsi üçün tam əlverişli deyil. Qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil nəzəriyyəsi uşaq psixologiyasının inkişafı ilə paralel baş verib, məktəbəqədər yaşlı uşaqların təliminin təşkilinin xarakter xüsusiyyətlərinin müəyyən edilməsinə imkan yaradıb. Görkəmli rus alimləri onları aşağıdakı kimi xarakterizə etmişlər:

- tərbiyəçi tərəfindən həyat təcrübələrinin uşaqlara şıfahi, "kitabaqədərki" ötürülmə xarakteri; (K.D.Uşinski)
- fəaliyyətin müxtəlif növlərində (rəsm, musiqi, idman, oyun və s.) böyüklərin şəxsi nümunəsi uşaqların idraki inkişafının fəallaşdırılması vasitəsi kimi; (E.İ.Tixeyeva)

- məşğələlərdə didaktik vəsaitlərin, oyun-tapşırıqların, sürpriz anlarının, əyani vəsaitlərin parlaq və gözəl olması diqqətin cəmləşdirilməsi, uşaqların istedad və maraqlarının inkişafı vasitəsi kimi; (A.P.Usova)
- uşaqların məşğələlərdə ətraf aləm və onlar arasındakı sadə əlaqələrlə tanışlığı. (A.M.Leuşina)

Qeyd etmək vacibdir ki, məktəbəqədər dövr ərzində təlim və tərbiyənin birbaşa vəzifəsi hər bir uşağın yaradıcı potensialının, inkişaf etdirilməsi üçün zəruri bilik və bacarıqların mənimsənilməsidir. Deməli, biliyin mənimsənilməsi məqsədə çatmaq üçün vasitədir. Ağırlıq mərkəzi uşaqlara hansı təlim materiallarının təklif olunmasıdır.

Tərbiyəçinin əsas vəzifəsi uşağın yaradıcılıq fəaliyyətinin inkişafı üçün yeni, stereotip olmayan müstəqil seçim etmək və müstəqil qərar qəbul etmək bacarığıdır. O, uşaqlara hazır biliklərin verilməsinə təşəbbüs etməməli, əksinə, fəaliyyəti elə təşkil etməlidir ki, uşaqlar özləri "kəşf" etsinlər, mativasiyanın qoyulması, problemli vəziyyətin yaradılması ilə yeni biliklər öyrənsinlər.

Məktəbəqədər təhsil proqramında (kurikulumda) dövlət tələblərinə uyğun olaraq nəzərdə tutulan vəzifələrin həlli təkcə məşğələ zamanı deyil, rejimin bütün anlarında – uşaqlarla, uşaqların bir-birilə, böyüklərin birgə fəaliyyəti və uşaqlara təsiri zamanı, uşaqların müstəqil fəaliyyətində həyata keçirilməlidir.

Müasir məktəbəqədər təhsil müəssisələrində təlim gün rejimində xüsusi yer tutan təlim prosesinin əsas hissəsidir. Məlum olduğu kimi, məktəbəqədər yaşlı uşaqların əsas, aparıcı fəaliyyəti oyundur. Təlim fəaliyyətinə oyun elementlərinin daxil olunması məşğələni canlı, maraqlı və yaddaqalan edir. Oyun mütəşəkkil təlim fəaliyyətində bütün problemlərin həllini birləşdirən inteqrativ əsas kimi çıxış edir. Təsadüfi deyildir ki, oyunu "uşaqlığın yoldaşı" adlandırmışlar. Məktəbəqədər yaşlı uşağın biliyinə açarı məhz oyunda axtarmaq lazımdır, çünki bu, məktəb yaşına çatmamış uşağın fəaliyyətinə, təbiətinə ən yaxın, üzvi surətdə uyğun olandir. Oyun –məktəbəqədər yaşlı uşağın psixi və fərdi inkişafı üçün ən əlverişli şərait yaradan fəaliyyət növüdür. Oyun –yalnız əyləncə deyil, həm də uşağın yaradıcı əməyi, həyatıdır. Oyun prosesində uşaq hələ də bacarmadığını öy-rənməyə çalışır. Oyun prosesində təkcə onu əhatə edən dünyanı deyil, həm də bu dünyada öz yerini dərk edir. Uşaq oyun prosesində bilik qazanır, bu biliyi fəaliyyətə çevirir, ana dilinə, ünsiyyət vərdişlərinə yiyələnir, təfəkkürü və təxəyyülü inkişaf edir.

Aşağıdakı cədvəldə ənənəvi və müasir proqram əsasında fəaliyyətin təşkilinin müqayisəli nümunəsi verilir.

| **uşaq bağçasında təlim prosesi** | |
|---|---|
| **ənənəvi proqram əsasında** | **məktəbəqədər təhsil proqramı (kurikulumu) əsasında** |
| 1. Uşaq böyüklərin pedaqoji təsir vasitəsilə formalaşdırdığı obyektdir. Böyük uşağı idarə edir və ona rəhbərlik edir. | 1.Uşaq və böyük– hər ikisi qarşılıqlı fəaliyyətin subyektləridir. Tərbiyəçi uşaq fəaliyyətini istiqa- mətləndirir. Uşaq təlim prosesinin bərabərhüquqlu üzvüdür. |
| 2. Böyüklərin fəallığı, nitqləri daha zəngindir | 2. Uşaqların fəallığı ən yüksək səviyyədədir. |
| 3. Əsas fəaliyyət növü təlimdir. Təlim fəaliyyətinin ən başlıca nəticəsi–böyüklərin uşaqların qarşısına qoyduğu hər hansı təlim vəzifəsinin həll edilməsidir. . | 3. Əsas fəaliyyət uşaq fəaliyyət növləridir. Uşaqlar təlim prosesində fəal olmalıdırlar. Onlar bilik əldə edilməsi prosesinin iştirakçısıdır. |
| 4. Uşaqlarla əsas iş forması dərs tipli məşğələdir. | 4. Uşaqlarla əsas iş forması məşğələnin oyun formasında keçirilməsidir. Bu zaman müşahidə, müsahibə eksperiment və tədqiqat layihələrinin həyata keçirilməsi yollarından istifadə edilir. |
| 5. Əsasən, birbaşa metodlar və priyomlar tətbiq olunur, uşaqlar düşünməyə, tapmağa təhrik edil-mirlər. | 5. Təlim zamanı birbaşa metodlardan qismən istifadə olunur. Fəal (interaktiv) təlim metodu təqdim edilən informasiyanın ziddiyyətli və yarımçıq olması səbəbindən əqli cəhətdən gərgin (problemli) vəziy-yətin yaradılmasına əsaslanır. Bu vəziyyətin |

| | |
|---|---|
| | yara-dılması uşaqları qarşıya qoyulmuş məqsədə nail olmaq yollarını axtarmağa sövq edir. Bununla da onlar uşaqların təfəkkürünü fəallaşdırır. Bu da öz növbə-sində uşaqlarda idrak fəallığı yaradır, onların tədqiqat fəaliyyətini artırır. |
| 6.Uşaqlar məşğələdə daim tərbi-yəçinin nüfuzu, nəzarəti altında olurlar. | 6. Təlim zamanı uşaqların meyil və maraqları maraqları nəzərə alınır, onlara sərbəstlik verilir. |
| 7. Bütün uşaqlar yerlərində sakit əyləşməli, danışmaq üçün tərbiyəçi-dən icazə almalıdırlar. | 7. Uşaqlar yaşıdları, tərbiyəçi ilə dialoqa girir, həm bir-biri ilə, həm də tərbiyəçi ilə əməkdaşlıq edirlər. |
| 8.Tərbiyəçinin əsas məqsədi-əvvəlcədən nəzərdə tutulmuş metodlardan istifadə edərək məşğə-ləni keçirməkdir. Cavablar onun istəyinə uyğun olmalıdır. | 8. Təlim prosesi iş planında, uşaqların maraqları və tələbatı nəzərə alınmaqla dəyişikliklərin edilməsini nəzərdə tutur. Tərbiyəçi məşğələ prosesində daha səmərəli hesab etdiyi strategiyalardan istifadə edə bilər. |
| 9. Məşğələ fərziyyə üzərində qu-rulduğundan son məqsəd qeyri-müəyyəndir. | 9. Təlim nəticəsi qabaqcadan müəyyənləşdirilir. Təlim prosesi həmin nəticəyə nail olmaq üzərində qurulur. |

Beləliklə, məktəbəqədər təhsil müəssisəsində təlim prosesinə verilən müasir tələblər, subyekt-obyekt modelindən fərqli olaraq, qarşılıqlı fəaliyyət prosesində tərbiyəçinin uşaqlarla subyekt-subyekt modelinin qurulmasını nəzərdə tutur. Bu modeldə təlim prosesinin hər bir iştirakçısı bərabərhüquqlu tərəfdaş mövqeyi tutur. Birgə əməkdaşlıq fəaliyyəti prosesində tərbiyəçi ənənəvi təlimdə olduğu kimi, yeni biliyi izah etməklə kifayətlənmir, elə şərait yaradır ki, uşaqlar həmin nəticəyə tərbiyəçinin bələdliyi, istiqamətvericiliyi ilə özləri gəlsinlər. Beləliklə, o, məlumatçı yox, uşaqların idraki fəaliyyətinin təşkilatçısı, məsləhətçisi və kö-məkçisi funksiyasını yerinə yetirir.

Məktəbəqədər təhsil proqramına (kurikulumuna) görə uşaqlar lazımsız informasiya ilə yüklənmirlər. Onların gələcək həyat və fəaliyyətlərində lazım olacaq ən zəruri həyati bacarıq və qabiliyyətlərin yaradılması istiqamətində iş aparılır, bacarıq və vərdişlər aşılanır, qabiliyyətlərin formalaşması ön plana çəkilir.

Beləliklə, məktəbəqədər təhsilin yeni məzmunu və onun həyata keçirilməsi metodları və priyomları məktəbəqədər təhsil müəssisələrində İKT bacarıqlarına yiyələnmiş, daim öz üzərində çalışan, yeni məzmunla işləməyi bacaran yaradıcı tərbiyəçilərin hazırlanmasını tələb edir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. (2007-2010 -cu illər) Bakı şəhəri, 12 aprel 2007-ci il. “Azərbaycan müəllimi” qəzeti, 2007-ci il, aprel ayının 13-ü
2. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı”. 2010-cu il, iyul ayının16-sı
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
2013-cü il, oktyabrın 24-ü
4.Məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı. Kövsər nəşr. 2014.


**Learning the characteristics of preschool children**

**summary**


New maintenance of education and methods of his realization demanded the teacher of new type, owning fundamentally new for the teachers of preschool education developing technology, able to work with appearing new unusual maintenance.

For an educator not only the realized understanding of structure and features of maintenance of playing activity becomes a necessity but also to understand how it is possible to range, leaning against preschool experience of child, basis of future, new for him, educational activity.


**Особенности организации обучения детей дошкольного возраста**

**резюме**

Новое содержание образования и методы его реализации потребовали педагога нового типа, владеющего принципиально новой для педагогов дошкольного образования развивающей технологией, умеющего работать с появляющимся новым непривычным содержанием.

Для воспитателя становится необходимым не только осознанное понимание структуры и особенностей содержания игровой деятельности, но и понимать, как можно выстраивать, опираясь на дошкольный опыт ребенка, основу будущей, новой для него, учебной деятельности.

# TƏLİMİN MÜVƏFFƏQİYYƏTİ UŞAĞIN MƏKTƏB YETKİNLİYİNDƏN ASILIDIR.

**Aynur Kərimova,**
Bakı şəhəri, 54 nömrəli məktəbin müəllimi
**İlqar İsgəndərov,**
Kaspi Təhsil Mərkəzi Nəsimi filialının direktoru



**açar sözlər:** müasir təhsil, məktəbəqədər müəssisə, intellektual inkişaf, məktəb yetkinliyi, proqram tələbləri, obrazlı təfəkkür, məktəbə hazırlığın yoxlanması

**ключевые слова:** современное обучение, дошкольное учреждение, интеллектуальное развитие, готовность к школе, программные требования, образное мышление, проверка готовности к школе

**key words:** modern education, preschool, intellectual development, school readiness, software require ments, creative thinking, check the readiness for school



Müasir dövrdə təhsilin müvəffəqiyyəti I sinfə gələn uşaqların əqli inkişaf səviyyəsindən asılıdır. Bunun təmin edilməsi uşaqların məktəbəqədər təhsil müəssisələrində məktəbə mükəmməl hazırlanmasını tələb edir. Bununla əlaqədar *məktəb yetkinliyi* termini işlənir. Bu baxımdan müasir təhsil qarşıya yeni tələblər qoyur. Bu, cəmiyyətin sosial, mədəni inkişafı ilə əlaqədar qanunauyğunluqlara
əsaslanır. Bunları bilmədən təlimin keyfiyyətini yüksəltmək mümkün deyil.

Uşağın intellektual inkişafı onun həyatının ilk günlərindən başlayır. Bu proses məktəbəqədər dövrdə formalaşmalı, məktəb illərində və ömür boyu davam etməlidir..

Məktəb yetkinliyi pedaqoji kateqoriya kimi beş-altı yaşlı uşaqların ibtidai məktəbdə təhsil almağa hazır olmalarını əhatə edir. Bu fikri bir qədər də dəqiqləşdirək: uşağın yalnız I sinifdə ilkin təhsilalma bacarıqlarına yiyələnməsi deyil, ümumiyyətlə, IV sinfi bitirənədək proqram tələblərinə uyğun inkişafı – yetkinliyi nəzərdə tutulur. *Məktəb yetkinliyi* hər bir şagirdin təhsilalma qabiliyyətinin inkişafını təmin edir.

Məlumdur ki, ölkəmizdə bütün uşaqların məktəbəqədər müəssisələrə cəlb olunmaları təmin edilməmişdir.

Məktəbəqədər müəssisələrin hamısı deyil, bəziləri uşaqların məktəb yetkinliyinin təmin olunması ilə seçilir. Bizi bir məsələ düşündürür: respublikada belə məktəbəqədər müəssisə nə qədərdir? Müşahidələr göstərir ki, Azərbaycan məktəblərində birbaşa ailədən gələnlərin təxmi-

nən 80 faizi lazımi tələblərə cavab vermir. Azsaylı xalqların uşaqlarının məktəbə hazırlanmaları xüsusi qayğı tələb edir. Fikrimizcə, I sinfə gələnlərin (Belə uşaqlar 140 minə yaxındır.) təxminən 80 faizinin hazırlığı aşağı səviyyədə olur.

Onların hazırlıq səviyyələri öyrənilmir, bununla əlaqədar lazımi tədbirlər görülmür. Təhsil qanununa görə, 3 yaşı tamamlanmış uşaqlar məktəbəqədər müəssisələrə cəlb edilməlidirlər. Uşağın məktəbəqədər müəssisəsisəyə gedib-getməməsindən asılı olmayaraq ailə tərbiyəsi, onun ilkin pedaqoji təsiri son dərəcə əhəmiyyətlidir. Müşahidələr göstərir ki, bəzən birbaşa ailədən gələn uşaqlar fiziki cəhətdən daha sağlam, tərbiyəli, əqli inkişafına görə daha üstün olurlar. Valideynlərin uşağa müntəzəm nəzarəti, qayğısı, hər an nümunə olmaları, böyük bacı və qardaşlarının köməyi öz nəticəsini göstərir.

Uşağın məktəbə hazırlanması və seçilməsi metodikası səmərəli olmalıdır. Bəzən uşaq məktəbə qəbul olunarkən ondan formal şəkildə yaşının bitib-bitməməsi xəbər alınır. İki-üç ayı çatmayan uşaq yalnız Azərbaycan Respublikası Təhsil Nazirliyinin icazəsi ilə məktəbə qəbul olunur. Halbuki, bəzi beşyaşlılar altıyaşlılardan da hazırlıqlı olurlar. Belə uşaqların məktəbə qəbul olunmamaları onları ruhdan salır. Onlar öz üzərlərində işləməyi faydasız sayır, bildiklərini də unudur, təhsilə başlayarkən digər uşaqlardan geri qalırlar. Onların bəziləri çətinliklərlə rastlaşdıqda müəllimin etirazına, danlağına dözə bilmir, oxumaq istəmirlər. Erkən yaşlardan başlayaraq uşaqların təbii yolla normal inkişafına şərait yaradılmaması onların sonrakı inkişaflarının qarşısını alır.

Bunu nəzərə alaraq, dərsdə təkcə öyrətməklə kifayətlənməməli, uşaqların inkişafı, tərbiyə edilmələri ilə də məşğul olunmalıdır. Müsbət xüsusiyyətlər rəğbətləndirilməli, tənbəllik, yalançılıq, kobudluq, laqeydlik kimi xüsusiyyətlərin aradan qaldırılmasına ciddi fikir verilməlidir.

Məktəbə qəbul zamanı uşaqların yaşlarının, hazırlıq səviyyələrinin dəqiq öyrənilməsi onların təlim yükünün müəyyənləşdirilməsinə, geridəqalma hallarının qarşısının alınmasına kömək göstərir. Elə hallar olur ki, bəzən müəllim il ərzində zəif şagirdin səviyyəsini qaldıra bilmir, onu I sinifdə təkrar təhsil almağa məcbur edir. Şagirdin eyni sinifdə təkrarən təhsil alması, "ikiillik" adlandırılması onu yoldaşları, valideynləri qarşısında xəcalətli edir, özünəinamını azaldır. Bu, onun inkişafına mənfi təsir göstərir, yuxarı siniflərdə də yaxşı oxumasının qarşısını alır.

Məktəbə qəbul müxtəlif ölkələrdə fərqli formalarda aparılır. Buna səbəb nədir?

- cəmiyyətdə gedən dəyişmələrin artması və sürətlənməsi ;
- bu məsələ üzrə mütəxəssislərin gəldikləri nəticə və proqnozların çox vaxt ziddiyyətli olması .

Məktəbə yeni gəlmiş uşaqlar üzərində məqsədyönlü müşahidələr aparılmalıdır:

- Uşaq tapşırığı yerinə yetirərkən ya diqqətli və israrlıdır, ya da özünə əmin deyil, sıxılır.
- Tapşırığı yerinə yetirərkən onun məzmunu ilə maraqlanır, yeni "ixtiralar" edir, ya da gərginləşir, həyəcanlanır, geri qalır.
- Tapşırığın mahiyyətini ya dərhal anlayır, ya da diqqətsiz olduğundan, əlavə izahatdan sonra başa düşür.
- Tapşırığı ya müstəqil yerinə yetirir, ya da ciddi köməyə ehtiyac hiss edir.
- Tapşırığın mahiyyətini, alınan nəticəni şüurlu surətdə şərh edir, ya da bunu bacarmır.

Bunları bilmək tərbiyəçinin, müəllimin işini xeyli asanlaşdırır.

Müşahidələr göstərir ki, məktəbəqədər müəssisələrdə bəzi tərbiyəçilər məktəbəqədər təhsilin təhsil sisteminin birinci pilləsi olduğunu nəzərə alaraq məsuliyyət hiss edir, uşaqları yükləyirlər. Yükləmə məktəbdə də davam edir. I sinif proqramlarının tələblərinin uşaq bağçasına gətirilməsi, yuxarı siniflərin proqram tələblərinin də aşağı siniflərə köçürülməsinə səbəb olur. Bəzi müəllimlər standartlara uyğun olaraq dərs ilinin axırında hər bir fənn üzrə əldə olunmalı, nəticələri yaxşı təsəvvür etmirlər.

Məktəbəqədər tərbiyə müəssisəsi olan uşaq bağçasının əsasını alman psixoloqu F. Frebel qoymuşdur. XX əsrin ortalarında dünyada məktəbəqədər müəssisələrin sayı xeyli artmışdır. Dünyanın bir çox ölkələrində, o cümlədən, Azərbaycanda da özəl bağçalar yaradılmışdır. Piaje, Montessöri və başqalarının sistemi üzrə məktəbəqədər təlim-tərbiyənin modelinə görə məktəbə hazırlıq səviyyəsinin artırılması tələb olunur. 1990-cı illərdə müxtəlif yaşlı (4 yaşdan 6 yaşadək ) və müxtəlif səviyyəli uşaqların "analar məktəbi", "ilk addımlar" adı altında birləşdirilməsi istiqamətində müəyyən iş aparıldı.

Bunun üçün düşünülmüş proqramın olmaması səbəbindən məktəbəqədər müəssisələrin iş formaları və metodları problemi həll edilmədi. 5–6 yaşlı bağça uşaqları və bağçaya getməyən uşaqlar üçün məktəbəqədər müəssisələrdə və məktəblərdə *məktəb uşaq bağçası* adlanan hazırlıq qrupları fəaliyyət göstərməyə başladı.

Məlumdur ki, ənənəvi tələblərə görə məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növü oyundur. Müasir dövrdə fiziki və zehni qüvvələrini nəzərə almaqla onları oyun şəraitindən təlim prosesinə gətirmək, oynaya-oynaya oxumağı öyrətmək, sadə bilik və bacarıqlar aşılamaq üçün diferensial şəraitə uyğun sosial inteqrasiyanı təmin etmək zəruridir. Oyun prosesində şagirdlərdə vacib psixoloji fəallaşma baş verir. Bu, sonralar idrak prosesinin obrazlı xarakteri, canlı müşahidənin üstünlüyü, qavrayış, obrazlı təfəkkür, mücərrəd mühakimələr, təxəyyül şəklində özünü göstərir. Uşaqların valideynlərin arzularına görə deyil, məktəbə hazırlıq səviyyələrinə görə və yaşadıqları ərazidəki məktəbə qəbul edilmələri sosial əhəmiyyət daşıyır. Bu, məktəbəqədər dövrdə, *məktəb yetkinliyi* imkanından başlayır və ibtidai məktəbdə də davam edir.

Məktəbə həm psixoloji, həm də mənəvi cəhətdən hazır olan, mədəni davranış vərdişlərinə yiyələnmiş uşaqlar yola salınmalıdır. Bunun üçün tərbiyəçi məqsədə yönəlmiş pedaqoji prosesi düzgün qurmağı bacarmalı, uşaqların bilikləri əldə etmələrinə və həyatda tətbiqinə nail olmalıdır. Fəal təlim metodları və priyomları vasitəsilə mənimsənilən biliklər şagirdlərin yaddaşında uzun müddət qalır. Qazanılan biliklər şagirdin təfəkkür və təxəyyülünün məhsulu olmaqla qalmır, o, biliyini harada, necə tətbiq edəcəyi üzərində də düşünür.

İnteraktivlik zəminində qurulan məşğələ və dərslərdə şagirdin bacarığı, istedadı aşkara çıxır. İstedad onun mövqeyini müəyyənləşdirir.

5–6 yaşlı uşaqların I sinfə qəbulu test tapşırıqları əsasında təşkil olunur, onların sağlamlıqlarını tibbi müayinə müəyyənləşdirir.Uşaqların psixoloji, fiziki cəhətdən, emosional inkişaf baxımından şərti "imtahan" vasitəsilə məktəb yetkinliyi yoxlanılarkən məktəb direktoru, həkim, müəllimlər, tərbiyəçilər və valideynlər iştirak etməlidirlər.

Təlim testlərin köməyi ilə, oyun formasında, müəyyən olunmuş vaxt ərzində *baza kompetensiyası* həcmində həyata keçirilir. Bu, uşaqların ümumi inkişaf səviyyələrini müəyyənləşdirməyə və müvafiq qənaətə gəlməyə imkan verir.

Qaydalı didaktik oyunları təşkil edərkən rəhbərliyin daha müstəqil formalarından istifadə etmək mümkündür. Bu zaman pedaqoq oyun tapşırığını verir, qaydaları şərh edir, onun yerinə yetirilməsinə nəzarəti gücləndirir, nəticəni qiymətləndirir.

Proses başa çatandan sonra hər bir uşaq üçün onun məktəbə hazırlıq səviyyəsini əks etdirən anket vərəqəsi doldurulur:

- Məktəbə tam hazırdır.
- Məktəbə hazırdır, lakin bəzi problemləri var.
- Hazırlığı zəifdir.
- Məktəbə hazır deyil.

Anketdə uşağın inkişaf səviyyəsi belə bir şkala üzrə qeyd edilir:

- tələb olunandan artıq inkişaf ;
- yaşa uyğun inkişaf ;
- inkişafda yüngül və orta səviyyəli çatışmazlıq ;

- inkişafda güclü çatışmazlıq.

Məktəbəqədər uşaqlarla aparılan tədqiqatlar sübut edir ki, I sinfə qəbul olunanların üçdə iki hissəsi böyük çap hərflərlə yazı vərdişlərinə yiyələnmiş olurlar. Onların 20 faizi sadə sözləri yaza bilir, 40 faizi bir qədər oxumağı da bacarır. 15–20 faizi oxumaq və yazmaq vərdişlərinə yiyənlənməkdə, 4–6 faizi, ümumiyyətlə, təlimdə ciddi çətinlik çəkir.

Biz belə hesab edirik ki, testləşdirmə problemsiz və düzgün təşkil olunanda uşaqlar məktəbə qənaətbəxş hazırlanmış olurlar.

"İmtahan proseduru" kadrları arxasında çoxlu həll olunmamış problemlər və məsələlər, obyektiv çətinliklər açıq qalır:

- məktəbəqədər hazırlıq proqramının elmi cəhətdən düzgün ümumi nəzəri platformasının olmaması ;
- uşaq bağçalarında uşaqların məktəbə hazırlanmalarının məqsədəuyğunluğunu inkar edən fikirlərin olması;
- uşaq bağçaları ilə I sinif arasında qarşılıqlı fəaliyyətdə həll edilməmiş problemlərinin olması;
- nəticələrin müəyyənləşdirilməsi sahəsində peşəkar əməkdaşlığın olmaması;
- testləşdirmənin nəticələrinin obyektivliyinə şübhənin olması ;
- tədris uğursuzluğunun proqnozlaşdırılması üzrə xidmətin zəif inkişaf etməsi və uşaqların məktəbə hazırlığının peşəkar yoxlanmasına müasir yanaşmanın olmaması;
- uşaqların müxtəlif kateqoriya və kontingentlərinin, məktəb yetkinliyinin, müxtəlif etnik qrupların xüsusiyyətlərinin nəzərə alınmaması.

Məktəbəqədər pedaqogika, psixologiya, həmçinin çətin həll olunan fikirlərin plüralizminə dair mühakimələri göstərək:

- Bütün uşaqların məqsədə nail olmalarının eyni vaxtda, eyni metodlarla baş verməsi prinsipi çoxdan köhnəlmişdir.
- Hər bir uşaq ailədə fərdi keyfiyyətlərinə görə fərqləndiyi halda məktəbdə mənimsəmə normaları hamı üçün eynidir.
- Məktəbdə uğursuzluğun səbəbini I sinfə gələn uşağın həll olunmamış problemlərində axtarmaq lazımdır.
- Məktəb uşağın ilkin qiymətlərindən deyil, qabiliyyətinin inkişafı üçün şəraitin yaradılması məqsədilə onun vəzifəsinin nəzərə alınması qabiliyyətindən çıxış etməlidir.
- Uşağın qabiliyyətlərinə təlimin nəticəsi kimi baxılmalıdır.
- Müəllimlərin məktəbəqədər müəssisələrə, tərbiyəçilərin isə məktəbə getmələri uşaqların məktəb yetkinliyinin həllinə necə təsir göstərir?
- Uşaq bağçasının mövcudluğu çətin oxuyan uşaqlardan yaxa qurtarmağa imkan verir.

Uşaqların məktəbə hazırlanmalarında valideynlərin rolu böyükdür. Onlar öz övladlarını daim görür, hərəkətlərini izləyirlər. Onlar tez-tez uşaqların baxdıqları filmdə, tamaşada, onlar üçün oxunan kitabda övladlarının bu və ya digər hadisəni necə qəbul edəcəklərini əvvəlcədən görməlidirlər. Təəssüf ki, valideynlərin əksəriyyəti uşaqların istəklərini, daxili aləmlərini, ətrafdakıların onlara münasibətlərini, narahatlıqlarını, arzularını kifayət qədər yaxşı başa düşmür, başlıca məsələnin uşaqların inkişafına necə təsir göstərdiyini anlamırlar. Valideyn övladını başa düşmək üçün onun hər bir hərəkətinin, fəaliyyətinin gizli motivlərini bilməlidir. Çox vaxt zahiri fəaliyyəti onun daxili vəziyyətini ifadə etmir, əksinə, onlar ziddiyyət təşkil edir. Uşaq məktəbi sevmədiyini, oxumaq istəmədiyini açıq elan edir. Bəzən isə xəstələndikdə məlum olur ki, əksinə o, məktəblə, müəllimlə, yoldaşları ilə nə qədər bağlıdır. Uşaq onlarsız qüssələnir, darıxır. Evdə bikar oturmaq onu kədərləndirir.

Tez-tez müşahidə edirik ki, təlimdə çətinlik çəkən uşaq yüksək qiymət almağı, müəllimin onu təriflməsini arzulayır, yaxşı oxuyanlara həsəd aparır. Adətən, çox vaxt uşaq evdə tərslik edir, lakin kənar adamlarla mehribandır. Belə halların səbəblərini öyrənmək və onları aradan qaldırmaq lazımdır. Bəzən uşaqda tərslik yox, təkid edir. Tərslikdən fərqli olaraq təkid müəyyən hallarda məqsədin çox dəyərli olması ilə bağlıdır. Ədalətli təkidlilik müsbət xüsusiyyətdir və onu hökmən müdafiə etmək lazımdır.

Təhsilin bütün sahələrində psixologiya elminə əsaslanmaq zəruridir. Məktəbəqədər yaşlı uşaqların intellektual imkanları onun dərketmə bacarığı ilə ölçülür. Uşağın ətraf aləmi qavraması, perspektiv fəaliyyəti – əşyaların rəngini, formasını, ölçüsünü, həcmini, mövcud olduğu məkanda hərəkətinin xarakterini dərk etmək, adlandırmaq, qruplaşdırmaq, təsnif etmək bacarığına istinad edir. Məntiqi təfəkkür qabiliyyəti yüksək olan uşaqlar istər bədii təsviri, istərsə də riyazi qabiliyyətlərə yiyələnə bilərlər. Müxtəlif fəaliyyət prosesində uşaqlarda istər ümumi, istərsə də xüsusi qabiliyyətlər özünü göstərir. Psixoloji hazırlıq fəaliyyətində imkan və qabiliyyətlər uzlaşdırıldıqda lazımi nəticə verir. Psixoloji biliklərə yiyələnmək təcrübi nailiyyətlərin məzmunu ilə əlaqədardır. Məhz psixoloji biliklərə əsasən, potensial imkanlardan istifadə edərək pedaqoqun fəallığını optimallaşdırmaq mümkündür.

Uşaqların mənəvi aləmini, psixoloji xüsusiyyətlərini bilməklə onların psixikasında baş verən dəyişiklikləri hiss etmək mümkündür. Çalışmaq lazımdır ki, təlim məşğələlərində şagirdlərin daha çox duyğu üzvləri iştirak etsin. Bu zaman onların eşitdikləri, gördükləri təfərrüatı ilə yadda qalır.

Çalışmalıyıq ki, ruhun qapısı sayılan diqqətin xüsusiyyətlərinə yaxşı yiyələnək, təlim prosesində onu nəzərə alaq.

**ədəbiyyat**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Kurikulumu. "Azərbaycan müəllimi", 2011, sentyabrın 2-si.
2. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. Bakı, 2010.
3. Kərimov Y. Uşaq məktəbə gedir. Bakı : Nağıl evi, 2002.
4. Kərimov Y. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: "RS Pooqraf" MMC, 2009.
5. Подякова Н.Н., Шохина Ф.А. Умственное воспитание детей в дошкольном возрасте. Москва: Просвещение, 1988.



**Успех обучения зависит от готовности ребенка к школе.**

**резюме**

В статье ведется речь о готовности к школе, о школьной зрелости в детских дошкольных учреждениях. Отмечается, что готовность к школе определяет развития способностей обучения каждого школьника. Подчеркивается важность разработки сбалансированного развития программы.

**The success of the training depends on the child's readiness for school.**

**summary**

The article is talking about school readiness, school maturity of pre-school institutions. It is noted that school readiness skills training determines the development of each student. It emphasized the importance of developing a balanced development of the program.


## ВЫБОР РЕБЕНКА В КРИЗИСНЫЙ ПЕРИОД ТРЕХ ЛЕТ


**П.Арапова,**

кандидат педагогических наук, доцент кафедры теории и истории
педагогики, Институт педагогики и психологии образования,
Московский городской педагогический университет



*Аннотация: статья посвящена актуальной психолого-педагогической проблеме – выбору ребенка в кризисе трех лет. Это период появления позиции «Я сам», первый опыт самостоятельного выбора. Для приобретения ребенком позитивного опыта вы-*

*бора родителям необходимо знать сущностные признаки возрастного кризиса; принимать негативную симптоматику как данность возрастного кризиса; оказывать развивающую помощь.*

**ключевые слова:** возрастной кризис, кризис трех лет, позиция «Я сам», негативная симптоматика кризиса трех лет, выбор, моделирование ситуаций выбора, первый опыт самостоятельного выбора

**açar sözlər:** yaş böhranı, üç yaş böhranı, “Mən özüm” mövqeyi, üç yaş böhranının neqativ simptomları, seçim, seçim situasiyasının modelləşdirilməsi, müstəqil seçimin ilk təcrübəsi

**key words:** age crisis, the crisis of three years, the position of «I myself», the negative symptoms of the crisis three years, selection, modeling situations of choice, the first experience of self-selection

Каждый возрастной кризис детства, включая кризис подросткового и юношеского возраста,– это жизненный этап, необходимый для становления личности, это период эмансипации, освобождения от опеки взрослых. Верно отметил психолог В.К.Вилюнас: « Не сталкиваясь с кризисными явлениями подросткового возраста, взрослые, по-видимому, значительно дольше оставались бы на удобной для себя авторитарной позиции и видели бы на ребенке только послушного преемника»[1]. То же можно сказать о возрастном кризисе трех лет. Позитивный выход из него возможен только тогда, когда взрослые уважают выбор ребенка и его право на собственные желания.

Кризисные периоды опасны деструкцией личностного развития детей: невротическими тенденциями, соматическими нарушениями, дезадаптацией, если взрослые блокируют актуальные потребности. Кризис трех лет – особый возрастной период, который по сложности протекания принято сравнивать с подростковым кризисом (по мощной сопротивляемости ребенка и негативной симптоматике).

Семизвездие симптомов кризиса трех лет:

- негативизм – немотивированное сопротивление даже привлекательной просьбе взрослых, стремление сделать наоборот;
- упрямство – желание во что бы ни стало настоять на своем только потому, что ребенок это попросил, или потребовал;
- строптивость – направлена против прежнего образа жизни, против устоявщихся норм воспитания, она безлична;
- своеволие – выражается в стремлении ребенка делать все самому;
- протест-бунт – выражение протеста вплоть до истерики; ребенок запрещает решать за него;
- обеспечивание требований взрослых;
- деспотизм – ребенок пытается заставить родителей делать то, что он хочет.

Негативные симптомы, как правило, сопровождвются бурными эмоциональными проявлениями со слезами: подчиняется взрослому – и плачет; не подчиняется – и плачет.

Итогом возрастного кризиса являются новообразования– те психические и социальные изменения, которые впервые возникают на данной ступени развития и и определяют внутреннюю и внешнюю жизнь ребенка. В психологической литературе представлены три точки зрения на новообразования кризиса трех лет.

Д. Б. Эльконин выделяет два новообразования – возникновение личного действия и сознания «Я сам». Л.И.Божович центральным новообразованием считает «систему Я», куда входят не только знания ребенка о себе, но и отношение к себе и появление новой потребности «Я сам». Э.Эриксон в качестве новообразования называет «уверенность в себе» и противопоставляет ее «сомнению в себе», «стыду за себя» [3]. Центральное новообразование «Я сам» свидетельствует о том, что кризис трех лет – это первый кризис, когда ребенок противопоставляет свое «Я» окружающему миру и начинает

чувствовать себя отдельной, независимой личностью. Вследствие чего новообразованием кризиса трех лет можно считать личное действие, связанное с первым опытом самостоятельного выбора.

Возрастной кризис трех лет – это этап «предформирования» готовности к осознанному выбору. Выбор – это осознанное принятие решения и ответственность за это решение. Выбор в младшем школьном возрасте – это выбор способа поведения; выбор в подростковом возрасте – это выбор образа «Я» ; выбор в юношеском возрасте– выбор образа достойной жизни.

Выбор в кризисе трех лет – решение противоречия между «хочу» и «могу», первый опыт самостоятельного выбора, когда впервые рождается новообразование – восприятие альтернативы, которое напрямую влияет на выбор в последующие возрастные периоды.

В кризисе трех лет выбор – это эмоциональное принятие решения, когда ребенок приобретает первый опыт выбора между «хочу» и «могу», между «хочу» и «хочу». Выбор между «хочу» и «хочу» более простой, но даже он может вызывать у детей сильные эмоциональные переживания, например, ребенок может расплакаться из-за того, что не знает, чего он хочет больше : поиграть или порисовать.

Чем определяется выбор ребенка в кризисе трех лет? Для формирования его потребности в самостоятельном выборе родителям необходимо знать сущностные признаки возрастного кризиса; принимать негативную симптоматику как данность возрастного кризиса; оказывать развивающую помощь, когда дети учатся сопоставлять свои желания и осуществлять собственный выбор.

С целью выявления представлений у родителей (76 человек из Москвы, Волгограда и Новосибирска) о возрастном кризисе трех лет мамам была предложена анкета (*табл.1*).

На каждый вопрос надо было дать один из вариантов ответа, соответствующих высокому, среднему и низкому (стихийно-эмпирическому) уровню знаний. Ответы оценивались в баллах: 2 балла– высокий уровень, 1 балл– средний уровень, 0 баллов – низкий уровень. Анализ результатов показал, что приблизительно у 10% родителей–высокий уровень знаний, у 50% – средний, у 40%– низкий.

**Во-первых,** зная закономерности кризисного развития, родители способствуют успешному выбору ребенка в кризисе трех лет, если уважают его право на выбор. Адекватное поведение родителей в этот период приводит к развитию способности ребенка к выбору, когда он понимает, что может выбирать сам.

Лишение ребенка право выбора приводит к инфантилизации, когда он ждет, что скажут родители, что они за него решат. Негативный опыт может закрепиться и привести к формированию таких личностных черт, как нерешительность, несамостоятельность, отсутствие инициативы. При выраженной гиперопеке формируется симбиотическая связь родителя, чаше матери, с ребенком, которая выражается в позиции «Мы» в ущерб позиции «Я» ребенка: «Мы сегодня нарисовали красивый тюльпан»; «Мы сегодня хорошо поели» и т.п. Эта позиция может присутствовать и в школьные годы.

**Знания родителей (мам) о возрастном кризисе, %** ***Таблица 1***

| Утверждения | Варианты ответов | | |
|---|---|---|---|
| 1.Возрастной кризисный период развития личности–это…. | закономерное явление развития (14); | явление, которого можно избежать (51); | результат неправильного воспитания (35). |

| | | | |
|---|---|---|---|
| | | | |
| 2. Состояние ребенка в кризисный период характеризуется… | Повышенной ранимостью, тревожностью (29); | конфликтностью (49); | не отличается от стабильного периода развития (22). |
| 3.Негативные симптомы в кризисный период необходимо… | принимать как данность(9); | корректировать (57); | подавлять (34). |
| 4. Я могу помочь ребенку в кризисе. | да (20). | иногда (56). | нет (24). |

Когда родители создают ситуации выбора, ребенок учится совершать реальный выбор, где учитывается его точка зрения. Оценка взрослых является для него важнейшим средством ориентации в социальном окружении, во взаимоотношениях со взрослым. Конечно, во многом выбор ребенка предопределен родителями: их оценочные суждения напрямую влияют на его выбор, так как дети подражают родителям. В то же время в кризисе трех лет дети перестают нуждаться в постоянной опеке со стороны взрослых и стремятся сделать выбор сами. Таким образом, складывается парадоксальная ситуация: родители хотят, чтобы ребенок был самостоятельным и уверенным, и сами же препятствуют этому, ограничивая его в выборе. Например, ребенок делает бумажный самолет, он у него не получается, мама берет из рук ребенка и переделывает самолет, он красиво летит, ребенок разрывает самолет и разражается слезами. Что требовалось от взрослого? Оказать помощь с разрешения ребенка, спросить: «Тебе помочь?» Развивая самостоятельность как качество личности, родитель должен создавать ситуации успеха.

Актуальность в настоящее время приобретает нравственная сторона самостоятельности детей и взрослых. Истинную социальную ценность самостоятельность обретает тогда, когда она сопряжена с активностью и такими нравственными проявлениями, как гуманизм и взаимопомощь. Нравственная направленность личности ребенка в кризисе обусловлена теми ценностными ориентациями и отношениями, которые утвердились в окружающей его среде. Эгоистические устремления значимых взрослых, их авторитарность, нетерпимость и двойная мораль могут привести к усилению негативизма, обеспечиванию требований взрослых или к подчинению, потере независимости, подавлению самостоятельности. Именно в кризисный период ребенок утверждает свое «Я», свою волю, желание осуществить выбор. Родитель, понимая и принимая состояние, может помочь воспитанию самостоятельности как свойства деятельности и как развивающейся черты личности дошкольника.

Выстраивая взаимоотношения с ребенком, родители активно влияют на формирование его готовности к выбору. Если взрослый проявляет уважение к мнению ребенка и обсуждает с ним альтернативы: « Какую кашу ты хочешь больше: овсяную или манную?», «Какую книжку будем читать?», «Куда пойдем гулять», то у ребенка формируется привычка выбирать самостоятельно. Он может отказаться от чтения книги и предложить: «Давай сами сочиним сказку про наш двор, про нашу горку», «Не хочу эти загадки отгадывать, давай сами придумаем» и т.п. Это первые проявления его выбора.

Если родители создают ситуацию мнимого выбора, где мнение ребенка ничего не значит, они демонстрируют манипулятивную технику, которую ребенок способен осознавать уже в 6–7 лет. Иллюзия выбора опасна на любом этапе детства отсутствием опыта реального выбора, что негативно сказывается на личностном развитии ребенка. К сожалению, встречаются рекомендации о созданию иллюзии выбора в общении с ребенком в кризисный период трех лет.

**Во-вторых,** для успешного выбора ребенка в кризисе трех лет необходимо принятие негативной симптоматики как данности возрастного кризиса, а следовательно, принятие неблагоприятного состояния. Л.С.Выготский полагал, что оптимальное протекание возрастного кризиса – бурно, но недолго [2]. Бурная форма проявления негативной симптоматики свидетельствует об активности растущей личности; вялое протекание – о задержке аффективной и волевой сторон личности ребенка.

Анализ взаимодействия родителей с детьми в кризисный период трех лет показывает, что не понимая состояния ребенка, они испытывают затруднения в установлении диалога с ним, не могут разрешить конфликтные ситуации, возникающие в это время. Использование авторитарных стереотипов воздействия в любом возрастном кризисе, а в кризисе трех лет особенно, может способствовать тому, что кризис как нормальное и необходимое явление развития превратится в кризис, требующий срочного корректирующего вмешательства. В отдельных случаях родители могут интуитивно находить адекватные способы взаимодействия с детьми.

Родителям необходимо знать и учитывать особенности неблагоприятного состояния, чтобы принять грамотное решение, способствующее выходу ребенка из неблагоприятного состояния. (рис.)

В типичных конфликтных ситуациях наиболее ярко проявляется эмоционально-оценочное отношение родителей к состоянию ребенка (табл.2).

На групповых занятиях мамам (18 человек) было предложено проиграть приведенные ниже ситуации с обменом ролями.

1.Сын в магазине смотрит на бананы, мать спрашивает: «Хочешь?». Ребенок не задумываясь отвечает: «Нет!». На улице он разражается слезами : «Хочу бананы!».

2. Девочка категорически не хочет надевать в детский сад платье, которое ей предлагает мать. Ложится на пол и топает ногами.

3. Ребенок в ответ на требование отца кричит: «Ты плохой! Я тебя не люблю!»

Предварительно каждый родитель получил памятку, благодаря которой он познакомился со способами регулирования неблагоприятного состояния.

1.Игнорирование – мнимое незамечание, когда родитель намеренно «как будто» не видит проявлений неблагоприятного состояния и негативной симптоматики. Особенно эффективно игнорирование в ситуациях истерики, упрямства, деспотизма, когда ребенка важно лишить зрителя, можно оставить его одного, уйти в другую комнату.

2. Санкционирование – временное разрешение на проявление неблагоприятного состояния, не опасного для жизни ребенка. Например, сопротивления, когда ребенок выдает серию отрицаний : «не хочу», «не буду», «нет», «не скажу» и т.п. Санкционирование в случае «не хочу» может выглядеть следующим образом: «Понехоти немного»; в случае « не скажу»: «Не хочешь говорить – не говори».

3. Переключение на другой вид деятельности – эффективный метод реагирования на негативную симптоматику. Например, когда ребенок проявляет упрямство, можно переключить его на интересную для него деятельность: «Пойдем почитаем»; или «Куда спрятался наш Мурзик? Давай поищем его». Для детей особую привлекательность представляет игровая деятельность, поэтому переключение на игру снимает многие

негативные проявления: «Давай поиграем в прятки»; или в ответ на «не буду» ребенка можно предложить игру: «Ты король по имени Не буду, а я королева по имени Буду-буду». К сожалению, часто родители используют переключение, провоцируя страхи ребенка: «Посмотри, вот дядя идет, будешь шуметь – он тебя заберет.» или «Вон птица летит, она непослушных детей крадет.» и т.п. Однажды в поезде пришлось наблюдать ситуацию, когда мама трехлетнего малыша, активно сопротивляющегося ее просьбе, сказала, что проводница заберет его к себе, в ответ на что проводница улыбнулась ребенку
со словами : «Я добрая тетя и никогда не забираю детей от мам». Надо иметь в виду, что избыточное использование переключения опасно переходом проблемы во внутреннний план, т.е. невротизацией, когда ребенок остается один на один с проблемой.

*Таблица 2*

**Уровни эмоционально-оценочного отношения родителей к ребенку в кризисе трех лет**

| **Уровни** | **Показатели** |
|---|---|
| высокий | эмоциональное приятие ребенка;<br>эмпатия;<br>эмоциональная поддержка |
| средний | недостаточный уровень эмоционального приятия;<br>эмпатия;<br>ситуативная эмоциональная поддержка |
| низкий | эмоциональное отвержение;<br>негативное оценивание;<br>отсутствие эмоциональной поддержки |

4. Концентрация на положительном в ребенке и объекте его неблагоприятного состояния. Например, ребенок запнулся о стол и расплакался. Мама может отреагировать следующим образом: «Давай подую тебе на коленку». На практике очень часто встречаются примеры, когда мама жалеет ребенка и говорит: «Давай накажем стол. Стол плохой, обидел тебя». Таким образом формируется причина вовне ребенка, что закрепляясь, может привести к стратегии обвинения в юношеском возрасте, опасной снижением рефлексивности и отсутствием объективного анализа собственных действий.

5. Подавление (только в случае агрессии ребенка, опасной для его жизни). Те из мам, кто не знал закономерностей кризисного развития ребенка, как правило, выходили на подавление, т.е. проявляли низкий уровень эмоционально-оценочного отношения, оправдывая свои действия тем, что ребенок «делает назло», «стал совсем непослушным» и т.д. Например, ситуация, когда дочь не надевает платье, была решена через вербальное подавление следующим образом: «Сказала тебе надеть – значит, наденешь»; «Хватит вредничать, а то накажу». Две мамы проявили физическую агрессию: «Наподдам, и тут же истерика прекратится».



**Рис. Выход ребенка из**

**Выход ребенка из неблагоприятного состояния**

В то же время необходимо отметить: когда мамы информированы о кризисе трех лет и владеют умением входа на диалог, они проявляют эмпатию к детям, используя переключение и концентрацию на положительном. Некоторые родители читали психологическую литературу, посвященную воспитанию детей, например, книги Ю.Б.Гиппенрейтер, Эды Ле Щан, Р.Кэмпбелла, Х.Дж.Джайнотта и др. часть мам (8 человек) использовала игнорирование, аргументируя его эффективность в ситуациях истерики, выраженного неблагоприятного состояния. Меньше всего мамы прибегали к санкционированию (2 человека).

**В - третьих,** для успешного выбора в кризисе трех лет родителям необходимо оказывать ребенку развивающую помощь:

- помощь с разрешения ребенка: «Тебе помочь?»; «Если нужна помощь, я рядом.»;
- косвенная помощь: «В этой ситуации можно было бы…», «Чего ты хочешь больше?»;
- совет-инструкция: «Продумаем: с чего лучше начать?», «Что тебе для этого необходимо сделать?».

Чтобы ребенок научился самостоятельно выбирать, он должен приобрести положительный опыт сопоставления выбора и принятия решения. Для этого ему нужно больше времени для решения поставленной задачи, а родителю следует предложить помощь. Опережая ребенка, взрослый оказывает медвежью услугу, лишая его желания и возможности сделать самому. Чем больше у ребенка будет опыта самостоятельных поступков и принятия решений в дошкольном и младшем школьном возрасте, тем большего успеха он добьется в юношеском возрасте, совершая осознанный выбор стратегии жизни.

Итак, кризис трех лет – это этап «предформирования» готовности к осознанному выбору, это первый опыт самостоятельного выбора, когда впервые рождается новообразование – восприятие альтернативы, которое напрямую влияет на выборы в последующие возрастные периоды. Если этот опыт позитивный, у малыша развиваются такие качества, как самостоятельность, инициативность, уверенность в себе. Для формирования потребности ребенка в самостоятельном выборе родителям необходимо знать сущностные признаки возрастного кризиса; принимать негативную симптоматику как данность возрастного кризиса; оказывать развивающую помошь, когда дети учатся сопоставлять свои желания и осуществлять собственный выбор.

**литература**

1. Вилюнас В.К. Психологический анализ эмоциональных явлений. Эмоциональная структура личности. «Новые иссследования в психологии», 1974, №1.

2. Выготский Л.С. Проблема возраста .Собрание сочинений . IV том. (Под редакцией Б.Д.Эльконина.) Москва: Педагогика, 1984.
3. Гуськова Т.В. Психологический анализ кризиса трех лет. (Диссертация канд. психол. наук.) Москва, 1988.

**Üç yaş böhranı dövründə uşağın seçimi**
**xülasə**
Məqalə uşaqlarda üç yaş böhranı dövrünün psixoloji və pedaqoji problemlərinə həsr olunub. Bu dövr «Mən özüm» mövqeyinin, müstəqil seçimin ilk təcrübəsinin ortaya çıxması ilə xarakterizə olunur. Uşağın seçmdə müsbət təcrübə əldə etməsi üçün valideynlərin üç yaş böhranı dövrünün əsas xüsusiyyətlərini, neqativ simptomların yaş böhranının əlamətləri olduğunu bilmələri və inkişafetdirici kömək göstərmələri lazımdır.

**Choosing a child during the crisis three years**
**summary**
Artikle is devoted to the psychological and pedagogical problem-childs choise in crisis three years. This position durinq the emergence of " I myself", the first experience of self-selection. To purchase a positive experience in a child choice parents need to know the essential features of the age of the crisis; neqative symptomps take as a given age crisis; provide developmental assistance.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏBİƏTLƏ TANIŞLIĞININ TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

**Almas Adışirinova,**
AMİ-nin Şəki filialının kabinet müdiri, baş müəllim

**açar sözlər:** canlı təbiət, ekoloji tərbiyə, müşahidə, müqayisə, şəkil üzrə iş, tərbiyəçinin sözü
**ключевые слова:** живая природа, экологическое воспитание, наблюдение, сравнение, работа по картинкам, слово воспитателя
**key words:** animate nature, environmental education, observation, comparison, work on pictures, word of educator

Qlobal ekoloji problemlərin yaşandığı müasir dövrdə uşaqların torpağa bağlı, təbiətsevər insan kimi tərbiyə olunmaları obyektiv zərurətdir. Bu gün insanların təbiətin obyektiv qanunauyğunluqlarını dərk etmələrinə, təbiəti mühafizə sahəsində fəal həyat mövqeyinə istiqamətlənən ekoloji təhsilə ehtiyac özünü kəskin şəkildə göstərir. Məktəbəqədər təhsilin humanist xarakteri uşaqların yaş səviyyələrinə uyğun ekoloji istqamətdə tərbiyə olunmasına şərait yaradır. Əsrlər boyu bəşər övladının taleyi, yaşayış tərzi, rifah halı onlara ilahinin bəxş etdiyi təbii sərvətlərlə bağlı olub. Təbiət həmişə, hər yerdə bizi əhatə edən, daimi yaşadığımız və fəaliyyət göstərdiyimiz mühit, insan əli ilə yaradılmayan varlıqdır. Təbiətdə hər bir əşya və hadisənin öz yeri, öz əhəmiyyəti vardır. Təkzibolunmaz qənaətdir ki, ekoloji mühit nə qədər təmiz və zəngin olarsa, insanlar o qədər sağlam və firavan yaşayarlar.

Uşaqların təbiətlə tanışlığı körpə yaşlarından əhatəsində yaşadıqları ətraf aləmdən başlayır. Dünyaya göz açan körpə ilk növbədə ona yaxın təbiəti görür, rəng, forma, səslərlə dolu təbii mühitin zənginliklərinin şahidi olur, canlı və gözəl nə varsa duyur, eyni zamanda özünü insan–təbiət münasibətlərinin daşıyıcısı kimi təsdiq edir. O, aldığı məlumatlar nəticəsində təbiəti hiss etməyə alışır, müəyyən biliklər əldə edir. Bu biliklər tədris prosesində sistemləşdirilir. Uşaqların gündəlik həyatda təbiətlə əlaqədar qazandıqları təsadüfi biliklər, səthi təsəvvürlər əvvəlcə məktəbəqədər təhsil müəssisələrində nizama salınır. Əsas vəzifə uşaqların dünyagörüşünü yeni, sistemli biliklər hesabına genişləndirmək, zənginləşdirmək, insanların həyatının maddi nemətlərlə, təbii sərvətlərlə bağlılığını, təbiətin əvəzedilməzliyini onlara başa salmaqdır.

Təbiətlə tanışlıq uşaqları tədricən yaşadıqları mühitə daxil edir. Nitq və təfəkkürün inkişafının, dünyagörüşünün formalaşmasının, milli-mənəvi tərbiyənin əsas amili kimi gerçəkliyin qavranılmasına geniş imkanlar yaranır, onları fəallaşdırır. Məktəbə gedənə qədər uşaqlar ətraf aləmin reallıqları ilə əlaqədar sadə elmi biliklərə yiyələnir, canlı və cansız təbiətin qanunauyğunluqlarından xəbərdar olur, fakt və hadisələr arasında əlaqə qurmağı, asılılıqları izah etməyi öyrənirlər. Nəticədə ilkin təsəvvürlər, təfəkkür elementləri, təbiətə maraq, məhəbbət, qayğıkeş münasibət formalaşır. Sadə təbiət hadisələri və təbii qanunauyğunluqlar arasında qarşılıqı əlaqələri müəyyənləşdirmək və qazanılmış bilikləri praktik fəaliyyətdə müstəqil tətbiq etmək bacarığı yaranır. Mahiyyətinə və dəyərinə görə təbiətlə əlaqədar biliklər xarakter etibarilə bir-biri ilə məntiqi şəkildə bağlı olmaqla, hər bir uşağın şüurunda canlı və cansız varlıqlara özünəməxsus münasibət yaradır. K.D.Uşinski yazırdı: "Təbiət insanların tərbiyəsində iştirak edən nəhəng amillərdən biridir".

Təbiətlə tanışlığın məqsəd və vəzifələrinə aşağıdakı məsələlər daxildir:

- uşaqların canlı və cansız təbiət haqqında təsəvvür və biliklərini genişləndirmək, əsas anlayış və dəyərləri onlara başa salmaq;

- təbiətdəki əşya və hadisələr üzərində müşahidə aparmaq, qazanılmış biliklərdən istifadə etmək qaydalarını öyrətmək, şəxsi təcrübələrini zənginləşdirmək;
- canlı və cansız təbiətin qarşılıqlı əlaqə və asılılıqlarını aydınlaşdırmaq, reallıqları dərk etmələrinə kömək göstərmək;
- təbiətin cəmiyyətlə qarşılıqlı əlaqəsini, insanların həyatında təbiətin əvəzsiz rolunu başa düşəcəkləri şəkildə aydınlaşdırmaq.

Məktəbəqədər təhsil proqramının tələblərinə müvafiq olaraq təbiətlə tanışlıq müxtəlif istiqamətləri əhatə edir:

- insanların həyatında təbiətin rolu;
- canlı və cansız təbiətin fərqi, qarşılıqlı əlaqəsi;
- canlı orqanizmlərin quruluşu, funksiyaları, həyat tərzi;
- canlı aləmin inkişafı;
- canlı orqanizmlərin xarici mühitə uyğunlaşmaq qabiliyyəti.
- cansız təbiətdə baş verənlər;
- təbiəti mühafizə.

Proqrama daxil edilən məsələlərlə yanaşı, uşaqların gündəlik rastlaşdıqları hər hansı obyekt və ya hadisə təbiətlə tanışlıq üçün mövzu ola bilər. Əqli fəallığın – müstəqillik, tədqiqatçılıq, təhliletmə və s. bacarıqların inkişafında aydın, konkret məqsəd, müvafiq məzmun əsas şərtdir. Təlim materialının mövsümə uyğunluğu eyni obyekt və hadisənin ilin müxtəlif fəsillərində müşahidəsini, qavranılmasını, mənimsənilməsini təmin edir. İl ərzində mövzu və məzmunun yaş qrupları üzrə mürəkkəbləşdirilməsi, problemə fərqli aspektlərdən yanaşılması məqsədəuyğundur. İlk növbədə təlim materialı öyrənənlərə elmi dünyagörüşünün formalaşdırılması baxımından təlim məqsədlərinə, onların gücü çatan çətinlik dərəcəsinə uyğun seçilməli, fərdi fərqlər nəzərə alınmalı, biliklərin genişlənməsinə və dərinləşməsinə, praktik bacarıqların formalaşmasına kömək edən məsələlər diqqət mərkəzində saxlanmalıdır.

Həyatın ən maraqlı varlıqları arasında öz müxtəlifliyi ilə uşaqları cəlb edən heyvanlar aləmi xüsusi yer tutur. Erkən yaş dövründən etibarən uşaqlarda canlı aləmin ən parlaq, cəlbedici növlərindən gözə çarpmayan, kiçik növlərinə qədər maraq, məhəbbət, düzgün münasibət tərbiyə olunmalıdır. Məktəbəqədər yaş dövründə təbiətlə tanışlığın əsas məqsədi uşaqlarda heyvanlar aləmi ilə əlaqədar bilik və bacarıqların formalaşmasına istiqamətləndirməkdir:

• heyvanlar aləminin müxtəlif nümayəndələrinə maraq, onların həyat tərzi haqqında daha çox bilmək arzusu;

• heyvanlarla rəftar qaydalarına əməl olunması;

• heyvanlara qulluq etmək arzusu və bacarığı;

• heyvanların mühafizəsinin vacibliyini dərk etmək və onlara qayğı.

Canlı təbiət həmişə uşaqlarda güclü maraq oyadır, ona sevgi, qayğıkeşlik tərbiyə edir, onlara əlamət və xassələri ayırd etmək, hadisələrin başvermə səbəblərini aydınlaşdırmaq qabiliyyəti aşılayır. Uşaqların fauna, əsasən vəhşi heyvanlar haqqında məlumatları araşdırmaları göstərir ki, onların təsəvvürləri həmişə aydın, konkret olmur, ümumi, natamam, qeyri-müəyyən xarakter daşıyır. Belə yanaşmada təlimin əsas vəzifəsi ilkin təsəvvürləri dəqiqləşdirmək və təkmilləşdirməkdir.

Təlim məqsədlərinin nəticəyə çevrilməsi, səmərəliliyin təmin edilməsi, prosesin maraqlılığı uşaqların heyvanlarla birbaşa təmasda olmaları və resursların seçilməsi ilə bağlıdır. Əks təqdirdə uşaqların fəallığına və təlim materialını tam mənimsəmələrinə nail olmaq mümkün deyil. Uşaqların müstəqil yaradıcı fəaliyyətinə imkan verən, onları təlim və inkişafa stimullaşdıran fəaliyyət növlərinə xüsusi yer verilməlidir, çünki müstəqil olmayan uşaq yeniliyi görə bilmir, hər şeyi əvvəlki təəssüratlarının təsiri ilə izah edir. Təlim uşaqlar üçün maraqlı olduqda və problemin həllinə istiqamətləndirildikdə onlar daha da fəallaşırlar. Buna görə də üçün uşaqlara öz qabiliyyətlərini nümayış etdirmək imkanının verilməsi vacibdir.

**Müşahidə** təbiətlə bağlı real, həyati biliklərin və təcrübənin əldə edilməsinin başlıca yolu, obyekt və hadisələri məqsədəuyğun, planlı və sistemli qavrama prosesidir. Hər hansı mövzunun təbii şəraitdə öyrədilməsi məqsədilə təşkil olunan müşahidələr mənimsəmə səviyyəsini yüksəldir, biliklərin tez və asan qavranılmasına, uzun müddət yadda qalmasına kömək edir. Qısamüddətli müşahidələr bir qrupdan olan obyektlərin oxşar və fərqli əlamətlərini, uzunmüddətli müşahidələr isə dəyişiklikləri, onların yaranma səbəblərini öyrənməyə, obyektiv gerçəkliyin uşaqlar tərəfindən bilavasitə qavranılmasına yönəldilir. Uşaqların diqqəti əvvəl ən yaxın və asan görünən, sonra isə daha çətin və mürəkkəb əlamətlərə istiqamətləndirilir. Bəzən müşahidələr əşyanın xarici görünüşünə əsasən, seyrçi planda aparılır. Etik və intellektual cəhətlər isə kölgədə qalır. Məntiqi və tənqidi təfəkkürün əsas mənbəyi olan müşahidələrin məqsədi uşaqlara nəyi isə göstərmək deyil, onları dərk etməyə, fərqləndirməyə, nəticə çıxarmağa istiqamətləndirməkdir. Təlimin məzmunu uşaqların öyrəndikləri biliklərin həyatla necə əlaqəli olmasını dərk etmələrinə istiqamətləndirilməli, şəxsi təcrübədən istifadəyə real imkan yaradılmalıdır. Uşaqların diqqəti baş verən yeni hadisələrə, dəyişikliklərə yönəldilməli, canlıların əvvəlki və indiki vəziyyəti müqayisə olunmalı, onlar müxtəlif vaxtlarda fərqli və oxşar cəhətlərinə görə xarakterizə edilməlidir. Hissi idrak obyektin zahiri mənzərəsini əks etdirməyə, məntiqi idrak isə canlı aləmin təbii qanunauyğunluqlarının kəşfinə, ümumi və mühüm əlamətlərin, onlar arasındakı əlaqə və asılılıqların dərk olunmasına yönəldilməlidir.

Müşahidələr məqsədə uyğun olaraq uşaqlara təbiəti müxtəlif şəraitdə və fərqli vəziyyətlərdə tədqiq etmək qabiliyyəti aşılayır. Öyrəniləcək obyektin ilin ayrı-ayrı fəsillərində bir neçə dəfə müşahidəsi, inkişaf və böyümə prosesini izləmək, tam, bitkin biliklər əldə etmək imkanı yaradır. Bununla belə, təkrar müşahidələrdə davamlı marağı təmin etmək üçün məzmuna yeni elementlərin daxil edilməsi zəruridir. Gündəlik həyatda baş verən dəyişmələr, maraqlı hadisələr uşaqların diqqətini özünə çəkir, onları düşündürür. Canlı görüntülər heyvanların inkişafındakı dinamikanı, onların davranışındakı gözlənilən və ya təsadüfi anları izləməyi təmin edir. Uşaqlar öz münasibətlərini gülüşlə, qışqırıqla, onların səs və hərəkətlərini təqlid etməklə bildirirlər. Müşahidə üçün elə vaxt və yer seçilməlidir ki, uşaqlar daha mühüm cəhətləri görə bilsinlər.

Pedaqoji prosesin səmərəli təşkilində davamlı dərketmə marağını dərinləşdirən müqayisələrin rolu danılmazdır. **Müqayisə** idrak forması olub, canlılara məxsus xüsusiyyətləri qarşılaşdır-

maqla onların fərqlərini və oxşarlıqlarını müəyyən edir, aydınlaşdırır, ilkin təsəvvürlərlə yeni faktlar əsasında əlaqə yaradır. Heyvanlar aləmindəki ümumi və fərdi, oxşar və fərqli cəhətlər onların səciyyəvi xüsusiyyətlərini dəqiq müəyyənləşdirməyə, xarici görünüşlərini, həyat tərzini, səs və hərəkətlərini, mühitə uyğunlaşmaq qabiliyyəti haqqında biliklər əldə etməyə imkan yaradır. Uşaqlar parlaq zahiri əlamətlərinə, yaxud ziddiyyətli cəhətlərinə görə onları təsnif edir, məlumatları dəqiqləşdirir, təkcə kəskin fərqləri deyil, həm də zəruri əlamətləri, ümumi oxşarlıqları tapıb qruplaşdırırlar. Adətən, uşaqlar fərqli cəhətləri asan tapır, ümumi əlamətləri isə ayırd etməkdə çətinlik çəkirlər. Bu səbəbdən də tədqiqat üçün bir-birindən kəskin fərqlənən canlıların seçilməsi daha məqsədəuyğundur.

Birbaşa, təbii şəraitdə müşahidəsi mümkün olmayan canlılarla, xüsusən, vəhşi heyvanlarla tanışlıqda dolayı yol və vasitələrdən istifadəyə ehtiyac hiss olunur. Heyvanları təbii şəraitdə təsvir edən şəkillər, internet materialları effektli vasitə kimi öyrənənlərə daha dəqiq məlumat almağa şərait yaradır. Məqsəd və məzmunu dəyişməklə, eyni təsvirdən bir neçə dəfə, müxtəlif məqsədlərlə istifadə etmək olar. Ən yaxşı hal odur ki, uşaqlara seçim imkanı vermək üçün bir yox, bir neçə şəkil və ya slayd təklif olunsun. Bu, çətinlik çəkən uşaqlara asan danışa bilmək, fəal uşaqlara isə özləri üçün daha maraqlı olanını seçmək imkanı verir. Tanışlığın müvəffəqiyyəti ilk növbədə təsvirlərin düzgün seçilməsindən asılıdır. Təsvirlər iri ölçülü, aydın məzmunlu olmalı, yalnız mövzu ilə əlaqədar detallar, sadə, maraqlı hadisələr təsvir edilməlidir. Əks halda, obyekt və hadisələrin çoxluğu, anlaşılmazlığı uşaqlarda çaşqınlıq yaradır, öyrənməyə marağı azaldır, mənimsəmənin səviyyəsini aşağı salır. Tərbiyəçi dəqiq müəyyənləşdirməlidir ki, uşaq üçün yeni olan nədir və həmin şeyi öyrənmək üçün ilkin məlumatlardan hansı formada istifadə edilməlidir.

Uşaqların heyvanlar aləminə dərin marağını göstərən amillərdən biri də öz təəssüratlarını təsvir etmək arzusudur. Xüsusən, ekskursiya və məqsədli gəzintilərdən sonra onlar müşahidələrin nəticələrini müstəqil təsviri fəaliyyətlərində əks etdirməyə cəhd göstərir, böyük məmnuniyyətlə təbiət qoynunda naturadan rəsm çəkməyi xoşlayırlar. Uşaqların təbiətə aid əl işlərindən ibarət tematik sərgilərin təşkili onlara böyük sevinc bəxş edir. Bu şəkillər uşaqların maraq dairəsini, idrak səviyyəsini, canlılar haqqında biliklərinin tamamlanmasından ötrü nəyə ehtiyac olduğunu aşkar etməyə imkan yaradır.

Təlimi intensivləşdirmək məqsədilə istifadə olunan, uşaq fəaliyyətini gücləndirən, az vaxtda daha çox və dəyərli məlumatlar qazanmağa imkan verən yeni metod və təlim texnologiyalarından səmərəli istifadə tərbiyəçini işin ağırlığından bir növ xilas edir, yaradıcılığa daha çox vaxt ayırmağa şərait yaradır. Məlumat mənbəyi kimi inkişafetdirici imkanları genişləndirir, ən mürəkkəb təlim materialı asan mənimsənilir,vaxta qənaət edilir, uşaqlar axtarış fəaliyyətinə cəlb olunurlar. Əyanillik, təbii rənglər, qeyri-adi görüntülər informasiyanı uşaqlara səmərəli yolla çatdırılmasını, canlıları yaşadıqları təbii şəraitdə müşahidə etməyi və öyrənməyi, biliklərin dəqiqliyini və zənginliyini təmin edir.

Təbiətə məhəbbət və mühafizə məsələləri ilə bağlı məşğələlər, adətən, insanların təbiətə sevgisindən bəhs edən söhbətlərdən başlayır. Tərbiyəçi nadir növlərə aid şəkilləri təqdim etməklə heyvanların sayının azalmasını uşaqların diqqətinə çatdırır, onların nəslinin kəsilməsinin qarşısını almaq üçün mühafizəsinin vacibliyini vurğulayır. İnsanların təbiətə münasibəti və təsiri, təbiətin mühafizəsi istiqamətində əməyi, ekoloji tarazlığın qorunması, canlı varlıqların həyatının onlara qulluqdan asılılığı, təbii amillərin insan həyatında əvəzedilməz rolu haqqında məlumat verir. Əgər təbiətə maraq tərbiyəsi mənəvi və estetik tərbiyə vəzifələri ilə birgə həyata keçirilərsə, o halda uşaqların təbiətlə hər görüşü təlim rolu oynayır. Təbiətlə bağlı biliklərin fəal dərk olunması, uşaqlar tərəfindən tam mənimsənilməsi tərbiyəçinin peşəkarlığından çox asılıdır.

Təbiətə düzgün münasibətin formalaşmasında tərbiyəçinin təkcə bilik və təcrübəsi deyil, həm də humanist münasibəti çox əhəmiyyətlidir. Təbiəti sevən, canlı və cansız aləmə bələd

olan, gözəllikləri qiymətləndirməyi, baş verən inkişafı görməyi bacaran tərbiyəçi uşaqların canlı aləmlə tanışlığını maraqlı qura bilir, çünki canlı təbiət, xüsusən vəhşi heyvanlar haqqında biliklərin çoxunu uşaqlar tərbiyəçinin vasitəsi ilə əldə edirlər. Uşaqlar təbiətin qoynunda olanda belə təbiət hadisələrini tam düzgün qavraya bilmir, daim tərbiyəçinin izahına ehtiyac duyurlar. Bu baxımdan tanışlığı müşayiət edən tərbiyəçi sözünün əhəmiyyəti böyükdür. Canlı müşahidələr uşaqlara qismən məlumat versə də, tərbiyəçinin izahı olmadan əsas mahiyyət qaranlıq qalır, şagirdlər təbiət hadisələrini, canlı və cansız aləmin qarşılıqlı əlaqəsini başa düşməkdə çətinlik çəkirlər. Aydın, obrazlı, emosional təsvir, ümumiləşmələr, düşündürən suallar mövzunun mümkün qədər açıqlanmasında, təsəvvürlərin konkretləşməsində həlledici rola malikdir.

Tərbiyəçi məlum faktlarda yenini görmək, naməlum cəhətlərə diqqət yetirməklə uşaqları sadə axtarışlara yönəltməlidir. Bu yaş dövrü üçün xarakterik olan cəhət odur ki, uşaqlar ətrafda gördükləri hər şey haqqında, hətta onlara məlum olanlar barədə də suallar verir, biliklərini təsdiq etmək istəyirlər. Təsəvvürlər zənginləşdikcə suallar daha çox dərkedici xarakter daşıyır. Tərbiyəçinin peşəkarlığı özünü uşaqların diqqətini əsas məqsədə cəlb etmək, bu sualları lazımi istiqamətə yönəltmək bacarığında, hansı faktları bir daha aydınlaşdırmaq lazım gəldiyini müəyyən etməkdə göstərir. Suallar düşünülmüş olmalı, yeni anlayışların mənimsənilməsinə istiqamətləndirilməlidir. Əks təqdirdə uşaqların yanlış cavab vermələri ilə nəticələnə bilir.

Diqqət yetiriləcək məsələlərdən biri də canlılara düzgün və xeyirxah münasibətin tərbiyə edilməsidir. Heyvanlarla rəftar uşaqlar üçün fəal münasibət sahəsi olub, onlardan iradə, inadkarlıq, qorxuya qalib gəlmək tələb edir. Tərbiyəçi uşaqların heyvanlara qarşı mənfi münasibətinin hər cür təzahürünə diqqət yetirməli, səbəbini araşdırmalıdır. Bu, əksər hallarda uşaqların məlumatsızlığından, yaxud böyüklərin yanlış münasibətindən irəli gəlir. İlk növbədə uşaqlarda real anlayışlar formalaşdırılmalıdır: heyvanlar da insanlar kimi canlıdır, övlad dünyaya gətirir, hiss edir, sevinir, əzab çəkir, xəstələnir. Onların insanların qayğısına ehtiyacı var. Uşaqların qəlbində yaranan sevgi və mərhəmət hissi onları heç vaxt tərk etmir, getdikcə daha da dərinləşir, sonralar isə xeyirxahlıq hissinə çevrilir. Məqsəd bu hissləri qorumaq, canlı təbiətin insanların həyatında rolunu, ondan istifadə imkanlarını başa düşməkdə uşaqlara yardımçı olmaq, onlarda təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişlər formalaşdırmaq, yaşa uyğun ekoloji fəaliyyəti təmin etməkdir. Bu məqsədlə böyük qrupda bir məşğələ nümunəsi ilə tanış olaq:

**mövzu:** Azərbaycanın heyvanlar aləmi

**məqsəd:** • heyvanlar aləmi haqqında bilikləri ümumiləşdirmək, onları bilavasitə, şəkildən tanıyıb adlandırmaq, xarakterik əlamətlərinə görə müqayisə etmək və qruplaşdırmaq bacarıqlarını təkmilləşdirmək.

• insan həyatının təbiətdən asılılığını, ətraf mühitin qorunması və təbiətin mühafizəsinə dair məsələləri diqqətə çatdırmaq.

**metodlar və priyomlar:** əqli hücum, şəkil üzrə iş, oyun, klaster.

**resurslar:** slaydlar, şəkillər, oyuncaqlar, xəritə, həndəsi fiqurlar.

**məşğələnin gedişi:**

**motivasiya: "Kim nə bilir?"** didaktik oyunu. Uşaqlara oyuncaq heyvanlar təqdim olunur. Hərə öz sevinli oyuncağını götürür. Tərbiyəçi sualla müraciət edir:

– Ən çox sevdiyin heyvan hansıdır? Onun haqqında bizə nə danışa bilərsən?

Uşaqlar seçdikləri oyuncaq heyvan haqqında bildiklərini danışırlar.

–Uşaqlar, heyvanların hansı növlərini tanıyırsınız?

–Heyvanları nə üçün qorumalıyıq?

–Bəs onları necə qorumaq olar?

Uşaqlara heyvanlar aləmi haqqında məlumat verilir.

**Xəritə üzrə frontal işin təşkili**. Tərbiyəçi yazı taxtasından fiziki və zooloji xəritə asır.

–Yazı taxtasında gördükləriniz nədir?

– Bu xəritələrin fərqi nədədir?

–Xəritədə təsvir olunan heyvanlardan hansılarını tanıyırsınız, haqqında nə deyə bilərsiniz?

–İndi gəlin ayrı-ayrı yerlərdə yaşayan heyvan növlərinə diqqət edək, görək onların arasında hansı fərqlər var?

–Yadınızdadırsa, öyrənmişdik ki, bəzi heyvanlar istini, bəziləri isə soyuğu sevirlər. Buna görə də hər yerdə oranın iqliminə uyğun heyvanlar yaşayır. Deməli, heyvanlar təkcə xarici görünüşlərinə görə deyil, həm də yaşadıqları mühitə, həyat tərzinə görə fərqlənirlər. Baxın, xəritədən görmək olur ki, vətənimiz Azərbaycanın necə zəngin heyvanlar aləmi vardır.

**işçi qruplarında tədqiqat .** – Uşaqlar, qarşınızda heyvanlar və onların balalarının şəkilləri var. Birinci qrup ev heyvanlarının, ikinci qrup isə vəhşi heyvanların şəkillərini öz balaları ilə birlikdə qruplaşdırsın.

**qrupların işinin təqdimatı.** –İndi ekrana diqqətlə baxın və suallarıma düz cavab verməyə çalışın:

- Bu heyvanlardan hansı Azərbaycanda olmur? (*çaqqal, ayı, zürafə*).
- Ən kiçik heyvan hansıdır? (*tülkü, dələ, canavar*) .
- Bunlardan hansı yırtıcı heyvan deyil? (*şir, maral, pələng*).
- Vəhşi heyvanlar harada yaşayır? (*bağ, meşə, tarla*).

– Afərin, uşaqlar! Cavablarınızdan görürəm ki, heyvanlar aləmi haqqında çox şey bilirsiniz.

**müstəqil iş**. Uşaqlara paylama materialları verilir.

– Uşaqlar, qarşınızdakı qutularda həndəsi fiqurlar var, onlardan istədiyiniz heyvanın təsvirini yaradın.

Tapşırığın icrası yoxlanılır.

**qrupla frontal iş. –** Gəlin heyvanlar haqqında bildiklərimizi yada salaq, cavablarımızı dairənin kənarlarında şəkillərlə göstərək (həyat tərzinə və qidalanmasına görə növləri, qulluq qaydaları, faydası, mühafizəsi).

**nəticə və ümumiləşdirmə.** Uşaqlara aşağıdakı suallarla müraciət edirəm:

–Bu gün yeni nə öyrəndiniz?

–Kimin cavabları daha maraqlı idi?

–Daha nələri öyrənmək istərdiniz?

Uşaqların cavablarını ümumiləşdirərək aşağıdakı nəticələrə gəlirik :

- Heyvanlar canlı təbiətin ən maraqlı nümayəndələri və yer üzünün bəzəyidir.
- Heyvanlar insanların yaxın dostlarıdır.
- Heyvanları qorumaq, onlara qulluq etmək hamının borcudur.

Qiymətləndirmə meyarlar cədbəlinə uyğun aparılır.

**ədəbiyyat**


1.Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Kurikulumu. “Azərbaycan müəllimi”qəzeti, 2011, sentyabrın 2-si.

1. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. Bakı, 2010.
2. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 2007.
3. Жолотова Е.И. Знакомство дошкольников с миром животных. Москва: Просвещение, 1982.
4. Подякова Н.Н., Шохина Ф.А. Умственное воспитание детей в дошкольном возрасте. Москва: Просвещение, 1988.
5. Мазурина А.Ф. Наблюдение и труд в природе. Москва, Просвещение, 1976.


**Из опыта организации знакомства детей дошкольного возраста с природой**

**резюме**


В статье рассказывается о том, что дети приходят в детский сад с приобретенными в повседневной жизни случайными, хаотичными представлениями о природе. Целью обучения является расширение этого кругозора

за счет новых, системных, конкретных знаний, помощь в осознании роли живых существ в жизни человека, формирование необходимых способностей по охране природы.

**From the experience of organization of preschool children acquaintance with nature**
**summary**

Children come to kindergarten with acquired in everyday life random, chaotic ideas about nature. The purpose of training is expanding horizons with new, system, specific knowledge, helping in recognizing the role of creatures in human life, forming the necessary abilities for the protection of nature.

# ***FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ***

## РИЙАЗИ ЧАЛЫШМАЛАРЫН АНАЛИЗ-СИНТЕЗ МЕТОДU ВЯ ИКТ ВАСИТЯСИЛЯ ЩЯЛЛИНЯ ДАИР

**Тофиг Мяммядов,**
Нахчыван Мцяллимляр Институтунун досенти



**ачар сюзляр:** мцасир тялим технолоэийалары, ибтидаи синифляр, мясяля щялли, анализ-синтез методу, компцтерlə тялим просеси

**ключевые слова:** современные технологии обучения, начальная школа, решение задачи, метод анализа-синтеза, компьютер в процессе обучения

**key words:** modern technology education, primary school, solution of the problem, the method of analysis, synthesis, the computer in the learning process

Цмуми тялим нязярийуясиндя вя рийазиййатын тядриси prosesində тялим методлары ясас йер тутур. Мцасир орта вя али мяктяблярин чохсящятли тялим-тярбийя мясялялярини щялл етмяк цчцн тялим методлары системинин щазырланмасына вя ондан истифадя едилмясиня системли йанашмаг лазымдыр. *Методики системин компонентлярини* тялимин мязмуну, мягсядляри, васитяляри, методлары вя тяшкили формалары яща-тя едир.

Рийазиййат тялиминин сямярялилийинин артырılмасında тялим васитяляринин və методларынын дцзэцн сечилмяси мцщцм ящямиййят kəsb edir. Рийази анлайышларын формалашдырылмасы вя рийази мясялялярин щяллі prosesində мцхтялиф тялим методларындан истифадя олунур. Тялим методларынın seçilməsi *няйи?, nə üçün?, неся юйрятмяли?* суалlaрына саваб вермялидир. Бунун цчцн:

- Bu və ya digər mövzuya aid olan hansı mətnin üzərində işin aparılacağı müəyyən edilməlidir.
- Айдын олмалыдыр ки, həmin мювзу ня цчцн юйрядилир вя bu prosesdə шаэирдляр щансы билик, басарыг вя вярдишлярə yiyələnəcəklər ?
- Мцяллим юйрядилян материалын гурuлушу, мязмуну вя дярсликдя шярщини йахшы билмялидир.

•Мцяллим тялим subyektinin, йяни юйрянянлярин тяфяккцр фяалиййяти сявиййясини билмяли, onların hazırlıqları иля таныш олмалыдыр.

Тялим методлары шаэирдлярин билик, басарыг вя вярдишляря, идракının inkişafına, щямчинin шяхсиййятин формалашмасы yollarıdır. Щяр бир тялим методу мцяллимин юйрятмя фяалиййятini; юйрянянин тядрис фяалиййятini; мцяллим вя юйрянянин фяалиййятляри арасындакы inteqrasiya prosesini əhatə etməlidir.

Рийазиййатın тядриси методикасынын *предмети* – рийазиййат тялиминдя дидактиканын *цмуми вя хцсуси методларынын* конкрет реаллашдырылмасы имканларыны тятбиг етмякдян ибарятдир. Демяли, тялим методлары юйрятмяуə xidmət едир.

Рийазиййат тялиминдя тятбиг олунан методларын тяснифи щямишя методистлярин диггят мяркязиндя олмушдур.

Тялим методларынын цмуми консепсийасыны normal щяйата кечирмяк цчцн мцяллим вя шаэирдин фяалиййятляри арасындакы фяргляри нязяря алмаг лазымдыр.

• Мцяллимин tядрисетмя методларınа информасийа, юйрянянин йарадысы фяалиййятини идаряетмя методлары дахилдир.

• Рийазиййат тялиминдя истифадя олунан ясас методлары (индуксийа-дедуксийа, мцгайися-аналоэийа, анализ-синтез, евристик, моделляр цзря тялим, интерактив метод, проблемли, програмлашdırılмыш, мцяллимин шярщи вя с.) билмяк лазымдыр.

Тядрис методларына юйрядиси сющбят, öyrənənlərin мцстягил ишинин идаря едилмяси, тядрис-методик ядябиййатдан истифадяуə рящбярлик вя с. дахилдир.

Щазырда рийазиййат тялими методларынын инкишафетдириси функсийасына хцсуси диггят верилир вя онун истигамяти ашаьыдакы кими мцяййян олунур;

- шаэирдин йарадысы фяалиййятинин формалашдырылмасы;
- изащедиси методларын ролунун мцяйуян гядяр азалдылмасы;
- тялимin вcredit вя формаларынын мцасирляшдирилмяси, тялим методларынын тякмилляшдирилмяси;
- шаэирдлярин йаш хцсусиййятляринин нязяря алынмасы;
- рийазиййатдан йени идейа вя анлайышларын верилмяси иля ялагядар мцвафиг методларын сечилмяси;
- тялим методларынын тярбийяедиси характеринин nəzərə alınması.

Рийазиййатын тядриси методлары кими рийазиййаты юйрянмянин елми методлары да тялим просесиндя мцвяффягиййятля щялл олунур. Бу методлар ичярисиндя *анализ* вя *синтез* методлары хцсуси ящямиййятя маликдир. Rийази чалышмалаrын щяллиндя анализ вя синтез методлары мцщцм мцщакимя ямялиййатлары щесаб олунduğundan onlardan geniş istifadə edilir.

*Анализ* – верилян обйектин хасся вя яламятляриня эюря елементляря айрылмасыдыр.

*Синтез* – обйектин мцхтялиф елементляринин там щалында бирляшдирилмясидир.

Рийазийуатда *анализ* дедикдя мячщулдан мялума, исбат едилясяк тяклифдян исбат олунмуш nəticəуə доьру мцщакимя просесинин апарылмасы nəzərdə tutulur. Рийазиййат тялиминдя анализ щяр щансы чалышманын щяллини ахтармаг вя йа щяр щансы тяклифи исбат етмяк васитяси кими баша дцшцлцр. *Sинтез* дедикдя isə мялумдан мясщула, веriлянлярдян истифадя едяряк, мясялянин щяллинə вя йа мялум тяклифя истинадən, башга бир тяклифин исбатı баша дцшцлцр.

Анализ вя синтез metodları бир-бири иля сых ялагядар олуб, бирi-digərini тамамлайыр. Рийазиййат тялиминдя щяр щансы мцряккяб мясяля анализ васитясиля садя мясяляляря айрылыр. Sинтез васитясиля онларын щялли бирляшдириляряк, верилян мясялянин бцтюв щялли алыныр.

Анализ вя синтез  елми-тядгигат методлары, тядрис материалыны юйрянмя методлары vә хцсуси тяфяккцр формаларыдыр.

Рийазиуйат тялими просесиндя анализ вя синтез мцхтялиф формаларда тятбиг олунур;

- мясяля щялли меоду кими;
- тяклиф vә теоремлярин исбатı методу кими;
- рийази анлайышларын хассяляринин юйрянилмяси методу кими.

Рийази чалышмаларын щяллиндя анализ-синтез методlarından вя ИКТ-дян истифадяйя даир бязи нцмуняляр эюстяряк. Бу нцмуняляр мцяллим тяряфиндян яввялсядян компцтерин йаддашына йазылыр вя дярс просесиндя проуектор васітясиля електрон лювщядə nümayiş etdirilərək изащ олунур.

Шякил 1-дяки програмдан истифадя етмякля мовзуну шярщини веряк. *325 ədədi щаггында ня билирик?* **Анализ:** Bu, цчрягямли ядəддир. О, 3, 2, 5 рягямляри иля йазылмышдыр. Онда **325** ващид вардыр. Ону мяртябя ващидляринин сями шяклиндя 300+20+5 кими йазмаг олаг. 325-ядяди 3 йцзлцкдян, 2 онлугдан вя 5 тякликдян ибарятдир. О, 32 онлугдан вя 3 йцзлцкдян, 325 təklikdən ibarətdir.




**şякил 1**

**Синтез:** 3 йцзлцйц, 2 онлуьу вя 5 тяклийи олан ядяд щансыдыр? ( cavab:325). 32 онлуьу, 5 тяклийи олан ядяд, 3 йцзлцйц, 2 онлуьу, 5 тяклийи олан ядяд, 325 тяклийи олан ядяд щансыдыр? ( cavab: 325).

Вцтцн ібтидаи синифлярдя щяндяси фигурлар юйрядилир. Бу fiqurларын чякилмяси, ишаря едилмясини компцтер вя електрон лювщя васитясиля яйани эюстярмяк олур. 1-си шякилдя ***Фигурлар*** програмындан истифадя едилир. Бунун цчцн **Старт** ⇒ **Вставка** ⇒ **Фигур** ямрлярини ардысыл исра етмяк лазымдыр. Бундан сонра щансы фигуру, хятти чякмяк лазымдырса, маусу щямин фигурун цзяриня гойиб, сол дцймяни сыхмагла fiqurи ачылан пянсярянин (електрон лювщянин) мцнасіб йериня чякмяк олур.

Шякил 2-də belə tapşırıq verilir: БС парчасыны тап. Təhlil (анализ-синтез) беля апарылыр: Бу парча щаггында ня сюйлямяк олар? (БС – БСЕ цчбусаьынын тяряфидир; БС–БСД цчбусаьынын тяряфидир. БС – ДБС цчбусаьынын ДБ вя ДС тяряфляриндян кичикдир. БСЕ цчбусаьынын БЕ тяряфиндян кичикdир. БС, ейни заманда, БСЕ вя БЕС бусагларынын тяряфляридир).




**şəkil 2**

Нярякятя аид мясялялəгин həlli нцмунясини анализ-синтез методу вя ИКТ васитясиля эюстяряк. Адятян, щярякятя аид мясяляляр шаэирдляр тяряфиндян чятин дярк едилир. Бу чятинлийи електрон лювщядя график цсулла изащ etməkля арадан галдырмаг олар. Она эюря дя щярякят мясяляляринин щяллиндя шякил 1-дяки фигурлар ичярисиндян дцзбусаглынı вя дцзбусаглы цчбусаьы сечиб, екрана салмаг лазымдыр. Електрон лювщя олмадыгда, bu işi проуектор васитясиля дя исра етмяк олар.

**Мясяля:** Ики шящярдян гаршы-гаршыйа миник вя yük машынlaгы йола дцшдц. Onlar 3 саатдан сонра эюрцшдцляр. Шящярляр арасынdaкы мясафя 210 kilometrдир. Миник машынынын сцряти saatda 45 kilometrdir. Йцк машынынын сцрятини тап.

Анализ:

- mиник машынынın эетдийи йол (3х45=135 *км*);
- уцк машынынın эетдийи йол (210–135=75 *км*);
- уцк машынынын сцряти (75:3=25 *км/саат*).




Синтез:

- Ики шящяр арасындакы мясафя ня гядярдир? (cavab: 210*км*).
- Миник машынынın 3 саатда эетдийи йол ня гядярдир? ( cavab: 3х45=135*км*)
- Йцк машынын эетдийи йолу неся тапмаг олар? ( cavab: 210–135=75 *км*).
- Йцк машынынын сцрятини неся тапмаг олар? (cavab: 75:3=25 *км/саат*).
- Миник вя йцк машынларынын бирликдя эетdийи йол. ( жаваб: 135+75=210*км*).

Эюстярilяn нцмуняляря ясасян, беля нятисяйя эялмяк олур ки, рийази чалышмаларын щяллиндя анализ-синтез методу вя ИКТ-дян истифадя етдикдя дидактиканын ясас принсипи олан яйанилик йцксяк сявиййядя тямин олunмагла йанашы, тəlимин еффективлийи вя сямярялилийи хейли артыр.

**ядябиййат**

1. Истомина Н.Б. Методика обучения математике а начальных классах. Москва: Академия, 2000.
2. Бантова М.А. и. др. Методика преподавания математики в началных классах, Москва: Академия, 2001.
3. Мяммядов Т.Я. Ибтидаи тящсилдя рийазиййатын тядриси методикасы. Нахчыван: Яъями, 2011.
4. Ы –ЫВ синиfлярин рийазиййат дярсликляри.

**Применение информационно-коммуникационных технологий и методов**

**анализа и синтеза в решении математических задач**

**резюме**

Статья посвящена применению информационно-коммуникационных технологий и методов анализа и синтеза в математике. Так же приводится примеры и обширное разъяснение методов анализа и синтеза в решении задач.

**The use of information and communication technologies and techniques analysis and synthesis in solving mathematical problems**

**summary**

The article focuses on the application of information and communication technologies and methods of analysis and synthesis in mathematics. Also provides extensive examples and a clarification of methods of analysis and synthesis in solving problems.

## ***TƏRBİYƏ MƏSƏLƏLƏRİ***

# ŞƏXSİYYƏTİN TƏRBİYƏSİNDƏ MÜƏLLİM SƏRİŞTƏLİLİYİ

**Yaqut Əzimzadə,**
Milli Konservatoriyanın tərkibində Respublika İncəsənət
Gimnaziyasının ibtidai sinif müəllimi
E-mail: reraro@mail.ru



**açar sözlər:** müəllimlik, səriştəlilik, şagirdlər, tərbiyə
**ключевые слова:** учительство, компетенции, ученики, воспитание
**key words:** magisterium , the competence , the students raise

Müasir dövrdə kamil insan, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək amili aкtuallıq kəsb edir. Şəxsiyyətin sürətlə formalaşması dövrü olan ibtidai siniflərdə müəllimin şəxsiyyəti, nüfuzu, peşəkarlığı və səriştəliliyi xüsusi əhəmiyyətə malikdir. Bu gün cəmiyyət sürətlə inkişaf edir. İnformasiya-kommunikasiya texnologiyaları həyatımıza daxil olaraq ona güclü təsir göstərir. Bazar iqtisadiyyatı, qloballaşma, Avropaya inteqrasiya, rəqabətə davamlılıq, mənəvi və bəşəri dəyərlərə sahib olan kamil insanın yetişdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, ölkə prezidenti cənab İlham Əliyevin “maddi kapitalı insan kapitalına çevirmək” ideyasından qaynaqlanır. İnsan kapitalının inkişafı məktəbdən, səriştəli müəllim əməyinin düzgün təşkilindən, şəxsiyyətin formalaşdırılmasında onun pedaqoji-metodiki fəaliyyətindən başlayır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” haqqında ölkə prezidentinin oktyabrın 24-ü, 2013-cü il tarixli sərəncamında deyilir: “İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir” [1].

Bu gün qloballaşan dünyamızda ibtidai sinif şagirdlərinə milli-mənəvi dəyərlərimizin aşılanması xüsusi əhəmiyyət kəsb edir. Milli adət-ənənələrimiz, davranış və rəftarımızda əxlaq

normalarımız gənc nəslə təlim və tərbiyə prosesində, müəllimin yaradıcı, peşəkar fəaliyyəti иля aşılanır. Qloballaşma prosesində təhsilin məzmunu və müəllimin peşəkar fəaliyyəti şəxsiyyətin milli mentalitetini yüksəltməyə, milli özünüdərkinə, onun hərtərəfli inkişafına, yüksək insani keyfiyyətlərə yiyələnməsinə xidmət etməlidir. Vaxtilə böyük filosof Aristotel yaratdığı məktəbin qapısına "Özünü tanı!" yazılmış lövhə asmışdı. Bununla o demək istəyirdi ki, məktəbin, peşəkar müəllimin vəzifəsi, şagirdə özünü tanıtdırmaq, dərk etdirmək və onun hərtərəfli inkişafına nail olmaqdır.

Müəllimin pedaqoji ustalığı, səriştəliliyi və peşəkarlığı ilk növbədə onun yüksək əxlaqi keyfiyyətlərində, milli-mənəvi, bəşəri dəyərlərə, geniş dünyagörüşünə sahib olmasında, ixtisasını dərindən bilməsində, onu öyrətmə qabiliyyətində, pedaqoji, psixoloji, metodiki biliklərə bələdliyində, öz yetişdirmələrinə dərin hörmət və qayğıkeşliklə yanaşmasında, tədqiqatçılıq, natiqlik qabiliyyətində, yüksək mədəni davranışında, mehriban ünsiyyətində, habelə sağlam, xoş zahiri görkəmində səliqəli geyimində özünü göstərir.

Təhsil strategiyasında müəllimин səriştəliliyinə istiqamətlənən dəyərli fikirlərin birində deyilir: "...milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" [1] təhsil işçilərinin qarşısına mühüm bir vəzifə kimi qoyulmuşdur.

Bütün bunlar yüksək peşəkar və səriştəli ibtidai sinif müəllimi modelinin hazırlığı deməkdir. Иbtidai sinif müəlliminin kompetensiyasına aşağıdakılar daxildir:

- ixtisas biliyi;
- sosial-psixoloji səriştəliliyi;
- ümumpedaqoji səriştəlilik;
- tərbiyəçilik səriştəliliyi;
- didaktik səriştəlilik;
- idarəçilik səriştəliliyi;
- refleksiya (özünənəzarət, özünütəhlil) səriştəliliyi;
- məlumatlılıq səriştəliliyi;
- innovasiya fəaliyyəti səriştəliliyi;
- yaradıcılıq səriştəlilyi;
- tədqiqatçılıq səriştəliliyi;
- nitq qabiliyyəti;
- ünsiyyət mədəniyyəti;
- ümumi dünyagörüşü və mədəni səviyyəsi;
- ziyalılığı.

Pedaqoji fikir tarixində ibtidai sinif şagirdlərinin cəmiyyət üçün yararlı vətəndaş kimi hazırlanmalarında, hərtərəfli şəxsiyyət kimi formalaşmalarında müəllimin müstəsna rolu həmişə yüksək dəyərləndirilmiş, bu peşə yer üzündə mövcud olanların ən alisi, şərəflisi sayılmışdır. İbtidai sinif müəllimliyi çətin və mürəkkəb olmaqla, həm də şərəfli, humanist, yaradıcı bir peşədir.

İbtidai sinif müəllimi elə yaradıcı şəxsiyyət olmalıdır ki, şagirdləri bilik və bacarıqlarla silahlandırmaqla onların intellektual səviyyələrini, yaradıcı fəaliyyətlərini, tənqidi təfəkkürlərini inkişaf etdirsin. Müəllim çalışmalıdır ki, şagirdlərə ülvi duyğular aşılamaqla cəmiyyət üçün layiqli vətəndaş yetişdirsin.

İbtidai sinif müəllimi həyatda fəal mövqeyi olan sosial insandır. O, müxtəlif peşə sahibləri ilə, valideynlərlə, ictimaiyyətlə görüşüb, müxtəlif mövzularda söhbətlər aparır. Bütün bunlar sinif müəllimindən yüksək peşəkarlıq və kompetensiya tələb edir. Bu baxımdan o, həmişə

qlobal və sosial düşünməli, insanlara, xüsusilə öz yetirmələrinə münasibətdə həssas və qayğıkeş olmalıdır. Sosial düşüncəli insan dedikdə, həyatda fəal mövqe tutan, ətrafındakılara daim xeyirxahlıqla yanaşan, yol göstərən, yaradıcı, humanist bir insan, səriştəli müəllim nəzərdə tutulur.

Y.A.Komenski "Böyük didaktika" əsərində yazırdı: "Bizə təbiət əxlaq verirsə də, bilik və xeyirxahlıq vermir. Bunu müəllim öyrənməli və öyrətməlidir." O, şəxsiyyətin inkişafı üçün məktəb, təlim-tərbiyə işini təkmilləşdirməyi, müəllimin insan tərbiyəsi üzərində ciddi çalışmasını zəruri hesab edirdi.

Ulu öndərimiz H.Əliyev cəmiyyətimizin gələcəyi olan gənc nəslin tərbiyə edilib yetişdirilməsində müəllim əməyinə, onun şəxsiyyətinə yüksək qiymət vermişdir. O deyirdi ki, müəllim adı dünyada ən şərəfli, ən yüksək addır. "Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaş hazırlayır. Müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət öz gələcəyini – uşaqlarının tərbiyəsini yalnız ona etibar edir."[ 6].

Müəllimin şagirdlərə verdiyi biliklər, aşıladığı bacarıq və vərdişlər yüksək insani keyfiyyətlərin formalaşdırılmasına xidmət etməlidir. Məktəb, ilk növbədə, yaxşı insan, sonra bilikli mütəxəssis yetişdirməlidir. Elə bir insan ki, o, milli-mənəvi və bəşəri dəyərləri mənimsəmiş bir şəxsiyyət kimi fəaliyyət göstərsin, cəmiyyətdəki sosial-siyasi şəraitə, bazar iqtisadiyyatına, zəngin informasiya-kommunikasiya məkanına uyğunlaşsın. Sadə dillə desək, məktəb şagirdlərə bütün həyatları boyu istifadə edəcəkləri hazır bilik vermir, oxuyub-öyrənməyi, bilikləri səmərəli tətbiq etməyi, öz üzərində daim çalışmağı öyrədir ki, bunların da təməli ibtidai siniflərdə səriştəli, peşəkar müəllimin fəaliyyəti nəticəsində, təlim-tərbiyə prosesinin yüksək səviyyədə qurulması ilə qoyulur.

İbtidai siniflərdə ən çox təsir və nüfuza sahib olan şəxs müəllimdir. Sinif müəlliminin şəxsi nümunəsi qüvvətli tərbiyəedici, inkişafetdirici qüvvəyə malikdir. Şagirdin dünyagörüşünün, düşüncəsinin, şəxsiyyətinin formalaşmasında müəllim nüfuzunun rolu, şəxsi nümunəsi əvəzsizdir.

Səriştəli sinif müəllimi öz yetirmələrini ilk illərdən müstəqilliyə alışdırır, qazanılmış biliklərin praktikada istifadəsinə çalışır. Müstəqillik insanda yaradıcılığı təmin edir. Yaradıcı insan hər yerdə rifah yaradır. Şagirdlərdə yaradıcılığı inkişaf etdirmək üçün biliyi haradansa hazır şəkildə götürmək deyil, araşdırmalar və təcrübə yolu ilə əldə etmək prinsipi əsasdır. Şagirdləri qazanılmış biliyin praktikada müstəqil tətbiqinə istiqamətləndirmək səriştəli sinif müəlliminin mühüm keyfiyyətlərindən biridir. Bu baxımdan səriştəli sinif müəlliminin ən vacib keyfiyyətlərindən biri onun müstəqilliyi, yaradıcı fəaliyyəti, tədqiqatçılıq bacarığına malik olması, elmi-nəzəri bilikləri praktikada tətbiq edə bilməsidir.

Dünyanın təhsil tarixində həmişə humanist bir missiyanı həyata keçirən məktəbin nümunəvi fəaliyyəti ilk növbədə müəllimin səriştəliliyi ilə şərtlənmişdir. Tarixi təcrübədən aydın olur ki, cəmiyyətin ehtiyacları dəyişdikcə məktəbin qarşısına qoyulan tələblər yeni mahiyyət kəsb edir və bütün dövrlərdə şəxsiyyət, layiqli insan yetişdirmək məktəbin əsas vəzifəsi olmuşdur.

**ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin oktyabrın 24-ü, 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.

2."Azərbaycan Respublikasında təhsilin inkişafı uzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı.

3. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf Konsepsiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin dekabrın 29-u, 2012-ci il tarixli fərmanı. "Xalq" qəzeti, 2012-ci il, dekabrın 30-u.

4. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.

5. Əliyev H. Ali məktəb işçilərinin respublika müşavirəsində nitq.1980.

6. Əliyev H. Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə çıxış. (31.08.1994.) "Azərbaycan" qəzeti, 1994-cü il, sentyabrın 1-i.

7. İbrahimov F. N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik. (2 cilddə). I cild. Bakı: Mütərcim, 2013.

**Фактор компетенции учителя начальных классов**
**в воспитании личности ученика**

**резюме**

В статье разъясняется большое влияние фактора компетенции учителя начального классов в формировании личности ученика. Следовательно, система подготовки учителя начальных классов должна быть ориентирована, прежде всего, на формирование личности ученика. Учитель начальных классов должен быть социально и профессионально активной личностью, обладающой высокой компетентностью, мобильностью и профессионализмом. Эти требования отмечаются в "Государственной стратегии по развитию образования в Азербайджанской Республике", утвержденной постановлением Президента Азербайджанской Республики Ильхамом Алиевым от 24 октября 2013 года. В этом государственном документе подчеркивается важность подготовки квалифицированных, компетентных педагогических кадров. Компетенции учителя начальных классов сильно влияют на формирование личности ученика. Учитель, в процессе обучения, и в процессе внеклассных мероприятий сильно влияет на личность ученика.

**Factor competence of the teacher of initial classes in the education of the student's personality**

**Summary**

The role of the competent teacher is very important in the formation of the personality of the students. This opinion is clearly reflected in the " State Strategy for the Development of Education in the Republic of Azerbaijan". The availability of high moral qualities and human values of the teacher, his deep knowledge of his profession, his right attitude to the students, his ability of communicating with them is a key component of his professional competence. A teacher is such a creator who prepares decent people for the society with the intellectual thinking and creative ideas. Teachers are active social people and they must be example for their students with their personality. If teachers own a good humane character , deep knowledge, creative mentality, goodness, they can form the personality of their students in the right direction. Students can develop their character, improve their skills and opportunities, find out their creative activity and compensate their material and spiritual needs under the teacher supervision in society.

# Uşaqla münasibətdə nə etmək olmaz

**Pərvanə Mustafayeva,**
Bakı Sosial-Pedaqoji Kollecinin müəllimi



Uşaq tərbiyəsi özu böyuk bir inçəsənətdi, beləki terbiyyə prosesi – valideyinin ureyinin ,duşuncəsinin var quvvesiyle fealiyyetidi.Bəzən valideynlər , terbiyəcilər uşaqların tərbiyyəsində buraxdıqları səhvlər silinməz izlər qoyur. Bilmədən,istəmədən etdiyimiz bu səhvlər uşaqların yaddaşına həkk olur və vaxt aşırı özunu göstərir. Uşaqlar qorxutma yolu ilə tərbiyəyə muxtəlif reaksiya verirlər- bəziləri sakit oturur ,bəziləri əksinə aglayirlar . Bu kicik hekayələrdə secdiyimiz tərbiyə yollarin uşaqlara menfi təsirini gostemek istədik .

**(kiçik hekayələr)**

**"Səkinə xala qayda yaradır"**

Gənc tərbiyəçi uşaqlarla məşğələdə davranışları haqda söhbət aparırdı. Lakin uşaqlar onu dinləmirdilər. Onlar yerlərində hərlənir, səs salır, bir-birini itələyirdilər.

- Mən sizinlə nə edim? – deyə tərbiyəçi kədərləndi. – Sakit olun. Məşğələdə sakit oturub, tərbiyəçini dinləmək lazımdır. Neçə dəfə təkrar etmək olar?

  Bu zaman xadimə qrup otağına daxil olur. O, səs-küyü eşidib başını tərpədərək soruşdu:

- Dəcəllik edirsiz? Mən indi sizə ….

Arifin Gülərə tərəf əlini zorla uzatdığını görüb ona tərəf getdi və qulağından tutdu:

- Bir də edəcəksən?

Oğlan ağrıdan üzünü büzüb ağladı.

- Bəs, sən? Sən də dəcəllik edəcəksən? – deyə xadimə başqa uşağın qulağını çəkərək qışqırdı.

Uşaqlar büzüşərək oturub ağlayırdılar. Tərbiyəçi çaşqın halda baxırdı.

- Sən bunlarla daha ciddi ol, - Səkinə xala, tərbiyəçiyə məsləhət verir. Lap başlı-başına qalıblar.
- Mən onsuzda ciddiyəm…-deyə gənc tərbiyəçi özünə haqq qazandırmağa çalışdı. Lakin Səkinə xala onu dinləməyib başqa qrupa tələsik getdi….

**“Mənim həyətim – mənim qalamdır”**

Əli öz həyətinə dostlarını oynamağa çağırdı. Həyətdə aspfalt boyunca qladiolus və georgin gülləri əkilmişdir.

Həyətdən uşaqların şən oyun səsləri gəlirdi. Birdən Əli uşaqlardan ayrılıb küçəyə qaçdı. O, küçədən keçəndən “saat neçədir?” deyə həyəcanla soruşdu. “Dörd”-adam cavab verdi. Əlinin rəngi ağardı. Həyətə qayıdıb uşaqlara, “çıxın, çıxın həyətdən, indi anam işdən gələcək, sizi görməsin” deyə qışqırdı.

Bu vaxt kök bir qadın qapıda göründü.

- Onun ilk sözü bu oldu. Ay şeytanlar, yenə də gülləri əzmisiz.

Uşaqlar Əlinin anasını görən kimi həyətdən qaçdılar.

- Neçə dəfə sənə demişəm, bunları həyətə buraxma, deyə, anası Əlinin üstünə qışqırdı.
- Bir də etmiyəcəyəm, heç kimi daha həyətə buraxmayacağam – Əli kədərlənərək dedi.
- Yaxşı, al bu şokoladı...

**“Uşaqlar analarını necə təbrik etdilər”**

Arzu bu bayramı səbirsizliklə gözləyirdi. Nəhayət o, uşaq bağçasına səhərciyə gözəl paltarda, saçında ağ bant, təzə ayaqqabıda gəldi. Uşaqlarla birlikdə səhərcikdə Arzu da şeir dedi, mahnı oxudu. Onun gözləri sevincdə parıldayırdı, çünki qonaqlarla birlikdə anası da onu dinləyirdi!

Birdən tərbiyəçi elan etdi: “Uşaqlar, indi yarış təşkil edəcəyik: Kim tez stula yaxınlaşıb, onun üstündəki gülü götürsə, o, anasını bayram münasibətilə təbrik edəcək”. Güllər əvvəlcədən hər cüt uşaqçün hazırlanmışdır.

Arzu tərbiyəçinin göstərişilə Kamal ilə qaçmalıydı. Kamal bərk qaçırdı. Arzu onu ötüb keçə bilməzdi! Lakin Arzu bu gün anasını bayram münasibətilə çox təbrik etmək istəyirdi…

Kamal stula daha tez yaxınlaşıb gülü götürdü. Arzu isə?

Qız zalın ortasında qəmli dayanmışdı. Qonaqlar və anası ona baxırdı, o, oyunu uduzmuşdu, gül buketi Kamalın əlindəydi. Arzu üzünü əli ilə örtüb acı-acı ağlayırdı.

Sonra o, anasının yanına qaçıb onu qucaqladı və ağlamsınaraq pıçıltıyla dedi: “Ana can, mən səni təbrik etmək istəyirdim!”

Yarış isə davam edirdi…

**“Nə oldu?”**

Axır vaxtlar Ceyhuna nəsə olmuşdu. Əvvəllər o, evdən bağçaya qədər ağlaya-ağlaya gedirdi və hər gün də bu təkrar olunurdu:

- Bağçanı istəmirəm… istəmirəm…

Bağçadan isə evə tələsirdi, hətta heç kimlə sağollaşmadan anasının yanına qaçırdı.

Birdən hər şey dəyişdi. Səhər Ceyhun yuxudan oyanan kimi paltarlarını tez geyinib, anasını tələsdirir və evdən birinci çıxır. Adətə görə o, anasını bağçanın darvazasının yanında qarşılayırdı, lakin Ceyhun artıq evə tələsmirdi. Anasının əlindən tutaraq qrup otağına getməyə razı salmağa çalışırdı.

- Gedək , ana, Məlahət müəllimə sənə quşlar üçün yem qutusunu necə hazırlamağı izah etsin.

Ancaq ana isə qətiyyətlə qrup otağına getməkdən imtina edirdi. O, oğlunun qolundan çəkərək deyirdi:

- Biz hələ marketə də getməliyik. Sənin yem qutun qaçmır. Mən isə axşama yemək hazırlamalıyam.

Ana evdə soruşur:

- Oğlum, son vaxtlar sən tez-tez Məlahət müəllimənin adını çəkirsən. O, kimdir?
- O, bizim təzə tərbiyəçimizdir. Məlahət müəllimə yaxşıdır, çox yaxşıdır! – sevinclə Ceyhun cavab verdi. Mən onun haqqında sənə danışmışam, yadındadır?

Ana utandı, əvvəlki tərbiyəçi ilə çoxdan görüşməyib və yeni tərbiyəçini isə heç xatırlamır. Ola bilər ki, Ceyhun onun haqqında danışıb, lakin o,buna əhəmiyyət verməyib. Əlbəttə, müəllimə ilə tanış olmaq lazım idi… bu o qədər də tələsik deyil. O, özünə onunla təsəlli verdi ki, oğlundan şikayət yoxdur, hər dəfə gözə girmək, narahat etmək nəyə lazımdır ki.

- Hə, yeni müəllimən sənə nə dedi?

Ceyhunun gözləri sevinc alovu ilə alışırdı. Ana əvvəllər oğlunda belə hallar təsadüf etməmişdi. O, isə gülərüzlə dedi: "Bu gün məktəbdən uşaqlar gəlmişdilər. Onlar bizə quşlar üçün yem qutusu düzəltməyi öyrətdilər." Məlahət müəllimə isə evə tapşırıq verdi: bu gün evdə yem qutusu düzəldib, sabah bağçaya aparaq.Sonra məktəblilərlə parka gedib yem qutularını ağaclardan asacağıq.

- Qışda ora dən, çörək qırıntısı tökəcəyik, – deyə Ceyhun sevinclə söhbətini davam etdi. Ana sən mənə yarma verərsən? Məlahət müəllimə deyir ki, bu quşlarçun lazımdır, onlar qışda acından ölməsinlər.

Ana oğluna cavab vermədən mətbəxə keçdi. Ceyhun isə atasının alətləri saxladığı anbara qaçdı. Səs-küyü eşidən ana dəhlizə gəldi. Döşəməyə mismar, çəkic, mişar atılmışdı, Ceyhun isə anbardan yenə nəsə axtarırdı.

- Sən, orada nə axtarırsan, oğlum? – ana oğlunun qolundan dartaraq soruşdu.
- Ana, mən yem qutusu düzəltmək üçün fanerka axtarıram… Məlahət müəllimə deyib…
- Yenə də nə yem qutusu? – ana əsəbi qışqırdı. – Əgər barmağını kəssən kim xəstəxanaya qaçacaq? Mən, yoxsa Məlahət müəllimə?
- Sən – Ceyhun sakit cavab Verdi.
- Bax, belə, mən. Əgər Məlahət müəllimə bağçada sizə boş-boş şeylərlə məşğul olmağa icazə verirsə, heç olmasa evdə əhəmiyyətli bir işlə məşğul ol. Eşidirsən, məni?
- Ana can, bu axı, quşlar üçün yem qutusudur. Məlahət müəllimə deyir ki…
- Bəsdir! – ana qışqırır. – Tez tökdüklərini yığ, qoy yerinə və alətləri anbara atmağa başladı.
- Mən onsuzda düzəldəcəyəm. Görərsən, düzəldəcəyəm. Atam gəlib mənə kömək edəcək.

Ana isə əsəbi halda çığırdı:

- Hətta, atanla da sən heç bir şey etməyəcəksən! Gör nəymiş – yem qutusu! Nəhəng tikintidir! Bir yem qutusu olmasa, sənin quşların ölməz!

- Ölərlər! – anasına acıqla baxaraq Ceyhun söylədi. – Məlahət müəllimə deyir ki, qışda quşlar üçün yaşamaq çox çətindir. Qar yağanda onlar özləriçün dən tapa bilmirlər.Onlar axı, körpədirlər. onların qayğısına qalmaq, qorumaq lazımdır.

Ana stula əyləşib, hələ anbara atmağa macal tapmadığı mişmarı dizinin üstünə qoyub, oğluna baxdı.

"Necə oldu ki, - bu, yeni tərbiyəçi oğlunun yanında daha çox hörmət və etibar qazanmışdı, nəinki, onun doğma anası? Nə baş verib?"

Qeyd etmək lazimdi ki ne qeder vəziyyət agir və ciddi olsada valideynlər , tərbiyyəcilər daim ilk növbədə o balaca insanin bir şəxsiyyət kimi hisləri ilə hesablaşmali , onu anlamaga calışmalı ,munasibətləri qarşılıqlı hörmət uzərində qurmalı,uşaqların hərəkətlərini duzgun qiymətləndirməyi bacarmalıdılar.

## PSİXOLOGİYA VƏ DEFEKTOLOGİYA

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ TƏLİM FƏALİYYƏTİNİN TƏŞKİLİ

**Limunət Əmrahlı,**



**açar sözlər: məktəbəqədər yaşlı uşaqlar, idraki proseslərin inkişafı, hissi tərbiyə, bacarıqların inkişaf etdirilməsi.**

**key words: preschool children, the development of cognitive processes, educate, of management skills.**

**ключевые слова: детей дошкольного возраста, развитие познавательных процессов, воспитание чувства, развитие способностей.**

Məktəbəqədər yaşlı uşaqların fəaliyyətinin inkişafı onların ətraf aləmlə qarşılıqlı münasibətləri zəminində baş verir. 2-3 yaşda əldə olunan imkanlar fəaliyyət sahələrinin sürətli inkişafı üçün əlverişli təsirə malikdir, çünki 3 yaşlı uşaq uzun müddət əşyaya baxa bilir, diqqətini onun üzərində cəmləşdirir, cismi tədqiq edir, onunla oynayır.

Bu dövrdə fərdi-əşyavi oyunlardan rollu oyunlara hazırlıq başa çatır. İdrak proseslərinin intellektual zəmində inkişafı üçün uşaqların birgə fəaliyyətini təmin etməklə rollu oyunlara hazırlamaq səmərəli nəticələr verməklə ətraf aləmə ahəngdar yanaşma, onu obyektiv qavrama baxımından zəruridir.

Uşağın intellektual aləmi onun əqli imkanlarlnın davamlı xüsusiyyətlərini əks etdirir. Əqli imkanlar sayəsində uşaqda əqli və hərəki fəaliyyət üçün fərdi iş üslubu, fəaliyyət tərzi , qarşılıqlı problemlərin həlli üçün münasib yolların işlənməsi qaydası müəyyənləşir. Bu, onların təlim fəaliyyətinə hazırlıq işinin təməlini qoymuş olur. Odur ki, əqli tərbiyədə bu amil ciddi nəzərə alınaraq fəaliyyətin səmərəli təşkilinə diqqət yetirilir.

3-4 yaş dövründə psixi aləmin formalaşmasını şərtləndirən bir sıra xüsusiyyətlər vardır. Həmin xüsusiyyətlər hissi tərbiyə işində ümumiləşdirilir. Hissi tərbiyə , ətraf aləmin real dərkinə imkan verir, lakin hissi nəticələrə həddən artıq arxayın olmaq da yanlışlıq yaradır. Uşaqlıq dövrünün ilk mərhələlərində dərketmənin məntiqi məzmunundan bəhs etmək hələ bir qədər tez olsa da nəzərə almaq lazımdır ki, bu məzmun məhz ilk hissi anlayışlar, təəssüratlar üzərində təşəkkül tapır. Odur ki, problemə ciddi yanaşmaq olduqca vacibdir. Hissi tərbiyədə

bir sıra mühüm tələblər gözlənilməli, uşağa verən hissi anlayışlar hər şeydən əvvəl sasə, aydın, onun emosional vəziyyətinə, fərdi-psixoloji xüsusiyyətlərinə uyğun olmalıdır.

Məktəbəqədər yaş insanın psixoloji inkişafının ən məhsuldar dövrüdür. Bu dövrdə hisslər sürətlə inkişaf edərək duyğu, qavrayış, hafizə və təfəkkürü məntiqi səviyyəyə qaldırır. Artıq məktəbəqədər yaşın sonunda uşaqda həyati hadisələrə, xarici aləm, obyektlərinə normal münasibət yaranır. O, fərddən şəxsiyyətə çevrilir, Bəzən məktəbəqədər yaşın sonunda belə uşağın hissi təcrübəsi yaş tələbləri səviyyəsindən aşağı olur. Bunun səbəbi hissi tərbiyədə yol verilən nöqsanlarla izah edilir. Həmin nöqsanlar bir sıra psixoloji tələblərin gözlənilməsi yolu ilə islah oluna bilər:

- Hissi tərbiyənin mühüm vasitələri olan müşahidə, izahetmə, qavrama fəaliyyətini düzgün qurmaq, obyektlərin qavranılmasında müxtəlif hiss orqanlarının qarşılıqlı iştirakını təmin etmək, dərketmə prosesinə müxtəlif reseptorların daxil edilməsi ilə qavrama səviyyəsini yüksəltmək;
- qavrama prosesində II siqnal sisteminin fəal iştirakını təmin etmək;
- Müşahidə prosesində “mücərrəddən-konkretə” prinsipini gözləyərək, uşaqda bitkin anlaşıqlı təsəvvür yaratmaq, mexaniki hafizənin ötəri nəticələri ilə kifayətlənməyib, onun seçici formalarının təfəkkürlə bağlı tərəflərinə üstünlük vermək;
- verilən məlumatları ümumiləşdirmək, məktəbəqədər yaşda sillogizm elementlərinin zəif inkişafını nəzərə alaraq induksiya əməliyyatlarını hə-yata keçirən müxtəlif sensor əməliyyatlara nəzarət etmək bacarığı öyrətmək;
- uşağın ətraf aləmə marağını şərtləndirən məsələlərdən biri, keçmiş və yeni təcrübə arasında assosiativ əlaqənin yaradılmasını uğurla həll etmək və s.

Uşaqlarda hissi anlamanın məzmunu və həcmi müxtəlifdir. Ona görə də daim hissi tərbiyənin təşkilində uşaq fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə əlverişli yollar axtarılır. Məktəbəqədər pedaqogikada da bu problemin həlli ilə bağlı müxtəlif fikirlər formalaşıb. Təcrübədə öz təsdiqini tapmış nəzəriyyələrə istinad etməklə hissi tərbiyədə aşağıdakı şərtlərin gözlənilməsi məqsədəuyğun hesab edilir.

***Müəyyənləşdirmə.*** Bu prosesdə duyğu və qavrayış fəal iştirak edir. Əyani vəsait (şəkil, fiqur, oyuncaq, təbiət elementi və s.) mühüm rol oynayır. Uşaqlar əyaniliyə baxaraq onun əsas hissi əlamətlərini müəyyənləşdirirlər. Pedaqoqun vəzifəsi bu əlamətlərin ifadə tərzini (kiçikdir, sarıdır, gözəldir, yumrudur və s.) öyrətməkdən ibarətdir. Uşağa ilk növbədə forma təsir göstərir. Bu zaman keçmiş təcrübə də mühüm rol oynayır. Müşahidə obyektinin bir neçə sensor əlamətinin (forma, rəng, ölçü, və s.) eyni vaxtda təsiri səmərəli nəticə verir. Bu prosesdə uşağın yaş xüsusiyyətləri, metodik tələblər nəzərə alınır.

Formadan sonra rəng müəyyənləşdirilir. Rənglər cəlbedici olduqda uşaq diqqətini qeyri-ixtiyari olaraq obyektə yönəldir. Diqqətin bu məhsuldar müddətindən istifadə edilərək müşahidənin vəzifələri yerinə yetirilməlidir.

***Müqayisəetmə.*** Kiçikyaşlı uşaqların psixikasında ziddiyyətli cəhətlər var. Onlar ayrı-ayrı hissi etalonları müxtəlif cür müqayisə edirlər. Məsələn, üç yaşın sonunda ona qədər rəngi fərqləndirən uşaq yalnız 3 və ya 4 formanı , 3 ölçünü qruplaşdıra bilir. Əşyaları kəmiyyət baxımından iki yerə (az və çox, bir və çox) bölür. Məkan təsəvvürü isə məhdud və qeyri-sabitdir. Əyani modelləşdirmə bacarığı olmur.

Qeyd edək ki, burada söhbət 2-3 yaş mərhələsində sensor tərbiyənin nəticəsi olaraq uşağın əldə edə biləcəyi imkanlardan gedir. Hissi tərbiyə ilə bağlı təşkil edilən oyun məşğələlərdə ilin əvvəlində 2-3, ilin sonunda 4 əşya müqayisə edə bilirlər. Onların daha asan qavradıqları rəng etalonu müstəsnalıq təşkil edir. Uşağın fərdi imkanları nəzərə alınaraq, daha çox sayda rənglərlə tanışlıq aparılır.

***Fərqləndirmə***. Bu proses dərketmənin daha çox mürəkkəb mərhələsi olub, təfəkkürün inkişaf səviyyəsi ilə şərtlənir. 2 yaşlı uşaqda fərqləndirmə bacarığı kifayət qədər inkişaf etmiş olur. O, pisi yaxşıdan , oları olmazdan, qorxulunu qorxusuzdan fərqləndirə bilir. Bu sahədə onun əldə etdiyi ilk təcrübə emosiyalarla bağlıdır. Hələ 5-6 aylığında olarkən valideynin mimikasını, mərhəmət və şəfqətli , qəzəbli və şən olduğunu fərqləndirir. Ona görə də kiçik yaş dövründə "şərti təlim" fəaliyyətində fəallıq göstərə bilir, əşyaları sensor əlmətlərinə görə fərqləndirərək qruplara ayırırlar.

Fərqləndirmə hissi dərketmədə mühüm rol oynamaqla yanaşı, koqnitiv fəaliyyətə zəmin yaradır. Prosesin səmərəliliyinin mühüm şərtlərindən biri uşağın yaş və fərdi psixoloji xüsusiyyətlərinin nəzərə alınmsıdır.

***Qruplaşdırma.*** Bu daha mürəkkəb proses olub, uşaqdan müəyyən təcrübi bacarıq tələb edir, çünki qruplaşdırma yeni hissi etalonlarla tanışlıq zamanı deyil, onların artıq tanış olduqları əlamətlər üzrə aparılır. Əşyalar müxtəlif əlamətlərinə görə qruplaşdırılır. Bu zaman uşaqlara tanış olan əlamətlərin, əşyaların seçilməsi mühüm şərtdir.

Qruplaşdırma əməliyyatı qavrama və yaddasaxlamanın köməyi ilə təfəkkürün inkişafına, müstəqilliyinə kömək edir. Uşaqların təfəkkür müstəqilliyi ilə şərtlənən ilk fəaliyyət imkanlarına biz 4 yaşın əvvəllərində rast gələ bilərik.

3-4 yaşlı uşaqlarla hissi tərbiyə üzrə təşkil edilən məşğələləri artıq təlim formasında qurmaq mümkündür. Məşğələlərdə müxtəlif metodlardan istifadə etməklə uşaqlara hissi anlayışların mənimsədilməsi işini həyata keçirmək mümkündür: oyun metodları, əyani metodlar. Bu metodlar istifadə olunan əşyaların materialına uyğun olaraq bir neçə qrupa ( ətraf aləm elementlərini əks etdirən sadə əşya, heyvan, quş və s. şəkilləri) bölünür. Bədii əsərlər üzrə sadə sujetli rəsmlər: insan hərəkətlərinin təsvirləri, illüstrasiyalar və s. fiqurlar. Ətraf aləm elementlərini əks etdirən müxtəlif materiallardan hazırlanmış əşya, heyvan, quş, insan fiqurları: əşyalar, oyuncaqlar, təbiət, tullantı, tapıntı, tikinti materialları, milli sənətkarlıq nümunələri, tərbiyəçi tərəfindən hazırlanmış, əl işləri, məşğələ nümunələri.

***Hissi etalonların izahı.*** Bu vasitənin tətbiqində tərbiyəçinin nitqi xüsusi təsiredici qüvvəyə malikdir. Burada nitq ifadəli, emosional, cəlbedici, aydın, dəqiq, anlaşıqlı, məzmunlu olmalıdır. Nitqdə ardıcıllıq gözlənilməli, verilən məlumatda uşağın yaş imkanları nəzərə alnmalıdır. Tərbiyəçinin izahı uşağa obyektin ən vacib, zəruri əlamət və xüsusiyyətlərinin çatdırılmasına xidmət etməlidir. Əlavə məlumat uşağı yorur, marağını azaldır.

***Hissi hərəkətlərin icrasının əyani izahı.*** Bu vasitə ətraf aləmlə tanışlıq prosesində görüləcək işin texniki izahına yönəlir. Bütün hərəkətlər ən incəli-yinə qədər uşağa göstərilir, izah edilir. Qruplaşdırma, müqayisəetmə, fərqləndirmə, yapma , rəsmetmə, quraşdırma , əməliyyatları uşağa başa salınır.

***Uşaq fəaliyyətinin təhlili.*** Bu metod bizə "qiymətləndirmə" kimi tanışdır. Onun məhz belə ifadəsi illər boyu bir sıra pedaqoqlar üçün uşağı öz nüfuzuna tabe etdirmək silahına çevirmişdir.

Uşaq fəaliyyətinin təhlilində başlıca şərt – uşaq ləyaqətinə hörmətin ğözlənilməsidir. Uşağa onun fəaliyyətinin nöqsanlı tərəfləri təhqiredici, təhliliedici, ifadələrlə çatdırılmalıdır. Uşaq öz nöqsanını bilməklə yanaşı onun həlli qaydalarına da qarışdırılmalıdır. Əgər uşaqda özünəhörmət meyli , ləyaqət hissi güclüdürsə o, bütün varlığı ilə buna cəhd göstərəcəkdir.

***Bədii vasitələrdən istifadə:***

a) hekayə, şeir və folklor nümunələri,

b) ekran vasitələri,

c) bədii əsərlərin səhnələşdirilməsi (kukla, kölgə, flaneleqraf, stolüstü və s.), teatr tamaşalarının təşkili.

**_Praktik metodlar_**

Bu metodlardan, əsasən əl əməyi prosesində, uşaqların təsvirçilik bacarığının inkişaf etdirilməsində istifadə olunur. Orta yaş mərhələsində uşaq-lar praktik fəaliyyətə həvəslə yanaşır, lakin kifayət qədər təcrübələri ol-madığından xeyli çətinliklərlə üzləşirlər. Maraqlı praktik vasitələrlə onları fəaliyyətə (yapma, rəsmetmə, quraşdırma, dekorasiya hazırlamaq, düzmə, hamarlama və s.) alışdırmaq lazımdır.

Bu dövrdə uşaqların perseptiv fəaliyyəti aşağıdakı istiqamətlərdə qurulur.

**_Quraşdırma._** Hissi anlayışların öyrədilməsində ən səmərəli təlim forması quraşdırmadır. Psixoloqlar haqlı olaraq onu ətraf aləmi hissi dərketmənin qapısı kimi səciyyələndirirlər. Tərbiyə proqramında quraşdırma əl əməyinin xüsusi sahəsi kimi göstərilir. Bu fəaliyyət daha çox hissi qıcıqların qavranılmasına, mənimsənilməsinə və hissi dərketməyə xidmət edir. Uşaq onun köməyi ilə rəng, forma, ölçü haqqında məntiqi nəticəyə gəlir.

**_Yapma._** Yapma fəaliyyətində uşağa, ilk növbədə gil və plastilinin xüsusiyyəti öyrədilir. Əgər quraşdırma əqli proseslərin inkişafına daha tez təsir göstərirsə, yapma fəaliyyəti xırda əl əzələlərinin hərəki fəallığını artırır. Əl barmaqları inkişaf edərək incə, dəqiq hərəkətlərə hazır olur. Digər fəaliyyət növləri uşağın fəallığına imkan yaradır.

Gilin yumşaqlığı, elastikliyi uşaqda maraq oyadır. O, barmaqlar, ovuc vasitəsilə yumru , yaşıl, uzunsov fiqurlar: çubuq, top, halqa, hazırlayır. Tez əldə olunan uğur yapmanı, uşağın sevimli fəaliyyətindən birinə çevirir. Kiçik yaşda yapma fəaliyyəti istifadə edilən materialın xüsusiyyəti ilə tanışlıq və sadə formalı əşyaların düzəldilməsi ilə məhdudlaşır.

**_Rəsmetmə._** Digər fəaliyyət növləri ilə müqayisədə uşaqlar üçün rəsmetmə xeyli çətinliklər yaradır. Birinci vəzifə texniki vərdişlərin yaradılmasıdır: karandaşı tutmaq, onu kağız üzərində bərabər güc tətbiq edərək sürüşdürmək, şəkli kağız üzərində düzgün yerləşdirmək, rənglərdən düzgün istifadə etmək, səliqəli işləmək.

Uşaq ilk vaxtlar kağız üzərində anlaşılmaz cızma-qara edir. Belə uşaq rəsmlərinin təhlili istiqamətində uşaq psixologiyasında çoxsaylı tədqiqatlar aparılıb. Nəticə bundan ibarətdir ki, onlar tanış olduqları ən sadə obyektlərin də ifadə edilməsində çətinllik çəkir, karandaşı bərk basır, tez-tez sındırır, vərəqi cırırlar. Buna baxmayaraq, uşaqlar şəkil çəkməyə də xüsusi maraq göstərirlər. Rəng müxtəlifliyi bu maraqların əsasında duran əsas amildir.

**ədəbiyyat**

**В период обучения деятельности организации дошкольного возраста**

**резюме**

В статье рассказывается о деятельности развитием интеллекта у детей дошкольного возраста. В то же время в статье объясняется различными этапами осознания приемлем. В статье говорится о значении в развитии практических методов труда детей.

**Organization of training at pre-school age period**

**summary**

The article tells of cognitive development of children of preschool age.
At the same time, the article understanding of the various stages of.
In the article about the importance of the development of practical methods of children labor.

**xülasə**

Məqalədə məktəbəqədər yaşlı uşaqlarda idrakı fəaliyyətin inkişafından bəhs olunur. Eyni zamanda məqalədə dərketmənin müxtəlif mərhələləri izah olunur. Məqalədə praktik metodların uşaqların əl əməyinin inkişaf etdiril-məsində əhəmiyyətindən bəhs olunur.

# ERKƏN MÜDAXİLƏ İNKLÜZIV TƏHSİLİN İLK PİLLƏSİ KİMİ

**Fərid Süleymanov,**

ARTPİ-nin böyük elmi işçisi



**açar sözlər:** inklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, erkən müdaxilə, intellektual inkişaf, bilik, bacarıq

**ключевые слова:** инклюзивное образование, дети с особыми потребностями, раннее вмешательство, интеллектуальное развитие, знание, умение

**key words:** inclusive education, children with special needs, early intervention, intellectual development, knowledge, skill

Mahiyyət etibarilə humanizmi təlqin edən və demokratik prinsiplərə söykənən inklüziv təhsil yalnız təhsil sistemi səviyyəsində deyil, eyni zamanda irqindən, dinindən, maddi-sosial vəziyyətindən, əqli və fiziki imkanlarından asılı olmayaraq cəmiyyətin hər bir üzvünə ədalətli yanaşma tələb edir. Yeni yaranmasına baxmayaraq dünyada geniş vüsət alan inklüziv təhsil modeli həm də bəzi suallar doğurur. Bu suallardan biri inklüziv təhsilin keyfiyyət və səmərəsinin necə təmin edilməsi ilə bağlıdır. Təhsil anlayışı yalnız şagirdlərin akademik biliklərə deyil, həm də onların həyati bacarıqlara və sosial səriştəyə yiyələnmələrini əhatə edir. Uzun illərin təcrübəsi göstərir ki, səriştə və bacarıq olmadığı halda, insanın öz biliklərini müvafiq peşə sahəsinə tətbiq edə bilməsi mümkün deyil. Elə bu səbəbdən də təhsilin müasir fəlsəfəsi tələb edir ki, təlim prosesində şagirdlərin akademik biliklərinin yükünü tədricən artırmaqla, yanaşı onların sosial, mədəni ünsiyyət bacarıq və vərdişlərinin inkişafını da təmin etməlidir. Başqa sözlə, biliklər və onların tətbiqi bacarıqları arasında balans təmin olunmalıdır. Məhz bu nöqteyi-nəzərdən inklüziv təhsil anlayışı daha geniş və ciddi məna kəsb edir.

Bəs intellektual inkişafında problemi olan uşaqların təlimi prosesində bilik və bacarıqların onlar tərəfindən bərabər səviyyədə mənimsənilməsinə müvəffəq olmaq üçün nə etmək lazımdır? Bu, inklüziv təhsilin ən mühüm problemlərindəndir. Onun cavabını isə inklüziv təhsilin təxminən yarım əsrlik təcrübəsinin təhlilində axtarmaq lazımdır. Təcrübə sübut edib ki, inklüziv təhsilin uğurlu nəticələrinin sirri təhsildə varislik prinsipinin gözlənilməsindədir. Başqa sözlə, təhsilin bir mərhələsində inklüziv təhsilin fayda verməsi üçün onun bütün mərhələlərində inklüziv tədris təşkil olunmalıdır. İnklüziv təhsil kontekstikdə bu mərhələnin ilk pilləsini erkən müdaxilə tədbirləri təşkil edir. Belə ki, istər intellektual, istərsə də fiziki problemləri olan (yaxud xüsusi

qayğıya ehtiyacı olan) uşaqlara erkən müdaxilə əksər hallarda qənaətbəxş olmur. İntellektual problemli uşaqları lazımi müalicə almadan, müvafiq ilkin təlim görmədən, primitiv biliklərə və sosial bacarıqlara yiyələnmədən təlim prosesinə cəlb etdikdə onlar çaşqın vəziyyətdə qalır və prosesdən faydalana bilmirlər. Bu zaman onların mühitə uyğunlaşmaları da ləngiyir. Nəticədə yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlar deyil, həm də onlara çox diqqət və enerji ayırmağa məcbur olan müəllimlər, bu təlim prosesində kölgədə qalan şagirdlər də çox şey itirirlər.

Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsilin təməlini erkən müdaxilə təşkil edir. Erkən müdaxilə dedikdə, uşağın inkişafdan geri qalmasının mümkün qədər tez aşkarlanması, uşağa və onun ailəsinə erkən ixtisaslaşmış, psixoloji, tibbi, pedaqoji, sosial yardımın göstərilməsi nəzərdə tutulur. Mümkün intellektual çatışmazlığın aradan qaldırılması, yaxud fəsadların minimuma endirilməsi üçün müvafiq tibbi, psixoloji və pedaqoji tədbirlərin mümkün qədər erkən yaşlardan başlaması vacibdir. Uşaqlıq dövrü hər bir insanın inkişafında son dərəcə mühüm əhəmiyyət kəsb edir. Uşaqlıq dövrü mərhələsinin insanın digər inkişaf mərhələlərinə nisbətən daha tez ötüb keçməsinə baxmayaraq, sonrakı mərhələlərin inkişaf sürətini və istiqamətini müəyyənləşdirir. Bu dövr insanın bir şəxsiyyət kimi təşəkkül tapması, sosial-mədəni dəyərləri mənimsəməsi baxımından da əhəmiyyətlidir. Bu mərhələ intellektual problemli uşaqlar üçün xüsusilə əhəmiyyətlidir. İnsan beyni üzərində aparılan elmi tədqiqatlar göstərir ki, 0–6 yaş arası dövr insanın ən sürətlə inkişaf etdiyi, ən vacib həyati bacarıqlara yiyələndiyi dövrdür. Bu dövrdə fiziki və intellektual inkişaf problemlərinə lazımi müdaxilə olunmasa, onlar daha ciddi fəsadlar törədə bilər.

Erkən uşaqlıq dövrü həm də onunla xarakterizə olunur ki, bu dövrdə qavrama, dərketmə, nitq inkişafı, şəxsiyyətin formalaşması və s. kimi funksiyalar sürətlə inkişaf etməyə başlayır. Erkən adekvat yardım uşağın psixoloji-fiziki inkişafındakı pozğunluqları kompensasiya edir və bununla da ikincili nöqsanları aradan qaldırır. Müasir elmi tədqiqatlar göstərir ki, uşaq həyatının ilk 6 ili, xüsusilə də birinci 3 ili kritik proseslərin zənginliyi ilə fərqlənir. Anadangəlmə və sonradan qazanılmış inkişaf nöqsanları olan, sosial baxımdan qeyri-qənaətbəxş ailələrdən gəlmiş (qaçqın, tək valideynli, aztəminatlı, evsiz) uşaqların sağlamlıqlarını təmin etmək üçün erkən müdaxilə zəruridir.

Sivil ölkələrdə inkişaf problemləri olan uşaqların erkən aşkarlanması, uşaqlara və onların ailələrinə kömək edilməsi səhiyyə, təhsil və sosial müdafiə üzrə fəaliyyətlərin ən mühüm sahələrindən biridir. Ötən əsrin 70-ci illərinin əvvəllərində bu istiqamətdə mühüm nailiyyətlər əldə edilmişdir. Nəticədə bir sıra ölkələrdə “erkən müdaxilə” adlanan fəaliyyətlə bağlı hərəkat inkişaf problemləri olan uşaqlar və onların ailələrinə dəstək məqsədilə geniş bir sosial layihəyə çevrildi. Kompleks tədbirlər sistemi kimi erkən müdaxiləni həyata keçirən komandanın tərkibində tibb işçiləri (nevroloq, pediatr, fizioterapevt), həmçinin psixoloq, loqoped, pedaqoq və valideynlər çalışırlar. Bu multidissiplinar komandanın üzvləri bərabər hüquqlara malikdirlər. Uşağa aid hansı tədbirlərin həyata keçirilməsi barədə qərarlar komanda tərəfindən qəbul edilir.

Uşaq həyatının ilk günlərindən başlayan, tibbi və qeyri-tibbi tədbirlərin məcmusunu özündə ehtiva edən erkən müdaxilə nəticəsində uşağın psixomotor inkişafındakı pozuntular daha effektiv kompensasiya olunur, psixiatrik və psixoloji pozuntular yüngülləşir və ya tamamilə qarşısı alınır, ilkin bilik və bacarıqların əsası qoyulur. Erkən müdaxilənin məqsədlərindən biri də uşağın inkişafına düzgün istiqamət verməkdir. Düzgün və peşəkarcasına aparılan erkən müdaxilə tədbirləri şəxsiyyətin kompleks inkişafına təkan verir. İnklüziv təhsil kontekstində erkən müdaxilə fəaliyyətinin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, bu fəaliyyət çərçivəsində ilkin pedaqoji hazırlıq nəticəsində uşaq gələcəkdə məktəbəqədər və təhsil mühitində baş verən pedaqoji proseslərə hazır olur. Onu da vurğulamaq lazımdır ki, “erkən müdaxilə” prosesindən sonra, yaxud bu prosesin tərkib hissəsi kimi uşağın inklüziv təhsilə cəlb olunması da son dərəcə vacibdir. Məktəbəqədər təhsil uşaqlarda ilkin sosial bacarıqların və sadə akademik biliklərin əsasını qo-

yur. İlkin sadə akademik bir mühit olan məktəbəqədər təhsil müəssisəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar hazırlıq mərhələsini keçdikdən sonra ibtidai təhsil onlar üçün xeyli asanlaşır.

Erkən müdaxilənin hədəf qrupuna yalnız uşaqlar deyil, həm də valideynlər daxildir. Belə ki, erkən müdaxilənin ikinci dərəcəli məqsədlərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlara düzgün və davamlı yardım göstərə bilmək üçün problemlə əlaqədar valideynlərə lazımi bilik və bacarıqlar aşılamaqdır. Ailə-mərkəzli erkən müdaxilə tədbirləri əsasında, uşaqlarla birbaşa əlaqədə olan valideynlərə uşaqların fiziki, psixoloji və pedaqoji baxımdan optimal inkişafına təkan verən mühüm metodların öyrədilməsi təhsilalanların inkişafını dəfələrlə sürətləndirir.

Bütün bunları nəzərə alaraq demək olar ki, ölkəmizdə inklüziv təhsilin mütərəqqi formasını təşkil etmək üçün mükəmməl bir erkən müdaxilə proqramı hazırlanmalı, ehtiyacı olan uşaqlar bu proqram çərçivəsində müalicə almalı və lazımi pedaqoji təlimlərdən keçməlidirlər.

**ədəbiyyat**


1. Məmmədov C. Sağlamliq imkanları məhdud uşaqların aşkarlanması üzrə klinik protokol. Bakı: Təbib 2012.
2. Mikayılova U., Kərimova Y., Məmmədova S. İnklüziv təhsil. Peşəkarlar üçün metodik vəsait. Bakı: İndigo 2010.
3. Səhiyyə Nazirliyi, Sağlamlıq İmkanları Məhdud Uşaqların Aşkarlanması üzrə Klinik Protokol, Təbib Nəşriyyatı. Bakı, 2012
4. Davies, Sue, ed. (2007). Team Around the Child: Working Together in Early Childhood Intervention. Wagga Wagga, Australia: Kurrajong Early Intervention Service.
5. European Agency for Development in Special Needs. (2005). Early Childhood Intervention: Analysis of Situations in Europe, Key Aspects and Recommendations. Odense, Denmark: EADSN.


**Early intervention as the first step of inclusive education**

**summary**


According to international experience “early intervention” is a key factor in successful inclusive education. “Early intervention” means early detection of any possible intellectual or physical disability and taking necessary intervention measures in order to prevent possible delay in physical, mental and psychological development of a child. Childhood is much more important than other periods of development of a human being. It is a vital period in terms of normal intellectual, physical and psychological development. This period is especially important for children with special needs. Therefore, in developed countries, it is a priority issue to detect children with special needs at an early ages and help them along with their families.


**Раннее вмешательство в качестве первого шага инклюзивного образования**

**резюме**


В статье рассказывается о том соответствии с международным опытом раннее вмешательство является ключевым фактором успешного инклюзивного образования. Раннее вмешательство означает раннее выявление любых возможных отклонений в интеллектуальном или физическом развитии и принятия необходимых мер вмешательства для того, чтобы предотвратить возможные задержки в далнейшем физическом, умственном и психическом развитии ребенка. Детство является гораздо более важным, чем другие периоды развития человеческого существа. Это жизненно важный период для нормального интеллектуального, физического и психологического развития. Этот период особенно важен для детей с особыми потребностями. Поэтому, в развитых странах, очень важно выявлении чтобы обнаружить детей с особыми потребностями в раннем возрасте и помочь им вместе их семьями.

# 20 ЙАНВАР ФАЖИЯСИ – ГАРА ЙАНВАР…

**Кяклик Мяммядова,**
«Мяктябягядяр вя ибтидаи тящсил» ъурналынын ямякдашы

Гатил эцллясиня гурбан эедиркян,
Эюзцнц сабаща дикди шящидляр…
Цч рянэли байраьы юз ганларыйла
Вятян торпаьына чякди шящидляр…
***Бяхтийар Ващабзадя***



1990-жы ил, йанварын 19-дан 20-ня кечян эежя– ўмидляримизин гырылдыьы, арзуларымызын пуч олдуьу эежя… Щямин эежянин шащидляриндян бири дя мяням… Биз Газахыстандан Бакыйа гонаг эялмишдик… Йадымдадыр о эежя… İнана билмирдик ки, belə bir щадися баш веря биляр: доьма сайдыьымыз, мцдафиячимиз щесаб етдийимиз орду цстцмцзя танкларла эяля биляр… Инсанлар юз араларында данышырдылар:

– Эедяйин, ай жамаат, йолларыны кясяйин, бизя эцлля атмайажаглар ки?!

Бакынын матямя бцрцнмцш сямасыны эцлляляр ишыгландыранда да инанмадыг :

– Ясл эцлля дейил бунлар…бизи горхутмаг цчцн атырлар…горхмайын!

Индики Рясулзадя гясябясинин мяркязи йолунда гапылары ачыг «Ъигули»дя гышгыран адамларын кюйняйиндяки ган бизи айылтды:

– Ай жамаат, кюрпцйя тяряф эедин, орада баррикадалары йарыблар, жамааты гырырлар!

Садялювщ инсанлар танкларын габаьыны кясмяк цчцн йешиклярдян, чялляклярдян, ялляриня ня кечмишдися, ондан истифадя етмишдиляр… Бакыда ола-ола бир-биримиздян, кимин башына ня эялдийиндян хябяримиз йох иди… Шящяр ясл мущасиря шяраитиндя иди… Шящяря эириш вя чыхыш баьлы иди… О вахт Салйанда

йашайан валидейнляримимиз Бакынын эиряжяйиндя рус ясэярляри тяряфиндян сахланмышды:

– Отец, нельзя туда, не разрешается…

Атам йола дцзялир:

–Хоть стреляйте, я все равно пойду. Все мои дети там…

Ясэярляр ону сахлайа билмирляр, мане ола да билмирляр…Атам эедир, анам да онун далынжа… Бакынын эиряжяйиндян Рясулзадя гясябясиня гядяр (О вахт гясябя С.М.Киров адына иди…) пийада эялирляр…

Ня телевизийа, ня радио ишляйирди… Инсанлар киминся аьзындан ешитдиклярини, тясадцфян шащиди олдуглары щадисяляри бир-бириня чатдырырдылар… Дейирдиляр ки, изи итирмяк цчцн юлдцрцлянляри дянизя тюкмяк истяйирляр, бизим эямиляр ися бухтаны зянжирвари мцщасиряйя алыб, онлара йол вермирляр… Эямилярин сиреналары еежя-эцндцз сусмаг билмирди… Бу сяс щяля дя мяним бейнимдядир…Дейирдиляр ки, гадынлар, ушаглар да юлдцрцлцб…. Дейирдиляр ки, евляря, ейванлара, тяжили йардым машынларына, щякимляря дя атяш ачыблар… Дейирдиляр ки, ясэярляр щеч ясэяря охшамырдылар, щамысы саггаллы, яжаиб, вящши идиляр… Дцз иди бцтцн бу дейилянляр, чцнки тюрядилян вящшиликляр инсан адына йарашмырды…

О эцнлярдя, еля бил ки, Бакы да йадлашмышды, цзц бозармышды… эцняш дя чыхмырды… кцчяляр донмушду… инсанларын цряйи кими… Мцхтялиф шайияляр эязирди: эуйа Бакыда чеврилиш щазырланырмыш, эуйа Азярбайжанда ислам фундаменталистляри йени ислам дювляти йаратмаг истяйирляр… Бцтцн бунлар ирадясиз, сийасятдян башы чыхмайан сатгын Горбачов щакимиййятинин юз чиркин ямялляриня щагг газандрмаг цчцн уйдурдуьу ийрянж йаланлар иди…

Бу йаланлара гаршы мярщум президентимиз, халгымызын бюйцк оьлу Щейдяр Ялийев юз етираз сясини ужалтды…Тарихян щямишя беля олуб: халгын ян аьыр эцнцндя гящряман оьуллары онун дадына чатыр.

Информасийа блокадасы давам едирди. Еля бил ки, бцтцн дцнйада тяк галмышдыг… Цряйими бир хябяр иситди : мяшщур газах йазычысы Олъас Сцлейменов йанвар гырьыны иля ялагядар Бакыйа эялиб… Ади бир инсанын эялиши бизя бир цмид вермишди : биз тяк дейилик… кимся бизим сясимизи ешидяжяк… Дювлят рящбярляринин дя жамаатла цзляшмякдян ещтийат етдийи, Бакыдан гачдыьы бир заманда бу эялиш мяним цряйимдя, кичик дя олса, бир цмид чыраьы шюляляндирмиш-ди…

Гардаш Тцркийя сясимизя сяс верди… Тцркийянин Азярбайжанла олан сярщядлярини ачмасы ермяниляря вя онларын аьаларына тутарлы жаваб олду…Тарихи бойу кимяся гул олмагла, нюкяр олмагла мювжудиййятини горумаьа чалышан ермяни халгы щеч вахт азад олмайажаг…

Бу гаранлыьы эеридя гоймаг, бу гаранлыгдан сыйрылыб чыхмаг, щям физики, щям дя мяняви блокададан гуртулмаг лазым иди… Сизи инандырырам ки, бу мяняви мцщасиря, дцнйанын карлыьы вя корлуьу щамысындан дящшятли иди… Доьру дейирляр ки, инсанын вя тарихи щадисянин бюйцклцйцнц, язямятини эюрмяк цчцн она кянардан – мцяййян заман кясийиндян бахмаг лазымдыр….



137 няфяр юлдцрцлцб, 700 няфярдян чох адам йараланыб, 800 няфяр щябс олунуб… Бу, щямин ганлы йанвар эежясинин биржя сятиря сыьан щесабаты, гуру рягямлярин статистикасыдыр. Бу рягямлярин архасында нечя-нечя инсан талеляри, пуч олмуш арзулар, йарымчыг галмыш юмцрляр вар иди… Бу эежянин щесабатында Илщам вя Фяризя дастаны да вар…

Онлар йени аиля щяйаты гурмушдулар… Фяризя Илщамсыз щяйаты истямяди… «Ана, мяни аьламайын, мян Илщамсыз йашайа билмярям…» йазды сон мяктубунда… Бятниндяки ики айлыг кюрпя дя ону Илщамсыз щяйата баьлайа билмяди… Дцнйада Лейли вя Мяжнун, Хосров вя Ширин, Ясли вя Кярям, Ромео вя Жцлйетта, Тристан вя Изолда дастанларындан сонра йени бир дастан йаранды: ИЛЩАМ вя ФЯРИЗЯ дастаны… Ня гядяр ки, дцнйа дурур, онлар да йашайажаглар инсанларын цряйиндя…

Дцнйада щеч бир сирр эизли галмыр… Мянфур гоншуларымызын ямялляри кими… Еля сящяри эцн айдун олду ки, хцсуси тяйинатлыларын чоху ермяни имиш… Торпагларымызы пай вердийимиз, ожаьымызын башында отуртдуьумуз, юзцмцзя гардаш щесаб етдийимиз мянфур ермяниляр… Бизи щяр шейдян чох аьрыдан да бу иди: нежя олмушду ки, ясрляр бойу бизи сатан, айаьымызын алтыны газан, дцнйада щяр шейдян гиймятли, язиз олан вятян торпаьыны мин бир щийля, кяляк, сатгынлыг, алчаглыг йолу иля парча-парча яля кечирян язяли вя ябяди дцшмянляримизи танымамышдыг?!… Биз ня биляйдик ки, ясрлярля юз хябис цряклярindя «Бюйцк Ермянистан» хцлйасыны йашадан, позьун гадын кими ян алчаг, чиркин йолларла юз мягсядляриня наил олмаьа чалышан бу ийрянж халг юзцндян эцжлцлярин ялиндя алят олараг халгымызын гяниминя чевриляжяк? Биз щяля билмирдик ки, бу алчаг сийасятин тямяли Ы Пйотрун щакимиййяти дюврцндян гойулуб… Биз щяля билмирдик ки, Ы Пйотрун эизли ямри иля Ермянитсаны Шяргдя Русийанын форпостуна чевирмяк мягсядиля Ирандан вя Тцркийядян ермяниляр язяли вя ябяди Азярбайжан торпагларына кючцрцлмцшдцляр. Онун эюстяриши иля ермяниляр ян йахшы Азярбайжян торпагларында йерляшдирилмяли, азярбайжанлылар ися орадан сыхышдырылыб чыхарылмалы идиляр.

Щятта беля эюстяриш верилмишди: кючцрцлян ермяниляр яввял йашадыглары йерлярин иглиминя уйьун яразилярдя йерляшдирилсинляр ки, язиййят чякмясинляр. Кючмяк истямяйянляря пул тяклиф едилсин…

Ня ися… ермянилярин беля бир мясяли вар: мцсялманын сонракы аьлы мяндя олайды… Гяфлятдян айылдыг, тяяссцф ки, эеж айылдыг… ня гядяр торпагларымыз, Гарабаьымыз ялдян эетди… Ня гядяр вятян ювладынын – шящидляримизин ганы тюкцлдц… Онлардан бизя бир йадиэар галды – Шящидляр Хийабанындакы мязарлар вя Азярбайжанын бцтцн эушяляриндя салынан шящид мязарлыглары…

Гардаш тцрклярдя беля бир дейим вар: « Эцнцн биринде ермени ери Азербайжан ерине сорар:

– Неден сизде шещитлер эюмцлцр, биздейсе йакылыр?

Азербайжан ери шюйле йанытлар:

– Чцнки щазинелер эюмцлцр, чюплерсе йакылыр!….»

Бунунла щяр шей дейилмишдир: ШЯЩИДЛЯРИМИЗ БИЗИМ ХЯЗИНЯМИЗДИР! ВЯТЯН ТОРПАГЛАРЫНДА ЙАТАН ХЯЗИНЯ!!!

Ганлы йанвардан 26 ил кечир. 26 ил – ясрин дюрддя бириндян дя чох… бир иэидин юмрц… бир йох, йузлярля, минлярля азяри иэидинин юмрц… АЛЛАЩ СИЗЯ РЯЩМЯТ ЕЛЯСИН, ШЯЩИДЛЯР!!!

Бунлардыр ганлы йанвар фажиясинин сябябкарлары: Горбачов, Крйучков, Йазов, Багатин, Примаков, Лукйанов, Лебед, Вязиров, Мцтяллибов…. Заман онларын жязасыны веряжякми, вермяйяжякми? Икили стандартларын, ядалятсизлийин щюкм сцрдцйц бу дцнйада бялкя дя онлар юз жязаларыны алмайажаглар, лакин тарих онларын алнына артыг юз дамьасыны басмышдыр: ГАТИЛЛЯР!!! Бу дамьаны онларын алнындан щеч бир гцввя силя билмяйяжякдир!



**ŞƏHİDLƏR XİYABANI –xalqımızın ən müqəddəs anım yeri**

## *<u>TƏBRİKLƏR</u>*

## HƏMKARIMIZI TƏBRİK EDİRİK!



2015-ci ilin sentyabr ayında Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu kurikulum mərkəzinin şöbə müdiri Laləzar xanım Cəfərovanın 60 yaşı tamam oldu... 60 illik zaman kəsiyində hər bir insan dönüb, keçdiyi ömür yoluna nəzər salır, indiyə qədər nələrə nail olduğunu götür-qoy edir, qiymətləndirir. Gəlin biz də Laləzar xanımın ömür yoluna nəzər salaq...

Laləzar Kazım qızı Cəfərova 1955-ci il, sentyabr ayının 23-də İsmayıllı rayonunun Basqal kəndində anadan olmuşdur.

O,1972-ci ildə Bakı Məktəbəqədər Pedaqoji Texnikumuna qəbul olunmuş, 1974-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.1974/75-ci tədris ilində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (o vaxtkı V.İ.Lenin adına APİ-nin) pedaqoji fakültəsinə qəbul olunan L.K. Cəfərova 1978-ci ildə oranı məktəbəqədər pedaqogika və psixologiya ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

O, 1979-cu ildən 1990-cı ilədək Biləcəri qəsəbəsindəki 234 nömrəli uşaq bağçasında tərbiyəçi vəzifəsində işləmişdir. 1980–1990-cı illərdə APİ-də (indiki ADPU-da) saathesabı dərs demişdir.

L.K. Cəfərova 1990-cı ildə ARTPİ-nin (o vaxtkı ETPEİ-nin) məktəbəqədər tərbiyə şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul edilmiş, 1993-cü ildə elmi işçi, 1998-ci ildə böyük elmi işçi vəzifəsinə irəli çəkilmişdir.

1998-ci ildə prof. Y.Ş.Kərimovun elmi rəhbərliyi ilə "Məktəbəhazırlıq qruplarında uşaqların ictimai həyat hadisələri ilə tanışlığı üzrə işin sistemi" (13.00.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

2005-ci ildən ARTPİ-nin məktəbəqədər təhsil şöbəsinin, 2009-cu ildən indiyədək həmin institutda məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri vəzifəsində çalışır.

Bu illər ərzində Laləzər Cəfərova vəzifəsinin icrasına görə pedaqoji aləmdə bacarıqlı və işgüzar təhsil işçisi kimi diqqəti cəlb etmişdir. Onun rəhbərlik etdiyi şöbə elmi fəaliyyətin təşkili sahəsində yenilikçi ideyaların tətbiqi ilə seçilmişdir.

L.K.Cəfərovanın yeni metodların hazırlanması, eksperimental tədqiqat zamanı əldə edilən nəticələrin respublikanın məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində tətbiqi sahəsində şəxsi təcrübəsi və təşəbbüsü pedaqoji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Respublikanın məktəbəqədər təhsil işçiləri arasında L.K.Cəfərovanın böyük nüfuzu vardır.

Laləzər Cəfərovanın iş təcrübəsini, təşkilatçılıq məharətini nəzərə alaraq Təhsil Nazirliyi onu müxtəlif vaxtlarda məktəbəqədər təhsil müəssisələrinin akkreditasiyası məqsədilə yaradılan ekspert qrupuna sədr təyin etmişdir. Laləzər Cəfərova indiyə

kimi 140 elmi əsərin, o cümlədən, 60 metodik vəsaitin, 80 jurnal və qəzet məqaləsinin müəllifidir.

O, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adını almışdır. Bununla da elmi rəhbər olmaq hüququnu qazanmışdır.

O, bir aspiranta elmi rəhbərlik etmiş, bir sıra namizədlik dissertasiyalarına və avtoreferatlara rəy vermişdir.

2001-ci ildən indiyədək Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının məktəbəqədər tərbiyə və ibtidai təhsil bölməsinin elmi katibidir.

Fəaliyyətə başladığı müddətdən bu günə kimi Təhsil Nazirliyi tərəfindən dəfələrlə fəxri fərmanlarla və "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

Laləzar xanım sadə və təvazökar insandır. O, Azərbaycan qadınına xas olan ən nəcib, ali keyfiyyətləri özündə birləşdirir. O, həm də daim müasirlik duyğusu ilə yaşayan, aydın, sağlam ictimai mövqeyə, estetik zövqə malik bir tədqiqatçıdır.

Laləzar xanım institutun bütün tədbirlərində fəal iştirak edir. O, işlədiyi kollektivdə tabeliyindəki bütün əməkdaşların arasında mehriban və işgüzar yoldaşlıq münasibətlərinin yaranmasına nail olmuşdur. Onun gözəl ailəsi, iki övladı, üç nəvəsi var.

Biz kollektiv adından Laləzar xanımı 60 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, pedaqoji və elmi fəaliyyətində böyük nailiyyətlər arzulayırıq!

**Xalidə Həmidova,**
"Məktəbəqədər və ibtidai təhsil"
jurnalının əməkdaşı

## Yeni nəşrlər




Pedaqogi elmləri doktoru, professor Rüfət Hüseynzadə və pedaqoji elmlər namizədi, dosent Tariyel Məmmədovun "Pedaqogika" dərsliyi çapdan çıxmışdır. Dərsliyin redaktoru prof.

L. Qasımovadır. Rəyçilər prof. H. Əlizadə, prof. A.Abbasov, prof. M. İsmixanovdur.

Bu, Azərbaycanda rus dilində çıxan ilk "Pedaqogika" dərsliyidir. İndiyə qədər tələbələr Rusiyanın pedaqogika dərsliklərindən istifadə edirdilər. Dərslik ali məktəblərin bakalavr pilləsi üçün nəzərdə tutulmuşdur.

Kitab dörd fəsildən ibarətdir. I fəsil "Pedaqogikanın ümumi əsasları" adlanır. Bu fəsildə pedaqogika elminin meydana gəlməsi və onun inkişaf mərhələlərindən, Sokrat, Platon, Aristotel, Demokritin pedaqoji ideyalarından, pedaqogika elminə tarixi yanaşma, ibtidai cəmiyyətdə quldarlıq, feodalizm və kapitalizm dövründə təhsil və pedaqoji fikrin inkişafı məsələlərindən söhbət gedir.

II fəsildə təlim və təhsil problemlərindən söz açılır. Bu fəsildə təlimin təşkili formalarından, metodlarından, interaktiv təlim, yeni pedaqoji texnologiyalar, innovasiyalar, konstruktiv, distant və sinergetik təlim, Azərbaycanın təhsil sistemində dövlət siyasətinin əsas prinsiplərindən, kuriklum, qiymətləndirmə və s. problemlərdən bəhs olunur.

III fəsil tərbiyə problemlərinə həsr olunmuşdur. Bu fəsildə insan tərbiyə prosesinin predmeti kimi, tərbiyənin prinsipləri, qanunauyğunluqları, məzmunu, forma və metodları təhlil olunur.

IV fəsil məktəbşünaslıq problemlərinə həsr olunmuşdur. Bu fəsildə məktəbdə idarəetmə və təlim-tərbiyə işinə rəhbərlik, məktəbdaxili nəzarətin forma və metodlarından söhbət gedir.

Dərslikdə pedaqogikanın nəzəri və metodoloji əsasları, müasir pedaqoji nəzəriyyələr, tərbiyə konsepsiyaları, təhsildə innovasiyalar, şəxsiyyətin tərbiyəsi inkişafı erkən, məktəbəqədər yaşlı uşaqların psixoloji-pedaqoji xüsusiyyətləri, variativ proqramları, məktəbin işində varislik prinsipi məsələləri ətraflı şərh olunur.

Dərslik Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrasında, fakültəsinin elmi şurasında təsdiq edilmişdir.

Pedaqogika elminin nəzəri, metodiki, tarixi aspektlərini əks etdirən bu kitab pedaqoji təmayüllü ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur. Dərslikdən müəllim və pedaqoqlar, pedaqogika üzrə tədqiqatçılar da istifadə edə bilərlər.

**Bakı şəhəri, Yasamal rayonu, 121 nömrəli körpələr evi-uşaq bağçasında Yeni il şənliyi**




İLİNİZ MÜBARƏK
2015